SƏRİNGÜL SADƏ

Qürbətdən qürbətə

"Elm və təhsil"
Bakı - 2025

Redaktor:
Vaqif OSMANLI
araşdırmaçı yazar, ədəbi təhlilçi, publisist

Kitabın yazılmasının və adının təşəbbüsçüsü xalq şairi N.Həsənzadədir.

Səringül Sadə. Qürbətdən qürbətə.
Bakı, "Elm və təhsil", 2025, 176 səh.

Sözlü, sazlı, bayatılı qədim-qayım Borçalının söz, saz mühitli ailəsində doğulmuş, düşüncələrini şeirə çevirməyi bacaran Səringül Sadə ömrünün bir hissəsini xarici ölkələrdə yaşayıb, səfərlərdə, yollarda keçirib, həmin anların şirinli-acılı xatirələrini qələmə alıb, bir ömür dastanı yaradıb. Şair xanımın publisist düşüncələri bayatıları, rübailəri, qoşmaları qədər mükəmməldir. Bu düşüncələrin mayası Vətəndir, millətdir, mənəviyyat dünyasıdır, yaşamağa, Vətəni sevməyə, xeyirxahlığa, bir sözlə, insanlığa çağırışdır. Kitab Vətən sevgili oxuculara dəyərli töhfədir.

"Qürbətdən qürbətə" müəllifin altıncı kitabıdır.

4603000000 qrifli nəşr
N-98-2025

© Səringül Sadə, 2025

VƏTƏN SEVDALISININ QÜRBƏT DUYĞULARI

Vətən sarı,
Aç yaram, Vətən sarı.
Ölsəm qiblə gəzməyin,
Basdırın Vətən sarı.

Eşqi Vətən olanların kövrək hissləridir bu cinaslı bayatı. Səringül Sadəyə görə, eşq həyatın özüdür, insanlığın barıdı, cənnətin yoludu, hər arzunu gerçəkləşdirən qəlb yanğısıdı. Mənə elə gəlir ki, eşq qəlbin sinonomidi. Böyük fəlsəfi fikir şairi Bəxtiyar Vahabzadə "eşq" sözünü sözlərin sultanı, tacı, həyat ağ+acı hesab edir. Səringül xanım da qarşınızdakı kitabda bunu təsdiq edir.

Səringül Sadə nə vaxtsa bir şeir yazıb, adı da "Bu kitab". Uzaqgörənliklə o şeirdə sanki bizə təqdim etdiyi kitabın məziyyətlərini, özünün narahat qəlb döyüntülərini, pıçıltılarını, üsyanlarını, həssas və obyektiv gözləriylə gördüklərini nəsrə çevirib. Oxucularına xoşməramlı ismarış göndərən bu kitabın işıq üzü görəcəyini azı 5-6 il əvvəl xəbər verib. "Nəvələrə yadigar, bizlər üçün yaz-bahar" "Qürbətdən qürbətə" kitabında el-obadan, Vətəndən, "dada-hoya yetən mərd igidlərdən", ömür yolunun enişindən, yoxuşundan, sevincli, fərəhli, kədərli, sızıltılı anlarından, gəncliyində faciəli şəkildə itirdiyi, dadından doymadığı ilk məhəbbətin xoşbəxt anlarının şirinliyindən, Alla-

hının ona ağır günlərində bəxş etdiyi gücdən, ilk məhəbətin şirin payları qızından, oğlundan, nəvələrindən söhbət açır. Bizi gah duygulandırır, gah da sevindirir, həm də fərəhləndirir ki, ulu Türkün belə mübariz qızı var. Və bir də Tanrının ona ərmağan etdiyi, bu ağrı-acılardan sonra onun yoluna çıxardığı bir ali insanın xeyirxahlığından, sevgisindən yazanda hiss etdim ki, ikinci ömür-gün yoldaşı onun yaralarınının təbibidir, xoşbəxtlik mələyidir. O, bir Vətən qızı, ana, nənə, ömür-gün yoldaşı kimi səmimi hisslərini fikir süzgəcindən keçirib bizə göndərib.

Vətən namus, Vətən ar,
Vətən qürur, iftixar!
Can olsun ona fəda,
Sadə yoxsa, Vətən var.

Bir atalar sözümüz var - Vətənin bir qış günü qürbətin yüz baharından yaxşıdır. Bunu Səringül xanım şeirlərində - xüsusilə ulu nənə və babalarımızın yaratdığı, dilə, ağıza düşüb min-min illərdən bəri bizə gəlib çatan şifahi xalq ədəbiyyatımızın yığcam, mənaca böyük janrı bayatılardan heç də geri qalmayan bayatılar çələngi ilə təsdiq edir. Şair xanımın qürbət duyğuları nə qədər emosional olsa da, inandırıcıdır. Sanki sınaqlardan çıxıb qayalar kimi möhkəmlənmiş bir ömür dastanı vərəqləyirsən. Vərəqlədikcə də düşünürsən, nə yaxşı ki, mənəvi zəngin - xeyirxah, mərhəmətli, səxavətli, ailə və dostcanlı, dost uğurundan fərəhlənən, gözəlliyə vurğun, eybəcərliyə düşmən, el-oba, Vətən dərdini dərdi, sevincini sevinci bilən insanlar var.

Bax, bir ömür dastanı kimi vərəqləyəcəyiniz "Qürbətdən qürbətə" kitabını dəyərli edən belə mənəvi dəyərlərdir.

Hər vərəqdə Vətən ətri duyulur,
Oxuduqca dərdlər-qəmlər yuyulur.
Sadə sözü hikmətindən duyulur,
Arif olan bunu əldən salmasın.

"Qürbətdən qürbətə" bir açılı-şirinli xatirə dünyasıdı. Bu dünyanı saf, həzin, oxunaqlı edən qürbətdə onu heç vaxt tək qoymayan Vətən həsrətidi. Bu xatirələrə mehman olanda durulub, saflaşıb Vətəni daha ürəkdən sevirsən, qədirbilən olursan. Bu səmimi hisslər Səringül xanımın dediyi kimi, bu günkü və gələcək nəsillərə bir nənə öyüd-nəsihətidir. Mənəvi dünyamızın dağılmağa doğru getməkdə olduğu indiki zamanda "Qürbətdən qürbətə" az-az yazılan mənəvi xəzinələrdəndi, yolları yoran, özü yorulmaq bilməyən, öyrənən və öyrədən Səringül xanımın söz bəxşişidi.

Onun gözləri hər an yollarda qalıb - onu Vətənə gətirəcək yollarda. Onun səcdə yeri Vətən daşı, torpağıdı, pirani insanlardı.

Yalqızlıq çətindi, de, dözüm necə?
Bakıda gündüzdü, qürbətdə gecə.
O bizim dağlara getsəydim bircə,
Səcdə eləyərdim daşa, torpağa.

Səringül Sadə ulu Türk diyarı Borçalıda doğulub, boyabaşa çatıb, saz, söz yığnaqlarında püxtələşib, saz havacatları ilə nəfəs alıb. Sonra tale onu yolları yoran səyyaha,

Haqq axtaran dərvişə çevirib. Dünyanın ən azı yarısını gəzib-dolaşıb, görüb, götürüb. Qürbət ağrısını dadıb, əlbəttə, xoş məqamlar da yaşayıb. Görüb ki, qürbətin dağlarında bizim dağlardakı kimi "su axıb ot bitmir, dağlarda yaylayanlar yoxdu, o dağlar Şindiyə, Ləlvərə, Əyriqara, Şamdüyə, Sərxana tay deyil, bulaq üstə süfrələri düzən yox", saz, söz yığnaqları yox, el aşıqları gözəlləri vəsf etmir, bulaq başında, cığırda, izdə çiyni səhəngli incəbelli, məsum el qızları el igidləri ilə əhdi-peyman eləmir. Səringül xanım qəlbindəki təlatümləri Haqq aşığı kimi, ilahi sözə çevirir, sevgisi dağlar, sazı zirvələr, mizrabı şəlalələrdi, havacatı da ana təbiətin qucağında bülbülün gülü, gülün bülbülü çağırmasıdı, qartalların qıyıdı.

Dərdim-qəmim dilə gəlməz, bir ətək,
Nə faydası dağ həsrəti çək də, çək?
Səringül Sadəyəm, qürbətdə məntək,
Dağlar deyib ürəyini üzən yox!

Səringül xanım insan sərrafıdı, xatirələrində tanıdığı çeşid-çeşid insanların daxili dünyasını, xarakterlərini əsl psixoloq kimi açır. Şair xanıma görə, "adam var ki, göydən enən mələkdi, adam var ki, özü boyda kələkdi, adam var ki, könülləri şad eylər, adam var ki, şeytan ondan dad eylər. Adam var ki, yolu Haqqın yoludu, adam var ki, şər, böhtanla doludu". O adamlarda sərraf Səringül xanım "cəhənnəmi andıran da baxış görüb, ümid şamı yandıran da. Mənasız, quru baxış da görüb, axar su kimi duru baxış da, ürəyi durduran baxış da, qəlbə körpü salan baxış" da.

Bəli, "adam var ki, Səringül ona can deyər". Onun can dediyi insanlarla onu bəzən uzaq məsafələr ayırsa da, həmişə mənəvi yaxınlıqda olub, onunla bir deyib, bir gülüb, sevincinə sevinib, qəminə şərik olub. Nə yaxşı ki, bu dünyada onun qarşısına çıxan yaxşılar yamanlardan çox-çoxdur. Bu kitab yaxşılara, insanlığa örnək olanlara, onun sevincinə, uğuruna sevinənlərə, anlayanlara, duyanlara qədirbilənliklə yazılıb.

Şairin ömür dastanının Borçalı boyu yaddaqalan və al-əlvandı. Orda silinməz uşaqlıq xatirələri şipşirindi, atasının bayatılı, 104 yaşlı anasının laylalı dünyası həmişə təzə-tərdi. Böyük insanların əbədi ömür nəğmələri onun ilhamının qoşa qanadıdı, bu qanadlar ona pərvaz etməyə, dünyanı məmləkət-məmləkət gəzməyə, bir cahana sığmayan ürəyində çoxlu cahanlar - söz, fikir, Ana Vətən kainatı yaratmağa, yaşatmağa imkan verib. Bu qanadlar həmişə möhkəmdi, gücdən düşməyib, özünü də, sözsevərləri də yaşadır.

Onun həyatından üç məqamı xüsusilə vurğulamaq yerinə düşər. Birinci, Qazaxıstanda qonaq olarkən gənc Səringülün heç vaxt xatirəsi qəlbindən silinməyən 31 yaşlı ömür-gün yoldaşını təsadüfən açılan güllə ilə faciəli şəkildə itirməsi bir romanın mövzusudur.

İkinci, təsadüfi bir ziyafətdə səmimi, qayğıkeş, ona təmənnasız ömrünü fəda etməyə hazır olan, "yeddi il bir gün də ötürmədən ona bir gül buketi hədiyyə edən", onun əzablarına məlhəm, yaralarına təbib Şotland Türkü Qrahamla ilahi sevgisi bir əfsanəvi məhəbbət dastanı üçün

əvəzedilməz ədəbi materialdı. Yazan tapılsa, ailə münasibətlərinə, vəfaya, etibara laqeyd gənclərə örnək olar.

Üçüncü məqam isə odur ki, Səringül Sadənin bayatı yaradıcılığı ədəbiyyatşünaslar tərəfindən dərindən tədqiq olunsa, onun bayatılarının çağdaş dövrdə çox mətləblərə işıq saldığını görərik. Səringül xanımın bayatıları poetik informasiya ötürücüsüdür, ana xətti Vətəndi, sevgidi, düşmənə nifrətdi, səxavətdi, rəşadətdi, 44 günlük ikinci Vətən Müharibəsində göstərilən şücaətdi. Bəli, bu "bayatı çələngi"nin ayrı-ayrı çiçəkləri həm də ən yeni qəhrəmanlıq tariximizdi.

A yağı,
Canın çıxsın, a yağı.
Heç dəyməsin Vətənə,
Yağı düşmən ayağı.

O, Xudaya əl açır: "Xudam, bir dərman göndər, paxıllığın dərdinə".

O, ömrünü hədər yerə yandırmayıb, "saf yaşayıb, saf qalıb, qaranlıqlarda od qalayıb".

Onun bir inamı var - onu söz və sevgi yaşadır, yaşadacaq...

O, qəlbində bir eşq məbədi ucaldıb. Bu söz və mənəviyyat məbədinin işığından çox ürəyə nur düşür. Eşqiniz tükənməsin, Səringül Sadə!..

Vaqif OSMANLI
araşdırmaçı yazar,
ədəbi təhlilçi, publisist

MƏN KİMƏM?

Mən Səringül Sadəyəm,
Eşqlə dolu badəyəm.

Özümü anlayandan bu günə kimi demək olar ki, hər gün ömür yoluma qısa, ancaq çox ciddi səyahət edir, "mən kiməm?" sualına cavab axtarır, özüm özümə hesabat verirəm, həyatımın müxtəlif məqamlarını çözürəm. Mən dünyaya nə üçün, hansı məqsəd və məramla gəlmişəm? Bu sual mənim ömür yolumun nizamnaməsidir, daha doğrusu, Ana Yasasıdır, Avropanın siyasi lüğəti ilə desək, konstitusiyasıdır, mənim qanunlar sistemimdir. İnsanlığa xidmət üçün yazdığım bu qanunlar toplusu illər keçsə də dəyişmir, əminəm ki, nə qədər canımda can var, dəyişməyəcək. Çünki bu bəşəriyyətə ilahi xidmətdir.

"Mənalı yaşanmış hər bir ömür uzun ömürdür" deyimi Leonardo da Vinçinindir. Mənə elə gəlir ki, mən uzun ömür yaşayıram. Axı yaşadığım hər günümü mənalı etməyə, hər anın qiymətini bilməyə, taleyin mənə lütf etdiyi ömrü dəyərləndirməyə çalışıram. "Dünya bir pəncərədir" - deyib həyata elə-belə baxıb getmək mənim lüğətimə yazılmayıb. Özümü anlayandan ömrümün çox hissəsini yollarda, səfərlərdə keçirirəm. Heç vaxt yollar yormayıb məni. Yollar ayrılıqlara, nisgilə, həsrətə səbəb olsa da, həm də yeni dostlar, tanışlar qazandırır, yeni mədəni münasibətlərə vəsilə olur, yeni dünyabaxışların təməlini qoyur, görüb-

götürürsən. Həm də qürbət ağrıları Vətən, millət, el-oba, torpaq, insan sevgimizi daha da alovlandırır. Bir atalar sözümüzdə deyildiyi kimi, Vətənə gələndə saflaşırıq, imana, anamızın qucağına gəlirik. Axı Ana kimi yar olmaz, Vətən kimi diyar...

Ömür insana bir dəfə verilir. Kainatın zaman hesabı ilə bir an qədər qısa ömrümüzdə özümüzü təsdiqləmək, adımızı yaşatmaq üçün hər anın qədrini bilməsək, mənasız məşğuliyyətlərə zaman ayırsaq, illəri yox, hətta bir göz qırpımı qədər anları, imkanları yelə versək, tarixdə, insanların yaddaşında izimiz qalmaz. Ulu Türkün düşüncəsinə görə, qədirbilməzlik ən pis əxlaq qaydasıdır. Həyatı elə keçirməliyik ki, iş işdən keçəndə başımıza, dizimizə döyə-döyə bir az da zaman dilənməyək. Yadda saxlayaq ki, Tanrı bu fani dünyada heç kimə ikinci ömür bəxş etməyib. Əgər şərəfli yaşamısansa, haqq dünyasında da əbədi ömür yaşayacaqsan - bu dünyadakı əməlinlə, niyyətinlə, əqidənlə, gördüyün işlərlə...

ATA, ANA - RƏBBİMİZİN KÖLGƏSİ

Dünya yoldu, biz bu yolun yolçusu.
Ömrüm tarixlərin qan yaddaşıdı.

Mən, Səringül Ömər qızı İsmayılova (ədəbi təxəllüsüm Sadə) 1958-ci il fevralın 13-də ulu Borçalının qədim cənnət guşəsi Başkeçid (indiki Dmanisi) rayonunun Qızılkilsə kəndində doğulmuşam. Atam Ömər Nəbi oğlu Orucov 1918-ci ildə Başkeçidin Dəmirçi Hasanlı (indiki Qızılkilsə) kəndində, anam Xanım 1921-ci ildə Başkeçidin Az-Gəyliyan kəndində anadan olublar. Anam o yerlərin varlı və tanınmış adamı Bəxtiyar ağanın qızıdır. 104 yaşı var, indi də əli işdən soyumur, həyat enerjisi tükənməzdir.

Atamı 1939-cu ildə Az-Gəyliyan kəndinə rus dili müəllimi göndəriblər. O, beş dili öz ana dili qədər bilirdi, gözəl bayatılar yazırdı.

Sovetlər rejimi anamgilin, yəni Bəxtiyar ağanın evini əlindən alıb məktəb edib. O zaman anamgil doğma evlərinin zirzəmisində yaşamağa məhkum edilib. Bəxtiyar ağanın fermalarını, tövlələrini kollektivləşmə dövründə kolxoza veriblər. Babam həmişə qonaq-qaralı kişi olub, tez-tez evində söz-saz məclisləri təşkil edərdi. Yetim qız kimi böyüyən anam evdar qadın olsa da, hələ gənc yaşlarından sinəsi laylalı, bayatılı, qoşmalı, təcnisli sinədəftərdi, indi də yaddaşı güclüdür, sazlı, sözlü ürəyi, dili, avazı eşidənləri, görənləri heyran qoyur. Abam (Borçalıda anaya belə deyirlər) göylərdən enən mələkdi, susuz səhra görsə yağı-

şa dönən, həzin nəğmə kimi dillərdə gəzən, azca qəmimiz olsa uzaqdan sezən, dili, diləyi arxasıza arxa dur, könüllərdə körpü, yaxşılıqdan saray qur öyüdlü, dara düşənin "neyləyim" sualını tez cavablandıran, paxıllıq nədi bilməyən, ağlayan kimsəni görsə gülməyən, ağlayanı kiridən, qəm-qüssəni əridən, el-obanın gövhəridi. Adı da, özü də Xanım anam 104 yaşında da əldən-ayaqdan düşməyib, ağlı, huşu, söz-söhbəti yerindədi. Anama qurban olum, ağrımasın heç zaman, ağrısa ürəyimin başı göynəyər. Anamla görüşənlər onun yaddaşına heyran qalırlar. Dirrikdə, həyət-bacada işləyir, əkib-becərir, əllərinin bərəkəti tükənmir.

Atam məktəbdə müəllim işləyəndə anamı görüb və bəyənib. O dövrdə çoxlarının ağa qızına könül vemək cəsarəti olmasa da, atam anamla evlənir. Onlar evlənəndən sonra Qızılkilsəyə köçürlər. Orada ev-eşik edir, təməli halal zəhmətdən, müqəddəs sözdən köz götürən əbədi ocaq yaradırlar. Atam beş dili - Osmanlı türkcəsini, rus, gürcü, erməni dillərini ana dilimiz qədər bilirdi, o dillərdə mükəmməl danışırdı.

Atam rus dili müəllimi olmaqla yanaşı, həm də arı saxlayardı. Həmişə arı yeşiyinin üzərinə uzanıb arıların səsinə qulaq asar, məni də o səsi dinləməyə çağırardı. Arıların vızıltısına "müsiqi" deyəndə gülərdim. Onda atam ciddi şəkildə məni inandırmağa çalışardı ki, hətta Bethoven arıların çaldığını çala bilməz. İnanırsınız, biz balı su yerinə işlətmişik.

Şair, alim övladlar böyüdən bizə ancaq doğruluğu, dürüstlüyü, insanlığı, elmi, biliyi öyrədən bir Dədənin - Ömər müəllimin qızı olmaq həm xoşbəxtlikdir, həm də məsuliyyət. Ədəb-ərkan, mənəviyyat çığırından bir addım aralı düşmək heç birimizin ağlına gəlməzdi. Çünki biz Ömər müəllimin övladlarıydıq. Atam həddindən artıq ailəcanlıydı, heç vaxt bizə ağır söz, yaxud onu niyə dediniz, niyə elədiniz deməzdi. Atama "lələ" deyərdik. Biz dəcəllik eləyəndə, anamın sözünə baxmayanda anam bizi tənbeh etsə də, atam xətrimizə dəyməzdi, çox sakit təbiətliydi. Ömər müəllim kənddə sayılıb-seçilən şəxs idi, xeyirxahıydı, kiməsə kömək lazım olanda birinci özünü yetirərdi, əli dülgər, gözü zərgər idi, söz xiridarıydı, halal, doğru-dürüst kişi kimi kənd əhalisinin hörmətini qazanmışdı, nüfuz sahibiydi. Kənddə əksər evlərin bağ-bağatındakı ağacları atam calayardı.

"Mən Dədəmin qızıyam!" şeirimi oxuyan sadiq oxucum - bir rəfiqəm yazırdı ki, lirik duyğularınızda qürur, soy-kökə bağlılıq, ər oğlu ər kimi bir Türk kişisinin qızı olmaqdan doğulan fərəhi duydum. Bu hər övlada nəsib olmur.

QARDAŞ, BACI - BAŞIMIN TACI

Ömründən pay da çıxıb,
Bacı verər qardaşa.

Biz ailədə on uşaq olmuşuq. Uşaqların ikisi körpə ikən rəhmətə gedib. Qardaşlarım İladi, Nəbi, Vidadi, Elmar da saza, sözə biganə olmayıblar. Hamımız sözü sözə qoşmağı bacarırdıq.

İladi Ömərоğlu əsl ziyalıdı, hikmətlidi, mötəbərdi, el-obanın seçilmişlərindəndi. Sözü poeziyaya çevirməyi bacaran istedadlı şairdi, hələ gənclik illərindən zəngin kitabxanası var. Kitabxanasındakı bəzi kitabları oxumağı mənə qadağan etmişdi. Mən həmin kitabları gizlin oxuyardım. Həddən ziyadə səliqə sahmanlıydı, rəftarında da hər sözün yerini, hər işin yolunu, yöndəmini bilirdi. Bir dəfə oxuduğum kitabın vərəqini qatlamışdım, məni xəbərdar elədi ki, bir də sənə oxumağa kitab verməyəcəm. O, kitaba müqəddəs varlıq kimi baxır. On iki kitab müəllifi, "Qızıl qələm" və "Zirvə" mükafatları laureatıdır.

Mənim altı yaşım olanda mamam (bibim) bizim evə saz gətirib. Ondan sonra Nəbi qardaşım saza bağlandı, qəşəng saz çalırdı. Sözünü mərdi-mərdanə söyləyən igid nəriydi, zatını dananları qələm qılıncıyla qandıran, dərdi-səri düzlük olan, fani dünyadan tez gedişiylə ağzımızdakı dilimizi, köksümüzdəki ürəyimizi yandıran, özü getsə də yanar közü sönməyən, qılıncdan iti sözü bu gün də yaşayan Nəbi qayğıkeş övlad, qardaş, dayı, əmi, ataydı.

Zəkası dərin ümman, elm-irfan sahibi, saz sevdalısı, Vətənin, yurdun hər qarış torpağını, millətini, hətta ağacını, daşını sevən zəngin erudisiyalı fizik qardaşım Vidadi pedaqogika elmləri doktorudur, "Azərbaycan Respublikasının Qabaqcıl Təhsil İşçisi" döş nişanı ilə təltif edilib.

Ərkimizi götürən, dərd-sərimizi, kədərimizi, gileyimizi mehribanlığı ilə ötürən, həqiqət qoruyucusu kiçik qardaşım Elmarın gözəl səsi, avazı var. Nəbi sazda ifa edər, Elmarsa Bəhməndən, Sücaətdən oxuyardı. Nəbi və Vidadi qardaşlarım bir-birinə şeirlə məktublar göndərərdilər. Elmar uzun müddət Prezident Administrasiyasının müəssisələrinin birində baş mühasib işləyib.

Qardaşlarım biz bacılar üçün bilik, əxlaq, mənəviyyat, sözübütövlük, meyarı olub, çətinə düşəndə onları yenilməz arxa, dayaq bilmişik. İladi çox ağıllı, tədbirli və təmkinli, Nəbi dəliqanlı, Vidadi zəngin elmli, Elmar sakit təbiətlidir.

Dədəm əvəzi qardaş,
Yolunda qoyaram baş.
Mənim sinəmə dəysin,
Ayağına dəyən daş.

Dörd bacı idik. Səadət Buta Allahın bizə xoş gündə atasıdı. Dördüncü sinifdən şeir yazmağa başlayıb. İndi on beş kitab müəllifidir. Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Aşıqlar Birliyinin üzvüdür, Aşıq Pəri Məclisinin qurucularındandır. "Sazın, sözün Butası" təşkilatının tə-

sisçisidir, "Borçali" İctimai Birliyinin Qadınlar Şurasının sədridir. Gürcüstan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunub. "Aşıq Ələsgər - 200" yubiley medalına layiq görülüb, "Abdulla Şaiq", "Xan qızı Natəvan", "Zirvə", "Zəfər" mükafatları laureatıdır. "Dmanisi" poeması Gürcüstanda yaşayan azərbaycanlıların gürcü dili dərsliyinə salınıb. Qımqımalardan on iki xalq mahnısı yaradıb, üç dastan müəllifidir.

Elmira bacımız tez dünyasını dəyişib. Yazıb-yaratmasa da, saz, söz vurğunu olub. Səliqə-sahmanlı şirin bacım həyanım idi.

Xanım-xatın, vüqarı dağ, qəlbi dəniz, gözümüzün nuru, el-obanın qüruru sonbeşiyimiz Gülnar məndən 12 il sonra doğulub. Mənə o vaxtdan "xala" deyir. Onun dili ilə bütün kənd mənə "xala" deyə müraciət edir.

O ki, qaldı mənə, ailənin altıncı uşağıyam. O biri bacılarımdan fərqli olaraq, dəcəl, dəli-dolu, qorxmaz, qoçaq qız olmuşam. Orta məktəbdə oxuyanda qardaşım İladi məni oğlanlarla güləşdirərdi. Balaca qardaşım Elmarı kim döyərdisə, səhəri gün mən də onu döymüşəm. Bir dəfə məktəbdə bir oğlanı döydüm. Anası bizə gəlib atama şikayət edəndə atam zarafatla, - eybi yox, qoy yekəlsin, onu oğluna verəcəm, - deyəndə, o, atamın yumorunu başa düşməyib əməlli-başlı hirsləndi: "indi oğlumu döyən bizim evə gəlin köçəndən sonra məni də döyər, neylirəm belə gəlini"...

Çox rəngbərəng keçib uşaqlıq illərimiz. Hamımız ədəbiyyatı, xüsusilə poeziyanı çox sevmişik. Bir kitabın üs-

tündə dava düşərdi ki, birinci kim oxusun. Hamımız həmin kitabı oxuyub qurtarandan sonra fikir mübadiləsi edər, kitabın məziyyətlərini öz düşüncəmizlə incələyərdik.

Axşamlar Nəbi, Vidadi, Elmar və mənim bir sevimli "şeir-şeir" oyunumuz başlayardı. İladi və Səadət bizə qoşulmazdılar, onlar bizdən xeyli böyük idilər. "Şeir-şeir" oyununu pulla - 5 qəpikdən oynayardıq. Oyunun qaydası beləydi. Birimiz bir beyt, yaxud bir bənd şeir deyərdik. Oyun iştirakçıları beytin, yaxud bəndin sonuncu hərfi ilə başlanan şeir deməliydi. Kim birinci deyərdisə, 5 qəpik onun olardı. Mən həmişə tez cavab verərdim.

Atam qədər doğmam, qolum-qanadım, ustadım olan, hörməti-izzəti qəlbimdə qalan ədəbiyyat müəllimim Əhməd, çox erkən qəlbini qəmlər alan, cavan yaşındaca yarsız qalan Manya, işıqlı xatirəsini ehtiramla yad etdiyim Quban müəllimlərim məni çox sevirdilər. Başqa fənlərdən fərqli olaraq, ədəbiyyatı əla oxuyurdum. Məktəbə yoxlama gələndə üzlərini ağ eləyirdim. Bir şeiri üç dəfə oxuyub əzbər deyirdim.

Məhləmizdə mənimlə tay-tuş yeddi oğlan vardı, Nəbi məni onlarla güləşdirərdi. Hamısının kürəyini yerə vurardım. Nəbi qalib gəldiyimə görə məni çiyninə alıb dövrə vurar, hər ikimiz sevinərdik. Evə gələn kimi anam bunu eşidib hirslənər, ayıbdı, qız nədi, güləşmək nədi, deyib danlayar, məni döyərdi.

Ata minməyi çox sevirdim. Düzünü desəm, qızlar üçün nə qadağa vardısa, mən edirdim. Bu da çoxlarının, birinci növbədə anamın xoşuna gəlmirdi.

Günlərin bir günü bir oğlan bacısını mənə elçi göndərir. Qış fəsliydi, biz qarın üstündə xizəklə sürüşürdük. Artıq qaranlıq idi, bilirdim ki, bizə elçi gələndə yanımızdan keçəcək. Gördüm ki gəlir, yanıma çatanda yoluna ayaq uzadıb badalaq vurdum. Əlindəki konfetlər qarın üstünə səpələndi. 10-15 uşaq konfetləri dənləyib yedik.

Sovxozun bağına oğurluğa gedərdik. Əslində oradan oğurladıqlarımızdən həyətimizdə, bağımızda nə qədər istəsən vardı. Ancaq oğurluq mal daha şirin olur deyirlər. Uşaq həvəsi ilə oğurladığımız qarğıdalını, kal almanı çöldə qazan asıb bişirərdik, ləzzətlə yeyərdik...

***

Ailəmizin bütün üzvləri elinə, obasına, torpağına, millətinə, Vətəninə qırılmaz tellərlə bağlı insanlar olub. Bizi Borçalıda söz, saz şəcərəsi kimi tanıyırlar. Bu sevgi bizə ata-anamdan miras qalıb. Belə mənəvi miras bizim ən dəyərli sərvətimizdir. Söz vermişik ki, onu canımız kimi qoruyub gələcək nəsillərə çatdıraq. Səadət Buta da təsis etdiyi "Sazın, sözün Butası" təşkilatını bu məqsədlə yaradıb...

Atam, anam - baş tacım,
Qolum, qanadım – bacım.
Can-ciyərim qardaşdı,
Onu sevmək amacım.

BİR DÜNYA TAPMIŞDIM YAR BAXIŞINDA...

Dərd dolu gəmi gəldi,
Lövbəri saldı məndə.

Ömrüm tarixlərin qan yaddaşıdı, şirin çağları da çox olub, acı günləri də. Uşaqlıq çağlarımda kənddə həmişə anamla dağlara çıxardıq, binə qurardıq. Qır dağındakı binələrə Keçəltəpə deyərdik. Bütün oradakı ağbirçək qarıların xidmətində dayanmaqdan yorulmazdım. Onlara su daşıyardım, ev-eşiklərini yığışdırardım, çimizdirərdim. Yaylaq günlərimin şirinliyi, oradakı insanların təbiiliyi, qədirbilənliyi bu gün də məni özünə çəkir. Onlar məni çox istəyərdi. Balaca bacımın "xala" deyə mənə müraciəti onların xoşuna gəldiyindən ağbirçəklər də mənə "xala" deyərdi.

10-cu sinifdə oxuyanda məni dayımoğlu Bəkirə nişanladılar. O, əsgərlikdə olanda nişanlımın anası dünyasını dəyişdi. 1975-ci ildə orta məktəbi qurtaran kimi anasız qalan üç uşağa qayğı gərək olduğundan məni toysuz, çal-çağırsız gəlin apardılar. Lap gənc yaşlarımdan o uşaqları öz balalarım kimi böyütdüm.

Ömür-gün yoldaşım mərd, səxavətli, doğru-dürüst, hündürboylu, məndən qat-qat misilsiz gözəl idi. Hamı həsəd aparırdı ki, belə oğlana ərə getmişəm. Qısqanclıqda da tayı-bərabəri yox idi. Ona görə də tez-tez dalaşardıq, küsüb ata evimə gedərdim.

Evlənməmişdən əvvəldən də Bəkir yay aylarında SSRİ-nin müxtəlif respublikalarının şəhərlərinə mövsümi işləməyə gedərdi. Evlənəndən sonra hansı şəhərə işləməyə gedirdisə, mütləq məni də özüylə aparırdı. Köçəri quşlar kimi şəhər-şəhər, qəsəbə-qəsəbə SSRİ-nin 15 respublikasını gəzirdik. 1978-ci ilin sonunda qızım Elnarə, 1982-ci ildə Krasnoyarsk diyarında oğlum Teymur dünyaya gəldi.

Bəkirin bir bacısı və bir qardaşı Alma-Ata (indiki Alma-Atı) şəhərinə yaxın qəsəbədə yaşayırdılar. 1988-ci ildə onlar bizi Qazaxıstana qonaq çağırdılar. Qızımızı anamın yanında qoyub, oğlumuzu özümüzlə apardıq. Getdiyimizdən üç gün keçmişdi, noyabrın 7-də bizi qaynımın qaynanasının ad gününə dəvət etdilər. Çox maraqlıdır ki, Bəkir də 1957-ci il noyabrın 7-də doğulmuşdu. Böyük məclis düzəltmişdilər, həyat yoldaşım arabir spirtli içki qəbul eləsə də, qonaqlıqda içmədi. Məclis bitəndən sonra qayınımgilə qayıtdıq. Çay süfrəsi hazırlayırdım, qayınım odun qoyub sönmüş sobanı qalamaqda, onun həyat yoldaşı yataq yerlərini hazırlamaqda ikən bayırdan səs-küy eşidildi. Bəkir tez əynini geyinib bayıra çıxdı. Mən çay stəkanlarını otağa gətirəndə güllə səsinə diksindim, stəkanlar əlimdən düşüb qırıldı, qayınım Bəxtiyarla cəld bayıra qaçdıq. Qonşular dalaşırdılar. Yerdə 3 metrə yaxın qar vardı. Gördüm ki, Bəkir qarın üstünə yıxılıb. Yaxınlaşıb dedim ki, qalx, məni dəli eləmə. Əlimdən tutub sıxmaq istəyəndə hiss elədim ki, gücü azaldı. "Səringül" deməyə çalışdı, ancaq buna heyi qalmadı. Düşündüm yəqin stresə düşüb, onu itirəcəyimi heç ağlıma gətirmirdim. Gördüm ki, qarın üstündə xır-

da-xırda qan ləkələri var. Qulağının dibindən bir saçma dəymişdi. Hətta gözlə çətin görünürdü. Ömür-gün yoldaşıma özüm kimi inanırdım, bilirdim ki, heç vaxt dilinə yalan söz gəlməz, hər xırda şeydən ötəri yerə yıxılmaz, yaxud belə məqamda mənimlə zarafat edib bağrımı qan eləməz. Tez qayınımgilə qaçıb baltanı götürdüm, bayıra qaçdım. Əlindəki tüfəngdən açılan atəşlə Bəkiri yaralayan adam yerində donub qalmışdı. Baltanı onun başına endirmək istəyəndə arxadan əlimi kimsə tutdu. Onun atası imiş. Balta mənim əlimdən çıxıb baldırımda böyük çapıq açdı.

Yolun ortasında yaralı həyat yoldaşım, altı yaşlı uşaq və mən qalmışdım. Artıq Bəkir tərpənmirdi. Qayınım evə xəbərə qaçdı. Altı yaşlı oğlum Teymur yanımda ağlayırdı, dalaşanlar da aradan çıxmışdı. Gördüm ki, uzaqdan bir avtobus gəlir, sürücüyə işarə elədim ki, dayandırsın, dayandırmaq istəməyəndə qabağına qaçdım. Sürücü yerə düşüb mənə bir şillə vurdu, elə bilib ki, içkiliyəm. Yaralı həyat yoldaşımı ona göstərib təcili xəstəxanaya çatdırmağı yalvardım. Vaxt daralırdı, ağır məqam idi. Sürücü kirimişcə avtobusun qapılarını açıb laqeydliklə, mənə kömək eləmədən sükanın arxasından tərpənmədi. Özümdən az qala iki dəfə ağır Bəkiri qucağıma alıb avtobusa mindirməyə çalışırdım. Ayaqlarım bükülürdü, gücüm çatmırdı, sürücünün heç vecinə də deyildi. Sanki birdən-birə mənə yeni güc gəldi, yoldaşımı avtobusa qaldırdım. Ən çətin, köməksiz anlarda insana fövqəladə güc gələrmiş. Teymur da yerdə hey qışqırır, ağlayırdı. Teymuru qayınımgilə gön-

dərmək üçun xeyli çalışdım, o isə atasından ayrılmaq istəmirdi. Birtəhər bəhanələrlə onu əmisigilə göndərməkdən ötəri bəhanə tapdım, dedim get əmini çağır. Gecə qaranlıq idi, gördüm ki, oğlum əmisigilin evinə yaxınlaşır, Bəxtiyarın gəlib çıxmağını gözləməyə vaxt yox idi. Tez sürücüyə avtobusu sürməyi, işıqları söndürməyi xahiş etdim ki, yolda avtobusun içini görüb saxlayan olmasın.

Hiss edirdim ki, həyat yoldaşımda həyat əlamətləri tükənir. Yolda sürücüdən avtobusun işıqlarını yandırmağı xahiş etdim ki, yaralının üzünə baxım. Artıq o, bizi taleyin ümidinə qoyub dünyasını dəyişmişdi. Meyiti yarı yoldan geri qayınımgilə gətirdim. Qonşular, qohum-əqrəba, dosttanış yığılıb sabahı gözlədik. Milislər qayınımı apardılar ki, bu Qafqazlıdır, qardaşının qatilini gecə ikən öldürəcək. Qazaxıstanın, Gürcüstanın istintaq orqanları işə başladılar.

Allah ona 31 il ömür payı yazıbmış. Tərslikdən qarşıdakı günlər şənbə və bazara düşürdü. Özümü dünyanın ən talesiz, tənha, yetim adamı hiss edirdim.

Qayınım qardaşlarıma, milisə, Azərbaycana, Gürcüstana gecəykən xəbər göndəribmiş. Səhər açılar-açılmaz meyiti xəstəxanaya apardılar. Biz içəridə olanda xəbər gəldi ki, həyətdə Qafqazlıya oxşayan bir nəfər papaqlı kişi var, sizi axtarır. Bayıra çıxdım, gördüm qardaşım Vidadi gəlib. Onu görüb bir az toxtadım. Vidadi o vaxt komsomolda işləyirdi, komsomolun nüfuzü çox böyük idi. Təcili işləri təşkil elədi, Moskvaya, Gürcüstana zəng vurdu. Bizi birbaşa Gürcüstana göndərmədilər, Moskvaya uçmalı olduq. Alma-Ata aeroportuna gələndə çoxlu tabutlar gördük. De-

yəsən Əfqanıstandan gətirilənlər idi. Qardaşım Qazaxıstan və Gürcüstanın əlaqədar orqanları ilə danışandan sonra rəhmətliyin meyitini təyyarəyə birinci qoyub Moskvaya göndərdilər.

O vaxtlarda qayda beləydi ki, meyiti təyyarə ekipajına bildirmədən adi yük kimi təyyarəyə yükləyirdilər. Gəldik Moskvaya, oradan da Tiflisə. Sən demə, evimizdəkilər elə biliblər ki, rəhmətə gedən həyat yoldaşım yox, mənəm. 16-17 maşın, 50-dən çox bizi gözləyən qohum-əqrəba aeroporta gəlmişdi. Birinci Vidadi, sonra həyat yoldaşımın bacısı, daha sonra mən təyyarədən düşəndə qardaşım aeroportun məhəccərini aşıb təyyarəyə tərəf qaçdı, milislər onu saxladı, məni sağ-salamat görüb geri qayıtdı. Gecəyarı yolda birinci postda gürcü milisləri bizim maşını saxlayıb rüşvət aldı, ikinci postda rüşvət tələb edənə rəhmətə gedənin cavan olduğunu, 31 yaşı yenicə taman olduğunu bildirəndə belə əl çəkmədi, pul aldı, başqa bir milis gürcü dilində "Allah, ay anam!" deyib bizdən pul alana şillə vurdu. Cəmi bir sutkaya Qazaxıstandan Gürcüstana çatdıq.

Heç vaxt ağlıma gəlməzdi ki, Bəkiri belə tez itirərəm. Hey düşünürdüm ki, başıma hava gələcək, dəli olacam, atasız uşaqlarım anasız da qalacaq, tam yetim böyüyəcək. Dəhşətə gəlirdim. Artıq taleyimi qınayırdım, yazdığı alın yazıma görə yaradana asi olmağa başlamışdım. Mənim nə yaşım vardı ki, belə çətin vəziyyətə salıb mənə əzab verirdi. Sanki dərin bir quyuya düşmüşdüm, həyat mənim üçün qurtarmışdı. Oğlum, qızım balacaydı, sovxozda işləyə, əkin-biçin eləməyə bacarmırdım. Ağrı-acılardan sarsıl-

mışdım, əlim heç bir işə yatmırdı, başıma gələnlər, cavan yaşımda sevimli ərimi itirməyim qorxulu yuxu, qara kabus kimi məni tərk eləmirdi. Marneulidə evimiz vardı, orada da yaşamaq istəmirdim. Anam da daş atıb başını tuturdu ki, iki körpə uşaqlı kimsəsiz qadının Bakıda nə işi var. Kənddə ev alaq, yaşasın, nəzərimiz üstündə olar. Mən isə oralarda qalmaq istəmirdim. Yoldaşımın ruhu məni rahat buraxmırdı, hər gecə yuxuma gəlirdi, uşaqları mənə tapşırırdı. Daha mən o evə girə bilmirdim. Bu halımı görən atam hirsləndi, qardaşıma tapşırdı ki, gedin buna Bakıda ev alın. Marneulidəki evimizi satıb Bakiya gəldik.

Bakıda, Sumqayıtda, ümumi götürsək, Azərbaycanda yenilik, inqilab, azadlıq, müstəqillik havası hökm sürürdü. Sumqayıt hadisələri baş vermişdi. Hər yer fırtınalı dəniz kimi çalxalanırdı. İşbazlar fürsətdən yararlanıb min cür əmələ əl atırdılar. Qara Qarayev metrostansiyası tərəflərdə qardaşım bir nəfər tapdı, bizə dedilər ki, kiminləsə nikaha girməsən, Bakıda ev almaq çətin məsələdir. Yad millətdən bir nəfərlə saxta nikah bağlayıb onun evini almalıydıq. Nikahdan sonra müxtəlif bəhanələrlə evini satmaqdan imtina elədi. Havalanmaq həddindəydim, digər tərəfdən də saxta nikahla pasportum ləkələnmişdi. Bundan əvvəl bir pasportumu itirmişdim, yenisini almışdım. Allah üzümə baxdı, həmin ərəfədə anam xəbər göndərdi ki, evdə şkafın dalından itən pasportu tapmışam. Gənclik metrostansiyası tərəflərdə iki otaqlı ev aldıq. Bundan sonra başladılar bizi incitməyə, bəhanələri o idi ki, biz dövləti aldadıb saxta sənədlə ev almışıq. Bir naxçıvanlı evi əlimizdən almaq istə-

di. Həmin vaxt köməyimizə hörmətli şairimiz Zəlimxan Yaqub yetişdi. Ailəmizin çox yaxın dostu idi, tez-tez bizə gələrdi. Ruhu şad olsun, Simurğ lələyi kimi imdadımıza çatdı. Sənədlər düzəldi, nəhayət uzun və əzablı günlərdən sonra bir az rahat yaşamağa başladıq.

Evdə iki uşaqla yaşayırdım. Az keçmiş bacım Səadət Buta Gürcüstandan dörd uşaqla gəldi. Birlikdə yaşamağa başladıq. Bacım Elmira qan xərçəngindən əziyyət çəkirdi, günümüzün çoxu Qanköçürmə institutunda keçirdi. Yanında qalırdım, evdən yemək aparırdım. Müalicəyə də xeyli vəsait tələb olunurdu. Evdə də o qədər adam vardı ki...

Biskvit fabrikində gecə növbəsində işləyirdim. Gecələr işləyib gündüz böyük ailənin qayğısına qalmaq həddindən artıq çətin idi. Bütün günü Səadət biş-düş edir, mən də gah bazara, gah aptekə, gah da xəstəxanaya qaçırdım. Arada maddi çətinliyə görə alış-verişlə də məşğul olurdum ki, evimizdəki 10-12 nəfəri dolandıra bilək. Bacımın xəstəliyi ilə bağlı mücadilə aparsaq da, heyif ki, onu yaşatmağı bacarmadıq. Bir xeyli aradan keçəndən sonra Elmira qan xərçəngindən rəhmətə getdi. Onun üç uşağı da bizimlə yaşamalı oldu, mənim də qızım və oğlum. Hamının yatması üçün evdə yer də tapılmırdı.

Elə bir dövr idi ki, Bakıda yaşamaq qəhrəmanlıq hesab edilirdi. Çətinliklə ərzaq tapırdıq, talonlarla verilirdi. Ayaq üstə zornan gəzirdim. Ömrümün ən enerjili çağları yaşamaq uğrunda gərgin mübarizələrdə keçdi. Dərd dərd üstündən, kədər kədər üstündən hücuma keçib arzularımızı, xəyallarımızı, ümidlərimizi boğmağa çalışırdı. Mad-

di yoxluqla bacı yoxluğu bir-birinə qarışmışdı. Bakı bizi ciddi sınaqlara çəkirdi, həyatda qalmaq uğrunda vuruşurduq. Bakıda yaşamaq asan deyildi...

Həyat yoldaşım Qazaxıstanda rəhmətə gedəndə barmağında qalın bir üzük vardı. Bacısı, həm də mənim baldızım və dayım qızı üzüyü barmağından çıxardıb mənə verdi. Üzüyün iç tərəfində Bəkirin qanı qalmışdı. Mən də qanlı üzüyü eləcə bir dəsmala büküb gizli yerdə saxladım. Düzünü desəm, üzüyə baxmağa cəsarətim çatmırdı, ona görə də uzun müddət idi saxladığım yerdəydi, götürüb baxmağa, yaramı təzələməyə cürət eləmirdim. Keçmiş ağrılı günümdən qalan yadigarı unuda bilməsəm də, məndə yaradacağı kövrək duyğulara görə əlimə götürə bilmirdim.

Bir gün elə vəziyyətə düşdüm ki, göz yaşı axıda-axıda üzüyü saxladığım yerdən götürməyə məcbur oldum. Qonşumdan borc pul almışdım, elə hey ayağını dirəyirdi ki, pulumu qaytar. Başqa çarəm qalmadı, Bəkirin yadigarını özümdən aralamaq, mənim üçün həyatdan da dəyərli mirası itirmək istəmirdim. Qonşunun söz-söhbətindən də yorulmuşdum, lap bezmişdim. Səhv eləmirəmsə, borcum 50 manat idi. Bir neçə günə alacağım olsa da, gözləmək istəmirdi. Dedim üstünə əlavə pul da verəcəm bir-iki gün gözlə. Qəti etiraz elədi. Çarəsiz qalıb üzüyü lombarda apardım. Lombard işçisi dəsmalı açıb üzüyün qanını sildi, dəsmalı atmaq istəyəndə tez qanlı dəsmalı salfetə büküb götürdüm. Lombardda üzüyü çox ucuz qiymətə aldılar. Yalvardım ki, sabah mənə çatacaq pulu verəcəklər, artıqlamasıyla pul gətirəcəm, üzüyü mənə qaytararsınız. Ümi-

dim boşa çıxdı, heç cür razılaşmadı. Həmin qanlı dəsmalı əziz bir yadigar kimi saxlayıram. Başqa evə köçəndə də götürəcəklərimizin içində birinci o yadıma düşür.

Xatirəsi qəlbimdən heç vaxt silinməyəcək rəhmətlik ömür-gün yoldaşımın qanını özündə saxlayan üzüyünü maddi ehtiyaca görə lombard əlimdən alandan sonra çox birtəhər oldum, onu izah etməyə sözümün gücü çatmaz. Onda hiss elədim ki, Bəkiri tam itirdim, təsəllim onun yadigarı iki balam və qanını canına hopdurmuş dəsmal oldu, bir də işıqlı xatirələr...

Yara can,
Ürək qandı, yara can.
Yar yanımda can verdi,
Verəmmədim yara can.

***

Məvacib çox az idi, dolanmaq həddən artıq çətinləşmişdi. İllər keçdikcə Elmira bacımın uşaqları evlənib ev-eşik sahibi oldular. Səadət də özünə kirayə ev tutdu.

İş yerimdən çıxıb başladım alış-verişə. Türkiyəyə, İrana, Suriyaya, daha sonra Polşaya, Çexoslavakiyaya, Çinə gedib oradan müxtəlif mallar gətirirdim. Ailəni yaxşı dolandırmağa başladım, heç kimə ehtiyacım olmadı. Ömrüm boyu heç kimdən heç nə ummamışam. Könüllər almışam, şad eləmişəm, heç kimin könlünü qırmamışam. Ancaq ehtiyacı olanlara əl tutmağı bacarmışam, olanımdan heç kimə "yox" deməmişəm. Anlamışam ki, var-dövlət gedəri-

dir, qalan deyil, əbədi deyil, qalan insanlıqdı, səxavətdi, dostun uğuruna sevinməkdi, ona qol-qanad verməkdi. Tamahla qol-boyun olub nəfsinin qurbanı olanların, xalqın malını yığıb-yağmalayanların özüylə nə apardığını, son aqibətini görmüşük. Yaradanın ədalətinə şübhə yoxdur, hamıya eyni gözlə baxır, bəndələrini o dünyaya əliboş göndərir.

Səxavətlə hər kəs sərsə süfrəni,
Ulu Tanrım göstərəcək bəhrəni.
Kimlər ki, yapışır dünya malından,
Bağ salır, dadmayır öz nübarından.

***

Xəstə bacımı can-başla baxsam da, son nəfəsində yanında ola bilmədim. Qazaxıstanın Çin dövləti ilə sərhəddə yerləşən Jetisu vilayətinin Panfilov rayonuna Çinin Uyğur Muxtar Regionunun inzibati mərkəzi Urumçidən uyğurlar satış üçün müxtəlif çeşidli sənaye malları gətirirdilər. Baldızım, bildiyiniz kimi həm də dayım qızı ilə Panfilova gedib mal alıb qayıdırdıq. Növbəti dəfə gedəndə Səadəti də aparmışdım. Gecə yuxumu qatdım. Səhər açılan kimi özümü danışıq məntəqəsinə çatdırdım. Qardaşım Vidadi nazirlikdə işləyirdi. Zəng elədim, o, nazirlikdə yox idi. Cavab verdilər ki, Vidadi müəllimin bacısı rəhmətə gedib. Yerə-göyə sığışmadım, dünya başıma fırlandı, nə edəcəyimi bilmədim. Axı bacım üçün çox əziyyət çəkmişdim, zəhmətim zaya getdi, mənim üçün çox çətin idi ki, bacım rəh-

mətə getsin, mən orda olmayım. Bacımı itirməyim mənə həyat yoldaşımdan sonra ikinci böyük zərbə və dərd oldu.

O dəqiqə istədik təyyarəyə bilet alıb qayıdaq. Tərslikdən aeroportda dedilər ki, bir həftə təyyarə reysləri olmayacaq. Aldığımız malları elə baldızımgildə qoyub Səadətlə birgə qatarla yola çıxdıq. Gözümüzə malmı görünürdü? Dörd günə Bakıya çatdıq, bacımın üzünü görə bilmədik.

Toru gördüm,
Alovu, qoru gördüm.
Ölməmişkən dünyada,
Gözümlə goru gördüm.

Mən elə bir ömür yaşadım ki, o ömrümün ən şirin, barlı-bəhərli illərini övladlarıma xərclədim, zəhmət çəkdim, onları güldürdüm, özüm gülmədim, balalarıma ata oldum, ana yerinə. Əlimi heç kəsə açmadım, imkan düşən kimi mənə güvənənlərin əlindən tutdum.

İndi də elə bir ömür yaşayıram ki, orada yalana, saxta səmimiyyətə, riyakarlığa, süni təbəssümə zərrə qədər yer yoxdu. Mən özümü yalanların içində heç vaxt görmədim. Məni tanıyanlar məni Haqq dəlisi, dostun səlisi, ocağın közü və külü, bağçanın ətirli gülü kimi tanıyırlar.

Əzablar, üzüntülər itkilər içində keçirdiyim həmin günlər məni möhkəmləndirdi, həyatın gələcək sınaqlarına hazırladı, dözüm, dəyanət, ləyaqətlə yaşamaq öyrətdi. Gənclik illərimdə saçımda bəyaz iz qoyan o illərdən üzüağ çıxdım, tamahın, nəfsin qulu olmadım, övladlarıma, doğmalarıma, Vətənə saf sevgim yaşatdı məni...

MƏNİM DÜNYAM

Kim könül sındırıb yandırsa canı,
Tanrı bağışlamaz belə insanı.

Mənim öz dünyam var - hər an məni duyan, anlayan, pünhan sirlərimin aşiyanı, dərdlərimin dərmanı, çətin anlarımda həmsöhbətim olan iç dünyam. Burda hər nə varsa, mükəmməldir, işığı qaranlıqdan, inamı gümandan, əminliyi şübhədən, reallığı romantizmdən çox-çoxdur. Bəzilərinə bu düşüncələrim təvəzökarlıqdan uzaq görünə bilər. Mən özündən razı insan deyiləm, özümə düşmən də olmağı bacarıram, həqiqətdən ali heç nə tanımıram. Mənim iç dünyamın tələtümləri insanlığa çağırışdır. Orada arzuladığım insan obrazı hər gün yoluma ciddi nəzarət edir. Bunun bir başqa adı da vicdandır. Balzak deyib ki, vicdan bahalı xasiyyətdir, ucuz insanlarda olmur. Fransız atalar sözünə görə, təmiz vicdan qədər rahat yastıq yoxdur. Mənim rahatlığıma səbəb vicdanıma xəyanət etməməyimdi. Kamil insan olmaq üçün o yola çıxmışam. İnanıram ki, qarşımda geniş üfüqlü, təmiz havalı, əngin və buludsuz səmalı mənəvi kainat görəcəyəm. Mənim ruh azadlığım, cənnətim o kainatdadır. Özümü anladığım zamandan bu günümə kimi gecə-gündüz ömür yolumda addımlayıram, həyatın mənə verdiyi imkanları, fürsətləri çözürəm, inanıram ki, həyatın mənəvi borclarını ödəyə bilməyəcəyəm. Mənim iç dünyamın hesabatıdır bu.

Mənim iç dünyam zülməti boğur, daşın üstündə gül-çiçək bitirir, Tanrıya qul olsa da, Haqq naminə nahaqla üsyandadı, mənfi xislətlilərin düşmənidi, dünyaların xasıdı, gözü dolu, könlü toxdu, ancaq mərhəmətin, humanistliyin acıdı. Orada sular abi-kövsərdi, oranın şahı Eşqdi.

Dünya gözəldir - yaşamaq eşqimizlə, sevgimizlə, mərhəmətimizlə. Ona viran dünya, yalan dünya, verdiyini alan dünya, dağılmış talan dünya deməyək. Unutmayaq ki, dünyanın bizə verdiyi aldığından qat-qat çoxdu. Bizə nəfəs, gözlər, düşüncə, ruh verib. Dünyaya özü gözəl, sözü gözəl deyib qədrini bilək.

Görüb-götürdükcə, yaşa dolduqca anladım ki, "həyat nə əzabdır, nə də əyləncə. Həyat elə bir işdir ki, biz onu yerinə yetirməyə və ləyaqətlə başa çatdırmağa borcluyuq" (A.Tokvil, Fransa tarixçisi).

Ləyaqət insanın mənəvi dünyasının dəyər ölçüsüdür, insanlıq meyarıdır, iç dünyamızın sərvətidir. Onu itirmək şərəfi itirməkdir. Şərəflə yaşamaq mənim həyat devizimdir. Mübarizlərdə olmuşam, nahaqqı görəndə susmamışam. Bir Şərq məsəlində deyildiyi kimi, "kim ki, mübarizə aparır - uduza bilər, kim ki, mübarizə aparmır - artıq uduzub". Ləyaqətli adam, əlbəttə, uduzmağı sevməz. Məğlub olmamaq üçün yaşamaq, yaratmaq, xeyirxahlıq etmək uğrunda ləyaqətli mübarizə aparmaq yaşam leytmotivimdir. "İnsanı insan edən birinci keyfiyyət onun mənəvi təmizliyidir. Məncə, mənəvi təmizliyin əlamətləri əsasən üç amildə özünü göstərir: vicdan, namus və ləyaqət" (Bəxtiyar Vahabzadə).

Böyük rus yazıçısı A.P.Çexov kiçik qardaşına məktubunda yazırdı: "Öz ləyaqətsizliyini ancaq böyük ağıl, gözəllik və təbiətin kamilliyi qarşısında dərk etmək olar. Adamlar qarşısında isə həmişə öz ləyaqətini başa düş və qoru".

Bu müdrik fikirləri ona görə xüsusilə önə çəkirəm ki, mənim ömür yolumun hakimi vicdan, ağıl və ləyaqət olub. Bu dəyərlər mənə yolumdan sapmamağı öyrədib, həyat müəllimimin sözündən heç vaxt çıxmamışam. İnanmışam ki, bu insanlıq yoludur, yolların ən ləyaqətlisidir. İnsanlıqdan ali şərəf tanımıram. Hansısa Şərq müdrikinə görə, üç şey ağılın kamilliyinə dəlalət edir - dilinə sahib olmaq, zəmanəsini tanımaq və öz ləyaqətini gözləmək. Üç şey üç şeyə baisdir - doğru danışmaq əməlin gerçəkliyinə, niyyətin saflığı ruzinin bolluğuna və ailədə yaxşı rəftar uzunömürlüyə.

Bu altı əxlaq ölçüsünə əməl etməklə mən uzunömürlü yaşayacağıma əminəm. Dilimə sahib olmuşam, heç kimə qarşı haqsız rəftar etməmişəm, zəmanəni tanıyaraq, onun həqiqətlərinə, gözəlliklərinə vurularaq, neqativ davranış və düºüncəni qəlbimə yaxın buraxmamışam. Ləyaqətimi qorumuşam, həyatımın bütün mərhələlərində ailə məsələlərində də özümü bəxtli saymışam (gənc yaşlarımdan sevimli ilk ömür-gün yoldaşımı faciəli şəkildə itirsəm də, taleyimə asi olmamışam, bunu həyatın məni sınaması kimi anlamışam, iki sevimli, ağıllı, düşüncəli balamla təsəlli tapmışam).

Mən həmişə fəxr etmişəm ki, Azərbaycan xanımıyam. Qadın bəşəriyyətin ən ülvi varlığıdır - Anadır, yaradanın lütfüdür. George Meredithə görə, ağıllı qadın xəzinədir, gözəl və ağıllı qadın isə gücdür. "Qadın tam bir dairədir, içində yaratma, bənzətmə və döndərmə gücləri var" - bu fikir də Diane Mariçaylda məxsusdur. Qadın canlılar yaşayan yeganə planetin - Yer kürəsinin yaraşığı, bəzəyidi. Qadın yaradıcıdı, gözəllikdi, yaraşıqdır, mənəvi saflıqdı. 4-5-ci əsrlərdə yaşamış filosof, Qərb xristian kilsəsinin ideoloqu Aqustin Avreliyə görə, qadın elə bir mələkdir ki, bizi uşaq vaxtında qoruyur, gənc ikən xoşbəxtliyimiz üçün çalışır, qocalanda isə təsəlli verir. Mənim düşüncəmə görə, qadın gül butasıdı, Tanrı ətasıdı.

Bir sözlə, qadın ömrümüzün hər anında qoruyucu mələyimizdir. Dünyanın ilk nəğməsini - həzin və kövrək laylanı anadan eşitmişik, ilahi ruhu ilə canımıza hopdurub. Bal-şəkər dili, qızıl əlləri, dünyamızdan nigaran nəzəri, insanlarla ünsiyyəti onu insanlığın zirvəsinə qaldırıb. Tomris, Burlaxatun, Sara Xatundan miras qalan örnək bu gün də ulu Türkün mənəviyyat dərsidir. Həmişə milli əxlaqa, etik dəyərlərə sayğı ilə yanaşmışam. Unutmayaq ki, bizim bir səhv hərəkətimiz neçə-neçə Türk kişisinin başını aşağı edər.

Qadın gözəlliyi bəzəklə deyil,
Nə lazım rənglərə salasan meyil?
Dinlə qocaları, öyrən hikməti,
Qadın gözəlliyi namus, ardı, bil!

Düzdür, son illər qadınlarımızda etik dəyərlərə biganəlik, Avropadan əxz etdiyimiz açıq-saçıqlıq, ədəb-ərkana, milliliyə, geyim-keçimə dırnaqarası baxmaq adi hal alıb. Bu cəhətdən biz Avropanı keçmişik, cəngəllik qaydalarını həyat tərzimizə çevirməkdəyik. Fransız yazıçı Nikola Şamforun deyimi çox orijinal və düşündürücüdür: "Geyim qadının ön sözüdür, bəzən də bütöv kitabdır". Biz Azərbaycan nənələrinin, analarının birinci vəzifəsi bu neqativ hallarla barışmamaq, hər yerdə sözümüzü demək cəsarəti tapmaqdır. Bizdə ictimai qınaq yox dərəcəsindədir. İctimai qınaq güclənsə, mənə elə gəlir ki, mənəvi eybəcərliklər aradan qaldırılar...

ADINDAN DÜŞƏN AĞLAR...

Xeyirxahlıq qoy başında tac olsun,
Qoyma sənin ətrafında ac olsun.

Ömrüm boyu öyrənməyi, mütaliə etməyi, böyüyə hörmət, kiçiyə qayğını həyatın mənası hesab etmişəm. Müsəlman müdriklərindən birinin dediyi kimi, bilik var-dövlətdən yaxşıdır, çünki var-dövləti sən saxlayırsan, bilik isə səni saxlayır, qoruyur, kamilliyə aparır. "Qurani-Kərim"də yazılıb ki, ən gözəl ədəb əxlaqdır, ən vəhşi vəhşət özünü bəyənməkdi, ən zəngin dövlət isə elm və ağıldır. Ağıl dövlətdir, xasiyyət dostdur, ədəb mirasdır, əxlaq rəhbərdir, elm şərəfdir. Bu gözəl dərsləri həyatdan, böyüklərin öyüd-nəsihətindən, təcrübəmdən, ayıq düşüncəmdən, sözün hikmətindən almışam. Kainatın sirlərinə agah olmaq, Haqqa qulluq, özündəki çatışmamazlıqları redaktə edib atmaq ali həyat dərslərinin əlifbasıdır. Böyük Bəxtiyar Vahabzadə yazır ki, insan göydə Ay kimidir, görünməyən tərəfi var. İnsanların görünməyən tərəfinin aydınlığı, saflığı uğrunda mübarizədir həyat.

Və insanın bütün müsbət xüsusiyyətləri bir ağacın ayrı-ayrı budaqlarıdırsa, ağacın kökü şərəfdir. Şərəf ədalətdir, sədaqətdir, dürüstlükdür, heysiyyatdır, alicənablıqdır. Şərəf insan duyğularının xasıdır. Qədim yunan müdriki Aristotelə görə, şərəf fəzilətə görə verilən mükafatdır. Leo-

nid Yarmolnik deyir ki, şərəf xarici vicdan, vicdan isə daxili şərəfdir. Hətta insanın sözü onun şərəfidir.

Bir nəfər məşhur sərkərdə Napoleona deyir:

- Biz şərəf üçün vuruşuruq, fransızlar isə pul üçün.

Napoleon cavab verir:

- İnsan həmişə özündə olmayan şeyi arzulayır.

Bir də anlamaq. Bu insana xas ali fəzilətdir. Romalıların hüquq formulunda yazılıb: "Anlaqsızlıq ən ağır cəzadır".

İnamın, məsləkin saflığı, həqiqəti danmamaq, harda oluramsa olum, bu həyat şüarımdır. Həyatımın bünövrəsi bunun üzərində qurulub. Güc həqiqətdədir.

2500 il əvvəl yaşamış Roma şairi Rubliy Ovidiyə görə, təmiz vicdan nə yalanlardan qorxur, nə də şayiə və böhtanlardan. Bəli, mənəvi yolun yolçuları qorxmaz və cəsarətli olurlar...

Mənim ləyaqətim, əqidəm, cəsarətim, mərhəmətim adımı qoruyub. Düşünmüşəm ki:

Atdan düşməyə nə var?
Adından düşən ağlar...

POEZİYA HƏSSAS QƏLBİN İŞIĞIDIR

Qüdrətli söz ləşkəri,
Şah başından tac alar.

Əvvəldə qeyd etdim ki, insan hər işində, əməlində özünə hesabat verərkən "mən kiməm" sualıyla üz-üzə qalmalıdır. Bəs söz dünyasında mən kiməm? Bu sualı qardaşım, pedaqogika elmləri doktoru Vidadi Orucov belə cavablandırır:

"Poeziya ilahı gücə bağlıdır, Allah verğisidir. Sokrat demişkən, poeziya sirrdi, ovsundu, hər kəsə qəlbini açmır. Bu baxımdan böyük ailəmizin bəxti gətiribdi. Ata-anamızdan irsən bizə qalan ən böyük sərvətimiz, ailəmizin yarısından çoxunun poeziya aləmində bəlli ünvanının olmasıdır. Mənim bacı payım Səringül Sadə insanların sadəsi olduğu kimi, poeziyamızın da sadəsi, səmimisi və təbiisidir".

Evimiz darısqal olsa da, Səadətin tanıdığı aşıqlar, ziyalılar bizim evə yığışırdılar. Səadət artıq tanınmış şair idi. Camal Mustafayev, Əzizə Cəfərzadə, Mirvarid Dilbazi, Zəlimxan Yaqub, Hüseyn Arif, aşıq Kamandar, Hüseyn Saraclı, Mikayıl Azaflı, aşıq Əhməd, Alqayıt tez-tez evimizdə qonaq olur, söz, saz söhbətləri keçirirdilər. Sanki evimiz bir sənət məbədiydi.

Folkloru, aşıq sənətini körpəliyimdən atam, anam, qardaş və bacılarım, Borçalının söz, saz mühiti, azman aşıqla-

rı qanıma yeridiblər. Həm də bəşəri dünyagörüşümün formalaşmasında türk, ingilis, gürcü, rus dillərini yetərincə bilməyim, bir neçə başqa dillərdə ünsiyyət yaratmaq bacarığım böyük rol oynayıb. Ancaq tam əminəm ki, ana dilimizdən şirin dil heç bir məmləkətdə yoxdur. Mənim xoşbəxtliyim odur ki, qədim söz, saz məbədi, sinəsi ərənlərlə dolu, ilhamımın qanadı, qolu Borçalımın sözlü, sazlı bir nəslinin nümayəndəsiyəm.

Mən də hələ orta məktəb şagirdi olarkən az-az yazmağa başlamışdım, əsasən bayatılar, bəzən də şeirlər yazırdım, ancaq üzə çıxarmırdım. Bir gün Səadət Zəlimxan Yaquba pıçıldadı ki, bilirsən Səringül də yazır. Zəlimxan dedi ki, Səringül, sən Allah, bir-iki bayatı söylə. 5-6 bayatı dedim. Qələmi yerə qoyma, yaz, deyib məni tərifləndi.

Poeziya - səmimi qəlbin bəzən kövrək pıçıltıları, bəzən də hayqıran haraylarıdır. Poeziya heç vaxt tükənməyən, itib-batmayan ədəbi və əbədi sərvətdir. Əbu Turxan deyir ki, hərə öz qəlbinin dərinliklərindəki işığı üzə çıxara bilsə, dünya daha işıqlı olar. Poeziya həssas qəlbin işığıdır. Mənim üçün o işıq mənbəyi atam, anam, böyük qardaşım və bacım olub. Doğulandan anam Xanımın laylaları ilə nəfəs almışam. Böyüdükcə laylalara atamın bayatıları da qarışıb məni ülvi duyğularla süsləyib, uşaqlıqdan ədəbi zövqümü formalaşdıran, daha sonra cilalayan, bu laylalar, bayatılar, Borçalının ünlü aşıqlarının ifasında saz havacatları, aşıq mahnıları, dastanlar orta məktəbin yuxarı siniflərindən məni ilahi bir aləmə apardı - saz və söz dünyasına. Ailədə böyüyən səkkiz övladın canında qanla bərabər söz də çağ-

laya-çağlaya dövran edib. Söz Tanrının verdiyi ilahi nemətdir. Sözü mahnıya, poeziyaya çevirmək isə ilahi vergidir. Bu vergini ulu yaradan bizdən əsirgəməyib. Ömrümü qar-boran sevməyən güllü bahara, nahaqqa qənim haqqın carçısına, sözdən söz çəkən söz vurğununa çevirən, məni ülvi duyğulara səsləyən, ruhlandıran, bir baxışımla anlayanlara - doğmalarıma, əzizlərimə, sirdaşlarıma, məni özündə tapıb dəyərləndirənlərə mənəvi borcum həmişə var olacaq. Məni bu qədirbilənlik, Vətənə, bəşəriyyətə, insana, od-ocağa sevgi, müdrik fikirlər, Türkün qanını qaynar edən saz, söz, "Cəngi", "Misri", "Sarıtel", "Döşəmə Koroğlu", "Ruhani" yaşadır. Böyük söz ustası Məmməd İsmayıl demişkən, bu duyğular selində hələ yaşamağa dəyər bir az da.

Məni mən edən həyat dərsimin öyrədənləri - Nizami, Xaqani, Sədi, Mövlana, Yunus Əmrənin hikməti, Nəsiminin iki cahana sığmayan dəyanəti, Füzulinin eşqi ilahiləşdirən poetik inciləri, Dədə Ələsgərin söz qüdrəti, Şəhriyarın Heydərbaba salamıyla bizə ünvanladığı bütöv Azərbaycan sevdası, Zəlimxanın od saçan, gül açan duyğular aləmi olub. Bunlar mənim ömrümün əbədi yanan bədii ümid şamıdır. Bu işıqda böyümüşəm, yetkinləşmişəm, söz, saz, Vətən aşiqi Səringül Sadəyə dönmüşəm. Ömrümü hədər keçirməmişəm, qardaşım İladinin fikriylə desəm, ən əsası "dostluğu, sədaqəti itirməmişəm".

Qardaşım İladinin bir məsləhətinə ömrüm boyu əməl elədim. Deyirdi ki, nə yazırsan, yaz, zəif, əyri, düz, dəli olmağından qorxma, dəftərə köçür, orada qalsın, zaman gə-

ləndə üstündə işlə. Bu müdrik məsləhət məni həvəsləndirdi, daha böyük şövqlə yazmağa davam etdim. Yeri gəlmişkən bildirim ki, "Sadə" təxəllüsünü İladinin məsləhəti ilə götürmüşəm, düşünürəm ki, mənə uğur gətirib.

Borçalıda bütün adlı-sanlı aşıqlara qulaq asmışam, klassikləri mütaliə etmişəm, hər müdrik frazanın, beytin, bəndin müəllifini bilirəm, aşıq havalarını tanıyıram, havacatın ritmi pozulan kimi xaric olduğunu anlayıram. İstər qız, istərsə də gəlin vaxtı heç vədə saz-söz məclislərindən qalmamışam.

Borçalı elinin saz, söz oğlu Dərviş Osman Əhmədoğlunun böyük ustad, həm də qayğıkeş məsləhətçi kimi istər şəxsiyyətimin, istərsə də yaradıcılığımın formalaşmasında rolu olub. Mənim aləmimdə Dərviş Osman insanlıq məktəbidi, dostluq körpüsüdü, el üçün yanan bir çıradı. Yeri gələndə polad kimi sərt, ipək kimi yumşaqdı.

Yaradıcılığımda əsas meyar millilikdi. İstər aşıq ədəbiyyatı janrlarına - qoşma, gəraylı, təcnisə, istərsə də şifahi xalq ədəbiyyatının yığcam, mənalı, cinaslı qolu bayatılara müracət etməmin səbəbi məhz milli ruhumdur. Milli ruhu özündə mükəmməl yaşada bilməyən ədəbi nümunələrin ömrü uzun olmaz.

Şeirlərimə bəstələnən, saz, söz məclislərində, televiziya verilişlərində, tədbirlərdə aşıq Solmaz Kosayevanın ifa etdiyi "Kəlağayı", aşıq Aytəkin Qəmbərqızının şövqlə oxuduğu "Dağların", "Dünyanın", "Kömək ol, Xudaya", "Ay quzu otaran oğlan", "Könlüm", "İnnən belə" (30-a yaxın digər mahnılar), aşıq Kamandar Lətifoğlunun oxuduğu

"Əylən-əylən" mahnıları artıq tez-tez səslənir. Həmçinin aşıq Həvəskar Nürəddinoğlu, aşıq Ramin Qarayev, Qabil Fəxralı, Hafiz Cənnəti, Türkiyədən aşıq Nəroğlu, Güney Azərbaycandan Bala Xanlar, Məhəmməd Pürismayıl və bir çox başqa aşıqlar, Qazaxıstan aşıqları mənim sözlərimə mahnıları şövqlə, sevə-sevə ifa edirlər.

Mənə elə gəlir ki, ana dilimizin şəhdini, şirinliyini, zənginliyini bilməyən söz adamı bayatı yaza bilməz, xüsusilə cinaslı bayatı.

Atamın bayatılı yolunun bir cığırını getməyə çalışdım. Atamın içdiyi sudan içib, keçdiyi körpüdən keçib mən də dadmaq istədim bayatının bal kimi şirin dadını. Gedə bilib-bilməməyimi söz xiridarlarının öhdəsinə verdim. Mən Dədəmin qızıyam, sinəm bayatı dolu. Bilirəm söz deyən çox olsa da, söz sultanı çox olmaz. Mənim söz sultanı olmaq iddiam olmayıb. Könlümün lirik duyğularını ilmə-ilmə incələyirəm, ilmələyirəm, söz xalısı toxumağa çalışıram. Söz kamandakı oxdu, çalışıram boşa-yalana atmayım. Deyilən hər ağıllı və sərrast söz sabaha körpüdür. Bir də qüdrətli söz ləşkəri şah başından tac alar! Dünya fani dünyadı, olumdan ölümə doğru kələkötür yoldu, əminəm ki, ölüb-itsəm dünyada sözüm əbədi qalacaq.

Şeir Haqqın sədasıdır, Haqqa tapınanları əbədiyyətə aparır...

MƏNİ NECƏ TANIYIRLAR?

SADƏ BACIM

Allah bizim ailə üzvlərinə eşq-ilhamı bol verib. Bacım Səringül Sadə də vüqarlıdı, söz-hikmətdən barlıdı. Onun şeirlərində vətənpərvərlik, doğru-düzgünlük əsas yer tutur.

Rəhmətlik atamız Ömər müəllim kimi o da bayatıya bağlanıb. Bu yolu tutub zirvələrə ucalıb.

Sevir böyük Turanı,
Azərbaycan qəlb-canı.
Mənim bacım Sadənin,
Bayatıdır hayanı!

İladi ÖMƏROĞLU
"Qızıl Qələm" mükafatı laureatı

SƏRİNGÜL VƏTƏN DƏLİSİDİR

Hər kəs öz bacısını çox sevər. Səringül Sadə mənim bacımdır. Onu çox sevirəm. Təkcə mən sevmirəm, bütün yaxşılar, xoşniyyətlilər, insan sərrafı olanlar sevir. O, belələrinin qızı, bacısı, anası, nənəsidir. Körpəliyindən mehriban, səmimi, qayğıkeş olub.

Ata və anamın 8 övladı var. Rus dili müəllimi atam həm də bayatılar yazardı. Dili laylalı, bayatılı, oxşamalı, qımqımalı anam da sinədəftər idi. Uşaqları yatdıranda, oyadanda, yemək yedirəndə layla, oxşama zümzümə edərdi. Atam da, anam da folklori, dastanlarımızı dərindən bilirdilər, söz vurğunuydular. Atam həm də cinaslı bayatılar yazardı. Səringül də ona çəkib.

Ailəmizdə hər uşağın dürlü-dürlü xasiyyəti, xisləti vardı. Səringül dəlisov, ərköyün, dəcəl idi, dediyindən dönməzdi. Rəhmətlik qardaşım Nəbi deyərdi ki, Səringüldən yaxşı partizan olar. Qonşuların özüylə tay, yaxud böyük oğlanları ilə güləşər, dalaşar, başlarını yarardı. Atama şikayətə gələrdilər. Atam ona acıqlanardı ki, sabah ərə gedəcəksən, bir qapı açacaqsan, orda da qaynatanın, qaynananın başını yaracaqsan? Səringül deyərdi, ay lələ, ərə gedəndə çox ağıllı olacağam. At sürməkdə, çəməndəki çiçəklərin ən gözəllərini tapıb dərməkdə onun tayı-bərabəri yox idi. Çox vaxt onu qonşumuzdakı qoca nənələrin yanında görərdik, onları danışdırmağı sevərdi. Qonşumuz Tükəzban qarı Qarsdan Başkeçidə ərə gəlmişdi. Ona keçmişini danışdırar, yununu didər, bütün işlərini görərdi ki, rəvayətlər söyləsin.

Səringül sinədəftərlikdə anama bənzəyib. "Koroğlunun Bağdad səfəri"ni, "Qaçaq Nəbi" dastanını əzbər bilirdi. Bizim uşaqlıq dövrümüzdə oyuncaq nədi bilməzdik, tək-tük uşaqların oyuncağı vardı. Biz oynayanda bir-birimizə tapmaca deyərdik. Oğlanlar Koroğlu, Qaçaq Nəbi, qızlar Nigar, Həcər olardı. Səringül Nigar, Həcər rollarını gözəl oynayardı, atı da Nigar, Həcər kimi çapardı.

Allah ona ürəyincə verib, uşaq vaxtı deyərdi ki, mən varlı olacam, kasıblara, yetimlərə kömək edəcəyəm. Allah onu istəyinə çatdırdı, ancaq heç vaxt xasiyyətini dəyişmədi. İndi də əl tutmağı, hədiyyə verməyi xoşlayır.

Bacı və qardaşların içərisində ilk dəfə şeir yazmağa mən başladım. Ailəmizdə hamımız ədəbiyyat adamlarıyıq. Səringülün bayatılarını oxuduqca ciiddi və tələbkar oxucu kimi heyran oluram. Cinaslı bayatıları mükəmməldi, mənalıdır, dərin fikir yüklüdür. Mənə elə gəlir ki, hər cinaslı bayatıdan bir elmi iş yazmaq olar.

Səringül Vətən, bayraq, millət dəlisidir. Dünyanın yarısını gəzdi, ancaq dilini, dinini, kimliyini unutmadı, xarakterini dəyişmədi.

Ömər Nəbioğlunun, Xanım Bəxtiyarqızının qızı, qardaşların və bacıların əziz, sevimli bacısı, Borçalının, Gürcüstanın, Azərbaycanın, Türk dünyasının, Turan ellərinin qızı Səringül Sadə, sənə can sağlığı, könül xoşluğu, uğurlar arzulayıram, kövrək duyğulu şeirlərin, bayatılarınla özünün və bizim ömrümüzə gözəl lirik naxışlar vurasan, səxavətli əlin var olsun!

Səadət BUTA

"Sazın, sözün Butası" təşkilatının təsisçisi

İNSANLARIN VƏ POEZİYANIN SADƏ SƏRİNGÜLÜ

Poeziya ilahı gücə bağlıdır, Allah verğisdir. Sokrat demişkən: "Poeziya sirdi, ovsundu, hər kəsə qəlbini açmır". Bu baxımdan böyük ailəmizin bəxti gətiribdir. Ata-anamızdan irsən bizə qalan ən böyük sərvətimiz, ailəmizin yarısından çoxunun poeziya aləmində bəlli ünvanının olmasıdır. Mənim bacı payım, Səringül Sadə insanların sadəsi olduğu kimi, poeziyamızın da sadəsi, səmimisi və təbiisidir.

Vidadi Ömər oğlu ORUCOV
Pedaqogika üzrə elmlər doktoru

O, MƏNƏ TALEYİMİN BƏXŞİŞİDİR

Bəzən tale insanı elə xoş sürprizlərlə qarşılaşdırır ki, bir ömür boyu taleyə minnətdar olursan. Səringül Sadə ilə ilk dəfə üz-üzə gəlməyim, yaxından tanış olmağım belə sürprizlərdən biridir. Nələri gördüm onun simasında, ürəyində, mənə münasibətində? Böyük mənəvi bacım Səadət Butanın bacısında birinci növbədə səmimiliyi, mərdliyi, sədaqəti, cəsarəti, xeyirxahlığı tapdım. Bu keyfiyyətlərinə görə o, mənim də bacım oldu.

Dünyanın o başından bu başına kimi gəzib dolaşsa da, müxtəlif irqli, rəngli, düşüncəli insanlar arasında yaşasa da, fərqli mədəniyyətlər, adət-ənənələr görsə də, milliliyini itirməməsi mənim üçün əsl insanlıq xüsusiyyətidir. Harada doğulmağından, yaşamasından asılı olmayaraq, milli kimliyi, milli ruhu, milli düşüncəni, bir sözlə, nə qədər müsbət milli dəyərləri itirməmək, qoruyub saxlamaq insanın aliliyidir. Bu aliliyi onun milli baş geyimlərimiz kəlağayıya və papağa sevgisində görüb sevindim ki, bizim ortaq xüsusiyyətimiz də varmış. Vətəndən uzaq cəlbedici dövlətlər, par-par parıldayan cazibədar şəhərlər, əyləncəli məkanlar onun Vətən, torpaq sevgisini də azalda bilməyib. Əksinə, qürbət həsrəti onu yurda, Vətənə daha möhkəm bağlayıb.

Xoş təsadüfdən biri də odur ki, Səringül xanım Vətənə qayıdandan sonra tale bizi həm də yaxın qonşu edib. Bir gün bir-birimizi görməyəndə narahat oluruq, bir-birimiz-

dən ötrü darıxırıq. Ruh yaxınlığımız bizi daha da doğmalaşdırıb.

Onun yaradıcılığı çox rəngarəngdir, ana dilimizin zənginliyini yaxşı bildiyindən cinaslı bayatıları söz örnəkləridir, həyatımızın müxtəlif məqamlarını yaddaşlara köçürə bilir.

Səringül bacımın şifahi xalq ədəbiyyatı dəyərində bir cinaslı bayatısı ilə düşüncələrimi yekunlaşdırıram:

Dal-dala,
Dərdi vermə dal-dala.
Qüdrət, kəlam sahibi,
Dərddən məni daldala.

Güllü Eldar TOMARLI
Mirvarid Dilbazi Poeziya Məclisi İctimai Birliyinin sədri, şəxsi Kələğayı Muzeyinin direktoru, şair, publisist

SƏRİNGÜL SADƏNİN SÖZ DÜNYASI

Səringül Sadənin lirikasında insan əxlaqının və ruhunun həyati qaydalarının çözümü var.

Səringül Sadənin poeziyasının özünəməxsus ruhi-psixoloji motivləri insanlığa olan hüsn-rəğbətin qayəsini təyin edir.

Səringül Sadənin söz dünyası insanlığın dəyərini anlamaqdan ibarətdir.

Səringül Sadənin lirikasının həyati psixolojisi öz həyat ruhu ilə könüllərə ruh verir.

Səringül Sadənin lirikasında həyatın analizi düşüncənin monoqrafik məntiqi ruhu ilə açılır.

Səringül Sadənin lirikasının həyati-ruhi dialoqu öz həyati duyumu ilə oxucunu öyrənməyə yönəldir.

Səringül Sadənin lirikasının həyati üfüqləri daim insanın könül dünyasını sehirləyir.

Səringül Sadənin lirikasında milli ruhun mənəvi dünyasının ruhi-psixoloji aləmi insanın könül dünyasının tənzimləməyə xidmət edir.

Nəsib ABİD
filoloq

İKİ QƏLBİN VƏHDƏTİ

Mən Səringül Sadəni ilk dəfə Borçalı İctimai Birliyinin ədəbi məclisində gördüm. Şair qardaşı İladi Ömərоğlunun yubileyi və kitab təqdimatı keçirilirdi. Üzünün nuru, həlim, mehriban baxışları ilə diqqətimi çəkdi. Tədbirdən sonra söhbət də etdik. Sadə, təvazökar, şirin dilli bir xanım kimi yadımda qaldı. Və bir də xeyli sonra "Sarı aşıq" ədəbi məclisində yenidən bir araya gəldik. Onu hər kəsdən fərqləndirən bir cəhət vardı. Danışdıqca kəşf etmək istəyirdin könül dünyasını. Yenə məclisdən sonra söhbət etdik, həyat yoldaşının türk əsilli şotland olduğunu bildim. FB-də bir-birimizə dostluq göndərdik. Danışdıq ki, bir gün görüşək.

Və bir gün Səringül Sadə və həyat yoldaşı Qraham Riçard Smithlə "Gənclik Mall" da kofe içmək adıyla görüşdük. Elə yoldaşı da özü kimi sadə, alicənab, mehriban bir insan idi. Amma bu sadəliklərinin altında gizlənən böyük ürəklərini sonra biləcəkdim.

Yenə söhbət əsnasında bildim ki, Səringül Sadənin həyat yoldaşı, iş adamı Qraham Riçard Smith də poeziya ilə ruhən bağlı insandır, görkəmli şairdir. Bildim ki, Səringül Sadənin ailəsində hər kəs söz adamıdır, hər kəsin sinəsi söz boğçasıdır. Qulaqlarına oxunan laylalar, yedikləri yemək, içdikləri su, udduqları hava ilə birgə şifahi xalq ədəbiyyatımız, folklorumuz qanlarına, iliklərinə işləyib. Hənifə xanım Şəbnəmin də onun ailəsindən olduğunu bil-

dim. Bildim ki, bayatı ustası Səringül Sadə Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Aşıqlar Birliyinin üzvü, "Aşıq Pəri" Məclisinin qurucularından biri, həmçinin Gürcüstan Respublikası tərəfindən "Şərəf" medalı ilə təltif edilmiş Səadət Butanın bacısıdır. Və 104 yaşlı anasının bu günə qədər qımqımalar, laylalar və bayatılar söylədiyini də bildim. Hər dəfə Səringül xanım anasını ziyarətə gedəndə başında kəlağayı, nurani üzlü, 104 yaşlı ananın yanında oturub, onunla birlikdə bayatı, qımqıma söyləyir, maraqlı əhvalatlar danışır və çəkilmiş videonu da öz FB səhifəsinə yerləşdirir. Mən hər dəfə bu videoları izləyərkən bu ananın başındakı kəlağayıda, kəlağayının altındakı çalmada, üzünün, əlinin qırışında öz anamı da tapıram sanki. Allahdan bu sinəsi söz xəzinəsi nurani anaya can sağlığı, uzun-uzun ömürlər arzu edirəm. Qəlbindən dilinə süzülən söz bulağı heç zaman büllurluğunu, təravətini, sehrini itirməsin.

Bu günədək müxtəlif ədəbi janrlarda şeir yazmaqda qələmimi sınamışam. Həmçinin, sonetlər çələngini, yapon poeziyasından hokku, tanka ədəbi nümunələrini yazmışam. Daha sonra cürətli bir addım atıb, böyük ingilis şairi (həmçinin yazıçı və aktyor) Vilyam Şekspirin 30-cu sonetini Azərbaycan dilinə çevirmişəm. Bu tərcümə işimi Qraham Smith bəyəndiyindən özündən də bir neçə şeir tərcümə etməyi təklif etdi. Qraham Smithin Azərbaycan dilinə çevrilməsini istədiyi şeirlər Xocalı faciəsi və 44 günlük İkinci Qarabağ Müharibəsindən sonrakı möhtəşəm qələbəmizə həsr olunmuş ədəbi nümunələrdi.

Bir şotlandın Azərbaycanın dərdini, sevincini bu qədər yaxından hiss etməsi, bu qədər gözəl qələmə alması insanı mütəəssir etməyə bilmirdi. Mən əlbəttə, bu şeirləri və sonradan onun "Əsrin dörddə birinin qeydləri" və möhtərəm prezidentimiz İlham Əliyevə həsr olunmuş "Cənab Prezident" adlı şeirlərini də tərcümə edəcəkdim. Hələliksə, başqa millətlərdən olsalar da, bir-birini bu qədər gözəl tamamlayan iki gözəl insanın, bir yolun yolçusu olan iki ömür yoldaşının söhbətlərinə aludə olmuşdum.

...Qürbətdə bir ömür yaşamasından, Vətən həsrəti çəkməsindən, bu həsrətin bayatılara, qoşmalara çevrilməsindən danışdı Səringül. Həyat yoldaşı Qraham Smith haqqında "O Allahın mənə mükafatıdır" dedi. Aralarındakı böyük sevginin, hörmətin, qırılmaz bağın enerjisi davranışlarından, söhbətlərindən yansıyırdı.

... Qraham Smithin işləri ilə bağlı getdikləri xarici ölkələrin önəmli dairələrində, səfirliklərində Ermənistanın təcavüzkar siyasətindən, torpaqlarımızın 20 faizindən çoxunun işğal altında olmasından və Azərbaycanın öz torpaqlarını işğaldan sülh yolu ilə azad etmək istəyi və cəhdlərindən, sonda isə müharibəyə təhrik olunaraq, 44 günlük müharibədə ölkə rəhbəri ilə ordumuzun, xalqımızın bir "dəmir yumruq" kimi birləşərək işğal altındakı torpaqlarımızı işğaldan qəhrəmancasına azad etdiyini anlatdıqlarını danışdı. Mən Səringül Sadənin şotland həyat yoldaşı Qraham Smithin Azərbaycanı özünün ikinci Vətəni hesab etdiyini bir qədər heyrət qarışıq ehtiramla duyur və dinləyirdim. Onların xeyriyyə işləri ilə də məşğul oduqlarını,

44 günlük müharibə ərəfəsində cəbhəyə böyük miqdarda maddi dəstək göstərdiklərini isə sonra biləcəkdim...

... Səringül xanım o qədər sadə, səmimi insandır ki, "Mən bu insanı sanki çoxdan tanıyıram" duyğusunu yaşadır qarşısındakına. Elə hiss edirsən ki, könlünün orta yerində bir kaman var, bir sözdən, bir baxışdan, bir çiçəkdən, bir yarpaqdan, küləkdən, yağışdan, göy qurşağından... simlər ehtizaza gəlir, simlərin titrəyişi sözlərə çevrilir, bayatı olur, qoşma olur, dilində nəğməyə dönür...

Mən Səringül Sadəyə can sağlığı, uzun ömür, parlaq yaradıcılıq uğurları arzu edirəm. Soy-kökdən gələn, mayası qədim Borçalı bulaqlarından, Borçalı dağlarının təmiz havasından qaynaqlanan ilham çeşməsi heç zaman sısqalaşmasın, könül kamanı susmasın. Öz gözəl xisləti ilə, sazı-sözü ilə onu sevən insanlara ərməğan olsun.

Zeynəb CƏMALƏDDİN
şairə, tərcüməçi

DİLİ ŞEİR DUALI ETİBARLI DOST

Mən, Səringül deyəndə, dəhanından bal süzülən, geniş ürəkli, ruhu saf, vicdanı duru, çılğın təbli, mənbəyini soyuq bulaqlardan götürən dağ çayıtək coşqun, istedadlı, xanım-xatın, təxəllüsü kimi sadə bir Türk xanımını gözlərimin önünə gətirirəm.

Səringül xanım mənim üçün qayğıkeş ana, etibarlı dost, şeirlərindən qızılgül ətri gələn ləyaqətli qələm sahibidir. Şeirlərini oxuduqca o füsünkar rayihəni köksünə çəkməkdən doymursan. Həm də özü kimi şeirlərinin də dili dualıdır.

Təbriz İMAN
25 avqust 2024

SADƏNİN RUHU TƏRPƏDƏN BAYATILARI

Səringül Sadənin bayatıları ruhu tərpədir, duyğuları ehtizaza gətirir.

Eşq olsun!

Dirili YUSİF

O, SÖZÜN RƏSMİNİ ÇƏKİR

Səringül Sadə söz sərrafıdır. Allah ona inanılmaz poetik istedad bəxş edib. Onun poeziyası güclü təsirə malikdir və insanı düşüncələrə qərq edən orijinal üslubu ilə seçilir, ruhda parlaq iz buraxır. O, həm də sanki rəssamdı, sözün rəsmini çəkir.

N.MUSAYEV
ingilis dili müəllimi

SARI AŞIQ RUHLU BAYATILAR

İllərdir ki, mətbuat səhifələrindən, sosial şəbəkələrdən Səringül Sadə imzası ilə tanış olsam da, onunla bir arada olmamış və onu yaxından tanımırdım. Yaxın vaxtlarda onu ilk dəfə "Sarı Aşıq" ədəbi məclisində gördüm. Səringül xanımın məclisdə mənimlə ünsiyyət qurması, səmimiyyəti məni valeh etdi. Elə həmin gündən onunla dostluğumuz başladı. Söhbət əsnasında imzası hər kəsə tanış olan şairlər İladi Ömərоğlunun və Səadət Butanın bacısı olduğunu öyrəndim. Onlar kimi Səringül xanımın da çox istedadlı bir şair, zəngin bir yaradıcılığa malik olduğunun şahidi oldum.

Amma onu da qeyd edim ki, onun yazdığı bayatıları məni daha çox heyrətləndirdi. Onun bayatılarında Sarı Aşığın, Lələnin və Əzizinin ruhunu duydum. Əsasən də cinaslı bayatılarını deyə bilərəm. İndi sizə onun bayatılarından bir neçə nümunə göstərəcəm ki, özünüz dediyim həqiqətin şahidi olasınız.

Yaralaram,
Ürək ver, yar, alaram.
Gözün bir gözə baxsa,
Ox olub yaralaram.

Ay yarar,
Bulud gələr, Ay yarar.
Hardan bir daş atılsa,
Tapar başım, ay, yarar.

Dərd yeridi,
Süründü, dərd yeridi.
Üzüm həsrət oylağı,
Ürəyim dərd yeridi.

İndi də bir neçə qafiyəli bayatısına baxaq.

Bəxt yazan qara yazdı,
Talesiz yara yazdı.
Tanrıdan bəxt istədim,
Onu da qara yazdı.

Dağların dağ yeri var,
Bağların bağ yeri var.
Aç könlümü, ay həkim,
Bax gör bir sağ yeri var?

Bağrı qara laləyəm,
Qəm dolu piyaləyəm.
İnləyirəm kamantək,
Ah-fəğanam, naləyəm.

Adil CƏFAKEŞ

Şair, publisist, "Sarı Aşıq" ədəbi məclisinin təsisçisi və rəhbəri, Azərbaycan Aşıqlar Birliyinin, Azərbaycan Yazıçılar Birliyinin üzvü

BAŞ TACIMIZ – KƏLAĞAYI VƏ PAPAQ

Şəfəq çələngimsən, göy qurşağımsan,
Günəş kəlağayım, Ay kəlağayım.

Xarici ölkələrdə olarkən başımda xalqımızın min illərin o üzündən bəri gələn ən qiymətli dəyəri, milli baş örpəyimiz kəlağayını görənlər ehtiramla mənə yaxınlaşıb müxtəlif suallar verirlər. Mən də mənuniyyətlə, sevinc və fəxrlə kəlağayının hikmətindən, rənglər dünyasının fəlsəfəsindən, naxış və bəzək dünyasından, baramanın barı olan zərif ipəyin xüsusiyyətlərindən, cazibədarlığından, Azərbaycan xanımlarının gözəllik, yaraşıq, abır-həya, namus, ismət rəmzi olmasından ürəkdolusu, həm də qürurla informasiya verirəm. Hiss edirəm ki, onlar xalqımızın mənəviyyatının, mədəniyyətinin, sənətkarlığının, dünyagörüşünün zənginliyinə həsəd aparırlar.

Əcnəbiləri ən çox maraqlandıran kəlağayının qədimliyi, naxış və ornamentləri, rəngləri, ipək zərifliyidir. Onlara "kəlağayı ipəyi"ndən, kəlağayının istehsal prosesindən, təbii rənglərin alınma texnologiyasından, naxışların mənasından, zərif baş örtüyümüzün üzüyün ortasından asanlıqla keçməsindən, müalicəvi əhəmiyyətindən söz açanda, onun mənəvi dünyamızın zənginliyinin simvolu olduğunu deyəndə hiss edirdim ki, bizə rəğbətləri artır. Onlara başa salırdım ki, qız-gəlinin ismət rəmzi kəlağayının dünyada adı çoxdan bəllidir.

Eli Azərbaycandı,
Naxışı kəhkəşandı.
Kəlağayı əzəldən,
Dilimizdə dastandı.

Kolleksiyamda xeyli kəlağayım var. Harada xoşuma gələn yenisinə rast gəlirəmsə, qiymətindən asılı olmayaraq, mütləq alıram. Çünki kəlağayı hədiyyə etməyi xoşlayıram, onun dəyərini bilən Azərbaycan xanımları üçün kəlağayı ən qiymətli hədiyyədir.

Son zamanlar kiminsə başında, çiynində milli baş örtüyümüz kəlağayı görəndə istər istəməz Güllü Eldar Tomarlı yadıma düşür. Kəlağayı ilə Güllü artıq sinonimə çevrilib. Elə insanlar var ki, bu ucsuz-bucaqsız dünyada onunla görüşməyini Allahın lütfü sayırsan. Sonsuz hörmət və məhəbbət bəslədiyim Güllü xanım da belələrindəndir, daha doğrusu, belə insanların birincilərindəndir. Bacıyıq, dostuq, sirdaşıq. Ən ali mənəvi keyfiyyətlərə sahib qaygıkeş bacıdı, anadı, nənədi, fəal xanımdı, Vətən qızıdı, milli mənəvi dəyərlərə sadiq Türk övladıdı. Ona həmişə güvənmək olar, qədirbiləndi, sözü bütövdü. Dünənimizi, bu günümüzü, sabahımızı yorulmadan yaşadan, xalqa xidmətdən doymayan, bezməyən, işindən zövq alan Azərbaycan qızıdı.

2022-ci ildə Mirvarid Dilbazi Poeziya Məclisi İctimai Birliyinin sədri, şair, publisist, ictimai fəal, kəlağayının yorulmaz təbliğatçısı, gözəl və milli düşüncəli bacım Güllü Eldar Tomarlının gərgin əməyi ilə evində yaratdığı şəxsi

"Kəlağayı Muzeyi" mənim üçün sirli-sehirli aləmdi. Şəxsi "Kəlağayı Muzeyi"nin fəaliyyəti əslində tək adamın işi deyil, bir yaradıcı heyətin birgə işidir. Onun yaşamaq, yaradıcılıq eşqi bu işin öhdəsindən təkbaşına gəlməyə imkan verir.

Bakıya gələn kimi mütləq ora ziyarət edirəm. İmkan tapan kimi muzeyə kəlağayı hədiyyə etməyi özümə borc bilirəm. "Nəsillər" adlı kəlağayımı muzeyə bağışladım. Unikal kəlağayının üzərində şərəfli tariximiz yaşayır, "Qurani-Kərim", nəsil ağacımız, Borçalının xəritəsi, üçrəngli bayrağımız, buta və digər milli naxışlar bu qiymətli milli sənət incisinin dəyərini artırır. Bu yaxınlarda bir neçə kəlağayını və zəkiyyə şalımı muzeyin eksponatları siyahısına əlavə etdim. Ona görə ki, Güllü bacımın yaratdığı muzey kəlağayını qorumaq, təbliğ və elmi cəhətdən tədqiq etmək üçün etibarlı yerdir. Hələ çoxları bilmir ki, Güllü xanım necə gərəkli, tarixlərdə iz qoyacaq, mədəniyyətimizi, tətbiqi sənətimizi yaşadan, tanıdan iş görür. Muzeydəki əntiq əşyalar, qədim məişət alətləri, Güllü xanımın öz əli və gözünün nuru ilə toxuduğu müxtəlif ölçülü və mövzulu əl işləri zəngin muzeyi artıq Azərbaycandan kənarda da tanıdıb.

Azərbaycan xalqının milli mənəvi dəyərləri bütün dünya xalqlarına örnək olan, xalqımızın fəlsəfi dünyasını bəyan edən ən qiymətli mənəvi sərvətimizdir. Kəlağayı da bu sərvətlərin ən zərifi, ən mükəmməli, ən gözəlidir. Bu sevgi və alov rəmzi butalı, Tanrımızdan ətalı kəlağayımızı hər qıza, gəlinə pay verməklə ailə ocaqlarımızı qorumaq mümkündür. Düzdür, çağdaş zamanımızda ailə bağlarında boşalmalar, mənəvi qırılmalar, ailə münasibətlərində

biganəlik çoxalıb. Mənə elə gəlir ki, milli dəyərləri təbliğ etməklə bu laqeydliklərin qarşısını almaq mümkündür. Ona görə deyirəm ki, Güllü xanım zəngin "Kəlağayı Muzeyi" yaratmaqla mənəviyyatımızın qoruyucu mələyinə çevrilməkdədir. Onun İctimai Birliyinin Vətənimizin hər guşəsində keçirdiyi "Sazlı, Sözlü Kəlağayı günləri", "Azərbaycan kəlağayılarının təbliği" layihələri bunu deməyə əsas verir.

Kəlağayı Türk xanımının ismət, abır-həya, yaraşıq, gözəllik meyarıdırsa, papaq Türk kişisinin qeyrət, ərənlik, igidlik rəmzidir, milli geyim kimi əzəməti, böyüklüyü özündə ehtiva edir. Güllü xanımın "Papaq qeyrətimizdir, kəlağayı ismətimiz" layihəsi çərçivəsində keçirdiyi tədbirlər də geniş tamaşaçı marağına səbəb olanda mən də onun qədər sevindim.

Baş eylər,
Yeri ayaq-baş eylər.
Papaq başı baş etməz,
Baş papağı baş eylər.

Baş papağı,
Qeyrətdi baş papağı.
Qeyrətsizə verməyin,
Alçaldar baş papağı.

Bacıma özünün diliylə desək, saz, söz, kəlağayı, papaq ömrü arzulayıram.

TALEYİN GÖZLƏNİLMƏZ XOŞ SÜRPRİZİ

Tanrı, yazına qurban,
Yarım ürəyimcədi.

Şeiri, ilahi sözü anlayandan hörmətli Xalq şairimiz Nəriman Həsənzadənin yaradıcılığının vurğunu olmuşam. Dili, danışığı, insana münasibəti kimi incə, kövrək lirik şeirlərini əzbərləmişəm. Bacım Səadət tez-tez onun yanına gedib-gələrdi, yaxın dost idilər. Mən isə Nəriman müəllimi heç görməmişdim. Məni onunla ilk dəfə gözəl bacım Güllü Eldar Tomarlı görüşdürdü. Nəriman müəllim Güllü xanımla məni çox böyük ehtiramla qarşıladı. Onun səmimiliyinə, sadəliyinə, qonağa diqqətinə söz ola bilməz.

Nə qədər ölkələr gəzsəm də, müxtəlif xalqların nümayəndələri ilə ünsiyyətdə olsam da, danışıq tərzimi, Borçalı ləhcəmi tərgitməmişəm, daha doğrusu, dəyişə bilməmişəm. Həmişə "qadan alem", "ağrın alem", "atam-anam", "başına dönüm" mənim danışığımın dadı, duzu olub. Nəriman müəllimlə ilk görüşümdə söhbətə başlayan kimi kövrəldi, dedi, - ay Səringül, sən lap anamı yadıma saldın. Məni heç kəs sənin kimi çağırmır, heç kəs mənimlə sənin dilin kimi şirin ləhcədə danışmır. İlk görüşümüzdən ustad şairimizlə dost olduq. Ondan sonra onunla tez-tez görüşməyə başladım, müxtəlif məclislərdə, tədbirlərdə olduq.

İlk görüşdə mənə kitab bağışlamaq üçün ayağa qalxanda dedi ki, Qələm bacıma bir kitab hədiyyə edim. Bu, Gül-

lü xanımın və mənim xoşumuza gəldi, hələ belə müraciətə rast gəlməmişdik.

Növbəti görüşlərimizdə ona həyatımın ayrı-ayrı anlarından, hadisələrdən, görüşlərdən danışırdım. Taleyimi, bu kitabda təsvir etdiyim acılı-şirinli xatirələri dinləyəndə məsləhət gördü ki, Səringül sən bu yazdıqlarını müvəqqəti qoy qırağa, xatirələrini yaz. Bilirəm ki, çox maraqlı kitab olacaq. Qürbətdən, həsrətdən, gördüyün insanlardan, şəhər və ölkələrdən yaz. Hər dəfə görüşəndə bu məsləhətini tez-tez xatırladırdı. Mən də deyirdim ki, baxarıq. - Baxarıq yox, mütləq yazmalısan, - deyəndə fikrimi qətiləşdirdim, qərara aldım ki, mütləq bu kitabı ərsəyə gətirməliyəm.

Nəhayət bir gün şirin təbəssümlə mənə bildirdi ki, Səringül, kitabın adını da qoydum - "Qürbətdən qürbətə". Beləliklə, Nəriman müəllimin müdrik məsləhəti kitabı yazmağa başladım...

***

Hansisa müdrikin fikridir: "keçmişi bilmək olar, amma dəyişmək olmaz, gələcəyi bilmək olmaz, amma dəyişmək olar". Həyatda heç vaxt ağlıma gəlməzdi ki, yenidən ailə qura bilərəm. Bu barədə fikirləşməyə heç zamanım da qalmayıb. Ömrüm qaçaqaçda keçib, fikrim-zikrim o olub ki, balalarımı böyüdüm, onların heç nəyə ehtiyacı olmasın. Övladlarım böyüyər, onlara təhsil verərəm, cəmiyyətdə öz yerini tutarlar, Vətənə layiqli övlad, ailə, ev-eşik sahibi olarlar, xoºbəxtliklərinə qovuşarlar, qayğılarım azalar.

Sən demə, məni yeni xoşməramlı sürpriz gözləyirmiş. Əslində həyat heyrət doğuran hadisələrlə zəngindir, nə olsun ki, biz gözləmirik. 1997-ci ilin sentyabr ayında həmin sürpriz ilk qədəmlərini ataraq məni tapdı. Nə qədər çabalasam da, əlindən qurtula bilmədim. Məndən iki yaş kiçik qardaşım Elmar hələ Azərbaycanın müstəqilliyindən əvvəl indiki Prezident Administrasiyasının qarajında baş mühasib işləyir. Anam kəndimizdə tək yaşadığı üçün qardaşımın həyat yoldaşı çox vaxt anamın yanında olurdu. Elmar bir gün gəldi ki, Gülüstan sarayında ali bir ziyafət olacaq. Yoldaşımla mənə dəvətnamə veriblər, o, kənddədir, birlikdə gedərik. Qəti etiraz elədim ki, mənim orda nə işim var? Axır ki, məni yola gətirdi, razılaşdım. Ziyafət geyimində qardaşımla ora getdim. Arıq, uzun qız idim, çəkim 60 kiloqram olardı, ağ şalvar, ağ kofta, qara ayaqqabı geyinmişdim, qara çantam vardı. Əslində əynimdəkilər ziyafətdəki xanımların geyimindən fərqlənmirdi. Dəbdəbəli Gülüstan sarayında məşhur müğənnilər bir-bir səhnəyə çıxıb oxuyurdular. Hər tərəf təmtaraq içində par-par parıldayırdı. Qardaşımla bir masa arxasında əyləşmişdik. Belə mötəbər yerlərə ilk dəfəydi gedirdim, oranın dəbdəbəsini, etiket qaydalarını yaxşı bilmirdim.

Aradan bir az keçmiş bizim masaya 40-45 yaşlarında hündürboy, göygöz, arıq bir kişi yaxınlaşdı. Qardaşımla ingilis dilində salamlaşıb xeyli söhbət elədi. Bir mahnı çalınanda qardaşımdan icazə istədi ki, yoldaşınızla rəqs eləmək olar? Elə bildi mən qardaşımın həyat yoldaşıyam. Qardaşım dilləndi ki, olar, ancaq yoldaşım deyil, bacım-

dır. Mən birdən-birə özümü itirdim, qardaşımın təklifinə etiraz etdim, o kimdir ki, onunla rəqs edim? Dilini, xasiyyətini, millətini bilmirəm, rəqs etməyi də bacarmıram, ayağını tapdalayaram, utanaram. Qardaşımın iş yoldaşları da bizimlə bir masada əyləşmişdilər. Nəhayət məcbur qalıb qardaşımın icazəsi ilə onunla qısa müddət rəqs etməli oldum. İngilis dilində nə isə pıçıldaya-pıçıldaya rəqs edirdi. O, sürətlə danışırdı, suallarına cavab vermirdim, çünki onun dilini bilmirdim, başa düşmürdüm, dinməzcə rəqs edirdim. Bir az oynayıb keçdik yerimizə.

Elmar qulağıma pıçıldadı ki, heç bilməmişəm bunun soy-kökü Türküymüş, Şotland Türkü, adı-soyadı da Qraham Riçard Smithdi. Qardaşımla xeyli söhbət elədi, Hindistandan dostuyla konfransa gəldiyini və bu ziyafətə dəvət olunduğunu bildirdi. Səhərisi gün bizi bir italyan restoranına dəvət elədi. Qardaşımla birlikdə ora getdik, ayrılanda qardaşıma telefon nömrəsi verdi, üç gündən sonra qayıdacağını dedi. Vurğuladı ki, geri qayıdanda istəmirəm oteldə qalım. O, gələnə kimi qardaşım ev və avtomobil təşkil elədi. Qardaşım utana-utana sakitcə, - o, sənlə evlənmək istəyir. - deyəndə həyəcanlandım, şoka düşdüm. Dedim onun başı çatmır, mən evlənənəmmi? Böyük uşaqlarım var, ayıbdır, heç vaxt buna razı olmaram. Evlənmək rəhmətlik həyat yoldaşımın faciəli ölümündən sonra heç vaxt mənim xəyalımdan keçməyib. Söhbət belə də qaldı. Qayıdıb bir də gələndə mənə böyük qaşlı brilyantla qızıl boyunbağı və sırğa gətirdi. Beləcə tez-tez gəlib gedirdi. Oteldə qalırdı, qardaşımla dost idi, hər gələndə

mütləq görüşürdülər. Qardaşımsız ona doğru bir addım atmırdım. O, isə qərarında qəti idi. Bir dəfə gələndə maddi kömək də etdi, aradan az keçmiş ev də aldı bizə. Arada bir günlük gəlir, qardaşımla birlikdə onunla bir yerdə oturur, söhbət edirdik, o biri gün qayıdırdı.

Beləcə 3-4 ay keçdi. Qardaşım bir gün mənim inadımdan bezib dilləndi:

- Bacı, niyə elə fikirləşirsən? Həyat heç də sənin fikirləşdiyin kimi deyil, yoxlayaq görək necə adamdı. Mənə elə gəlir hər şey yaxşı olacaq. Ancaq qərarı sən verməlisən. Mən sənə seçim imkanı verirəm, qəti qərar vermək lazımdır, onu da ümidli etməyək, o da insandı, hiss olunur ki, yaxşı insandı.

Həmin vaxtlar o, Oman Sultanlığında "Şell" Beynəlxalq Neft Kəşfiyyatı və Əməliyyatı Şirkətinin Yaxın Şərq nümayəndəsi vəsifəsində işləyirdi. Qəfil qərara gəldi ki, məni ora qonaq çağırsın. Qardaşımla mənim aramda heç bir sirr ola bilməzdi, onunla məsləhətləşdim. Ailəmizdə bu barədə heç kimə heç nə deməmişdik. Qardaşım getməyi məsləhət bildi, əslində başqa çarəm də qalmamışdı, bu yolu getməliydim. Bir salama bizə hər şey etmişdi. Bununla belə mənə - kənd adamına qəti qərar vermək çox çətin idi, axı o, Avropanın göbəyindən gəlmişdi, sözümüz, ailə birliyimiz, xasiyyətimiz tutacaq, ya tutmayacaq, dəqiq bilmirdim, adət-ənənəmiz, mədəniyyətimiz ayrıydı. Hey düşünürdüm. Bircə rahatlığım vardı ki, o, Türk əsillidi.

Omana getmək üçün mənə viza açdı. O ölkəyə viza məsələsi həmin dövrlərdə asan məsələ deyildi, heç turist də

qəbul etmirdilər. Beləliklə, turist kimi 15 günlük Oman Sultanlığına getdim. Geri qayıdanda da tək gəlməyə qoymadı, özü də mənimlə Bakıya gəldi. Elmar bizi qarşıladı, qardaşıma qəti bildirdi ki, biz mütləq evlənməliyik, qardaşım fikirləşərik dedi, ayrıldıq, Qraham otelə getdi, biz də evə. O birisi gün qardaşım onu öz evinə gətirdi. O vaxt anam təsadüfdənmi, ya zərurətdənmi, qardaşımgildəydi. Qraham qardaşımdan icazə istədi ki, anamdan bizim evlənməyimizə icazə alsın. Artıq mən ingilis dilini az da olsa bilirdim, ünsiyyət qurmağı bacarırdım. Ondan belə qəfil addım və cəsarət gözləmədiyimdən heyrətə gəldim və çox utandım. Xeyli müddət keçməsinə baxmayaraq, davam edən bu münasibətləri qardaşımla məndən başqa heç kim bilmirdi. Onunla Omana gedəndə anama, qardaş və bacılarıma İsrailə getdiyimi, orada yaxın rəfiqəm yaşadığını, məni qonaq dəvət etdiyini bildirmişdim. Qraham əyləşdiyi yerdən ayağa qalxıb anama yaxınlaşdı, əllərindən tutub, "mən qızınla evlənmək istəyirəm, razısanmı?" sözlərindən gözlərim qaraldı, ürəyimdə "aman Allah, bu nə söhbətdi" - fikirləşib vəziyyətdən çıxış yolu axtarmağa çalışdım. Qraham sonra da qardaşıma tərəf dönüb "tərcümə elə" deyəndə tez özümü irəli verdim. Anam Elmardan "bu kişi nə deyir?" soruşanda həyəcandan qardaşımdan icazə almağı belə unudub, cəsarətlə ona imkan verməyib dilləndim: "Ana, bu kişi deyir ki, sənin qızının imkanı yoxdu, mənim isə var-dövlətim var, istəyirəm qızına bir villa alım". Anam sevinərək dilləndi ki, niyə razı olmuram, ay bala? Allah var-dövlətini, ruzi-bərəkətini bol eləsin. Ana-

ma başa saldım ki, başını tərpətməklə razılığını bildir. Anam dediyim kimi hərəkət edib razılığını bildirdi, amma evlənmək məsələmizi anlamadı. Qraham qardaşımgildən çıxıb otelə, oradan da aeroporta gedəndə çox narahat idi, elə o tərəf, bu tərəfə var-gəl edirdi, nəsə demək istəyirdi, ancaq heç nə demədən getdi.

Bu hal-qəziyyəni artıq qardaşımla məndən başqa gəlinimiz - qardaşımın həyat yoldaşı da bilirdi. Gəlin o biri otağa keçəndə anam saçımdan tutub məni özünə tərəf çəkdi, gizli-gizli qulağıma pıçıldadı: "Mənmi səni dünyaya gətirmişəm, sənmi məni?" Dedim, əlbəttə, sən məni. Şübhə dolu nəzərləriylə gözümün içinə baxıb "mənim bu kişidən heç gözüm su içmədi, qardaşınla sən məndən nəyisə gizlədirsiniz, yaxud məni aldatmağa çalışırsınız, sənninlə onun arasında nəsə var", - deyəndə düşündüm ki, artıq gizlətməli heç nə qalmayıb. Axı ana ürəyi həssasdır, balasının üzünə, gözünə baxan kimi onun əhvalını sevincini, kədərini, dərdini, ürəyindən keçənləri anlayır.

Məni bədxərc kimi tanıyırdı anam. Əlimdəki on qəpiyi də həmin gün xərcləməyi, kiməsə əl tutmağı sevərdim, indi də eləyəm. Anam da həmişə danlayardı ki, bu gündən sabaha heç olmasa çörək pulu saxla. Mən dara düşmüşəm, ancaq qurbanı olduğum Allahım məni darda qoymayıb, həmişə yolumu açıb, ruzimi verib. Anamıza "aba" deyə müraciət edərdik. Deyərdim, ay aba, narahat olma, elə bilirəm göydə bir qızıl torbası fırlanır, bir gün mənim başıma düşəcək. Onda ailəmizdə hamı gülüşərdi.

Mənimlə evlənmək qərarını qətiləşdirən Qrahamla anamın görüşündən sonra anama ürəyimin dərinliklərində gizlənənləri açıb tökməkdən başqa çarə qalmadı, keçmiş söhbətim yadıma düşdü. Ürəkləndim, - ay aba, yadındadırmı, bir vaxt deyirdim ki, göydə bir qızıl torbası fırlanır, gəlib mənim başıma düşəcək, bu həmin adamdı - deyəndə, anam sakitləşdi, məni anladı, hiss etdim ki, ürəyində sevindi, xoşbəxtlik, uğur arzuladı. Onun ürəyinin səsini eşidirdim və qərarımı qətiləşdirdim.

Bacım Səadətə axır ki, olanları anlatdım, ürəyimi açdım, o da mənə xoş, firavan həyat, səadət arzuladı. Bacıma tapşırdım ki, böyük qardaşım İladiyə məsələni yavaş-yavaş çatdırsın. İladinin xasiyyəti ağırdı, ciddi, sərt adamdı, onun yanında davranış sərhəddini aşa bilmərik, dediyi bizim üçün qanun səviyyəsindədi, həm də təmkinlidi, çətin vəziyyətdə doğru yol göstərəndi. Hər şeyi asanlıqla qəbul etməz. Evlənmək qərarına gəldiyim insanın başqa millətin nümayəndəsi olduğunu biləndə razı olmayacağından qorxurdum, həm də utanırdım ki, sənin uşaqların böyüyüblər, sənə ər lazımdımı deyər.

Səadət məsələ ilə İladini agah edəndə qardaşım xeyli fikirləşib, necə deyərlər, aranı dağa, dağı arana daşıyıb, axırda Səadətə tapşırıb ki, mütləq evlilik kağızını mənə gətir, başqa cür mümkün deyil.

Aradan on gün keçməmiş Omana getdim, orada Qrahamla qanuni evlənib Azərbaycana qayıtdıq.

Həmin zamanlarda "Sarı gəlin" şadlıq sarayı yenicə fəaliyyətə başlamışdı. Qohum-əqrəba, yaxınlar, dostlar, ta-

nışlardan 200 nəfərə yaxın qonaq çağırıb orada toy şənliyi keçirdik, evliliyimizi elan etdik ki, qoy hamı bilsin. Söz yox, nə mən, nə də Qraham bəy-gəlin libasında deyildik.

Gündə ingilis dilindəki 10-15 sözü ana dilimizdə yazıb mənasını öyrənirdim. Beləliklə üç ay müddətində qrammatik olmasa da, ibtidai şəkildə kiminləsə danışmağı, başa salmağı, ünsiyyət qurmağı bacardım.

İztirablarım, əzablarım, çıxılmaz vəziyyətə düşən anlarım çox olub. Həmin vəziyyətdə keçən günlərimin əvəzini ödəmək, ağrılarımı azaltmaq, bəlkə də tamamilə yox etmək, məni ovundurmaq, arzularımı, xəyallarımı gerçəkləşdirmək üçün Allahım, tale məni Qraham ilə mükafatlandırdı. Qraham mənim saçlarımı tumarlayan tale əliydi. Bir xoş gündə qarşıma çıxdı, öz xeyirxahlıq missiyasına başladı və bu gün də davam etdirir. O, məni tam inandırdı ki, Avropaliyam deyə məndən qorxma, yaxşı insanın yerinin, yurdunun, düşüncəsinin fərqi yoxdur, birinci növbədə insandır. Qarşısındakını bir baxışla anlayır, dərdinə loğman olur, mənəvi və maddi köməyini əsirgəmir, doğrudu, dürüstdü. O, mənə ulu Yaradanın töhfəsidir, uğur talismanımdı. Uşaq vaxtlarından atasız böyüyən övladlarıma mehriban, qayğıkeş ata əvəzidi.

Məni nə qədər çox sevirsə, qohum əqrəbanı da o qədər sevir, diqqətində saxlayır, ona görə də hamının sevimlisidir. İstiqanlı, ünsiyyətcil olduğundan uşaqlarımın da sevimlisi, sirdaşıdır. Onun vasitəsi ilə taleyimin qırdığı ailə bağlarım bərpa olunub yeni həyata, yeni düzənə qayıtdım. Dəqiq anladım ki, mən Allahımın sevimli bəndəsi-

yəmmiş. Axı tale sevimli bəndələrini yoxlamaq, möhkəmləndirmək, bütövləşdirmək üçün sınağa çəkir. Mən də həmin sınağa çəkilənlərdən biri idim. Bu sınaqdan Qrahamla birləşib üzüağ çıxdım. Bütün Azərbaycan xanımlarına məsləhət görürəm ki, unutmayın, ər güclü olduğu qədər də, zərif ipək sap kimidir, düyün düşsə heç vaxt açılmaz. Ər evi çiynində saxlayan sütundu, ailənin dayağıdı.

Zaman keçdi, onunla birgə qızımı ərə verdim, oğlumu evləndirdim, nəvələrim dünyaya gəldi, o, həmişə mənim arxa-dayağım oldu, gücümə güc qatdı. Sanki kimsə yanımda dayanıb, "qorxma, mən səninləyəm" pıçıldayırdı...

Bacım Səadətlə ilk görüşdə çox həyəcanlıydı. Səadət məndən düz 7 yaş böyükdü. Hər ikimiz fevralın 13-də anadan olmuşduq. Bəlkə elə bu xoş təsadüf bizi təkcə doğma bacı yox, həm də sirdaş edib. Səadət haqqında Qrahama geniş məlumat vermişdim, artıq tanınmış şair, istedadlı qələm sahibi, "Aşıq Pəri" məclisinin qurucularından biri kimi aşıq ədəbiyyatında xidməti olduğunu söyləmişdim. Ona görə də Səadətlə görüşə xüsusi hazırlaşırdı. Məndən xahiş etdi ki, Səadətlə görüşəndə ona söyləmək üçün bizim ana dilimizdə bir gözəl söz öyrədim. Xəbəri olmadan ona zarafatyana gülməli bir söz öyrətdim. O sözü əzbərlədi, görüşə getdik. Səadəti qucaqladı, öpdü, Səadət "necəsən?" soruşanda ona mənim öyrətdiyim gülməli sözü dedi, bacım çaşıb qaldı, heç nə demədi. Qraham elə bildi ki, Səadət o sözü eşitməyib, yenidən bir neçə dəfə təkrarladı. Səadət çaşqınlıqla mənim üzümə baxanda mənim görüşə dəxli olmayan zarafatyana söz öyrətdiyimi Qraham anla-

dı. Məndən incidi, 4-5 saat danışdırmadı. Onun könlünü almaq üçün bildirdim ki, Səadətlə zarafatımız var, biz bacı olmaqla bərabər, həm də yaxın dostuq...

Həyat axarıyla davam edir, hər şey öz yolunda, qaydasındaydı. Qraham mənim üçün çox böyük, humanist, mərhəmətli insandı. Onunla birgə yaşadığıma görə həqiqətən xoşbəxtəm.

2000-ci ildə Malayziyada ev almışdıq. Oğlumu, gəlinimi, nəvələrimi ora apardı, gəlinim orada oxuyub ali təhsil aldı. Nəvələrim orada məktəbə getdilər, hər ikisi ana dilində danışa bilmirdilər, ingilis dilində danışırdılar, ərəb dilini öyrənmişdilər. Böyük nəvəm Omanda çox olmuşdu, ərəb və ingilis dillərini mükəmməl, Malay dilini bir az bilir, Çin dilində az-çox ünsiyyət qurmağı bacarır. Qızımın uşaqları da ingilis dilində sərbəst danışırlar.

Qraham qardaş-bacım üçün böyük, doğma adama çevrildi, nəslimizi irəli apardı. Təkcə mənim nəvələrim yox, bacılarımın uşaqları, yaşlı qohumlarımın bəziləri də ingilis dilini öyrəndilər.

İmkan tapan kimi Gürcüstana gedirdik. İlk dəfə 2004-də orada olduq, tətilimizi anamın yanında keçirdik. Qraham Gürcüstanı, xüsusilə Borçalını çox sevdi. Sonralar tez-tez gedirdik, orada ev də aldıq. Qraham qohum-əqrəba ilə doğmalaşdı.

Nəvələrim, bacılarımın uşaqları məndən qat-qat çox onun xətrini istəyir, sevirlər. Çünki Qraham da uşaqları çox sevir, ünsiyyət yarada bilir, qayğı göstərir. Uşaqlarla uşaq kimi, böyüklərlə böyük kimi davranır.

Qrahamın sevgisinə bələnmişəm, sevgisi bitib-tükənməzdir. Artıq 25 ildən çoxdur ki, ömür yolumuzu qoşa addımlayırıq. Düz yeddi il hər gün evə gələndə, ya da səhərsəhər mənə bir buket gül gətirib. Bəzən özü evdə olmayanda poçtla gül göndərib, evə gətiriblər. Bir dəfə də olsun könlümə dəyməyib, acı bir söz eşitməmişəm ondan.

Biz hansı ölkələrə getmişiksə, yay tətili olanda nəvələrimizi də aparmışıq. Keçən il də, bu il də üç ölkədə nəvələrimizlə birgə tətil keçirmişik. Həmişə nəvələrin ad günlərini xüsusi qeyd eləmək də Qrahamın təşəbbüsü olub. Nəvələrimə doğma babası, nənəsi etməyəni o edib. Uşaqlarımın, nəvələrimin bütün təhsil xərclərini ödəyib. Belə demək mümkündürsə, o, özünü mənə, uşaqlarıma, nəvələrimə fəda etməyə hazır olan insandı.

Sevgidən bir evdə yanarsa çıraq,
Qəm-qüssə o evdən qaçar çox uzaq.

2009-cu il idi, növbəti dəfə Omandaydıq, 12 il idi birlikdəydik. Bir gün bildirdi ki, sənə deyəcək sözüm var. Təəccüblə üzünə baxdım, gedib ovcunda beş ulduz qaşlı, böyük mirvarili bir brilyant üzük, hər tərəfi iri brilyant qaşlarla bəzədilmiş döş sancağı gətirdi. Elə bildim adi bijuteriyadı. Əyləş, bunun tarixini danışım, - dedi. Qrahamın ulu babaları Şotlandiyada doğulub. Bu qiymətli zinət əşyaları onun ulu nənələrinin nənələrindən irsən ötürülə-ötürülə əmanət kimi saxlanılaraq bu günə gəlib çatıb. Anası vəfat etdiyi üçün əmanət bibisi İreneyə qalıb, o da

bunları qoruyub saxlayıb. Qraham evlənəndə bibisi toya gəlib, ancaq üzüyü və döş nişanını toyda gəlinə əmanət kimi verməyib. Toydan sonra bibisini öpüb yola salan zaman bibisi də onun üzündən öpüb, qollarını boynuna salıb, "bilirəm, hədiyyəni mən gəlinə verməyəndə sən təəccübləndin, ancaq heç nə demədin. Bilirsən bunları toyda niyə sənə vermədim, çünki sən onunla xoşbəxt olmayacaqsan", - deyib. Həmin söhbətdən sonra da Qraham bu barədə heç nə deməyib. Bibisi İrene xəstələnəndə ona Qraham baxıb. Bibisi haqqın dərgahına qovuşanda hər işi o, görüb. Xəstəliyinin son vaxtlarında, xəstəliklə son mücadilələrini edəndə bibisi əmanəti ona verib. Qraham götürmək istəməyib, etiraz edib ki, onlar mənim nəyimə lazımdır, onsuz da yoldaşımdan ayrılmışam. Bibi deyib ki, səni kim xoşbəxt eləyə bilsə, ürəyin kimi istəsə, ona verərsən. Söhbətin sonunda o, həmin qiymətli zinəti mənə verdi. Onu öpüb sağ ol dedim.

Taleyə, yığvala, qismətə bax ki, bu əmanət mənə nəsib oldu. Mən də ona fürsətdən istifadə edib çoxdan ürəyimdə qalan, deməyə çəkindiyim bir təklifimi bildirdim. Gəlinim həmin vaxt hamilə idi, dedim ki, nəvəm qız doğulsa adını İrene, yox oğul nəvəm olsa Qraham qoyacağıq, hədiyyəni də ona verəcəyik. Razılaşdı, nəvəm qız doğuldu, adını İrene qoyduq, qiymətli əmanət ona qismət oldu.

Doqquz - 4 oğlan, 5 qız nəvəm var. Qız nəvələrimdən Fidan Azərbaycan Dövlət İqtisad Universitetini bitirib və hazırda Kapitalbank Açıq Səhmdar Cəmiyyətində çalışır. Turan isə ABŞ-ın Penn Universitetində bakalavr təhsili alır.

Oğul nəvəm - balamın balası, dərdimin çarası, zirvəli dağım İsmayıl Azərbaycan Dövlət Neft Akademiyasının tələbəsidir. Gəlinim ingilis dili müəllimidir.

Nəvələrimin qalanları orta məktəb şagirdləridir.

Darda qalsam tutar əlim, həmişə könlümü güldürənim, ciyərparam oğlum Teymur şeir yazır, könül duyğuları həyatın özünü əks etdirir:

Gahdan Teymur kimi bir qala qurdum,
Gahdan bənd-bərəni yıxdım, uçurdum.
Anamı, bacımı dərdimdən yordum,
Döndü əsən sərt rüzgara inadım.

Qrahamın da gözəl təbi var, dünyabaxışı mütərəqqidir, bəşəridir, fikirlərini şeirə çevirməyi bacarır. Geniş, insanlığa sevgi ilə döyünən qəlbi işıqlı duyğularla doludur. Həyat yoldaşım ölkəmizi, dövlətçiliyimizi, iqtidarı çox sevən, onun daxili və xarici siyasətini dəstəkləyən, ərazi bütövlüyümüzü tanıyan, tanıdan, Qarabağ və onun ətrafındakı haqq işimizə böyük önəm verən Azərbaycana tam bağlı, onun uğurlarına ürəkdən sevinən, kədərinə kədərlənən demokratik fikirli insandır. Xarici səfərlərimiz zamanı müxtəlif ölkələrdən 200-300 nəfər nümayəndənin iştirak etdiyi tədbirlərdə, konfranslarda mütləq Qraham Azərbaycan həqiqətlərindən söhbət açır. Vətənimizin başına gətirilən bəlaların toplandığı flaşkartı həmişə onun çantasında olur. Hər tədbirdə mütləq çıxış edir, azı beş dəqiqə Xocalı soyqırımından çəkilmiş videomaterialları nümayiş

etdirir. Yeni Zelandiyada, Avstraliyada, Kambocada, Vyetnamda və olduğumuz bütün ölkələrdə sülhsevər, humanist ölkə kimi Azərbaycanı tanıdır, təbliğ edir. Malayziyada biz oraya gedəndən neçə il sonra Azərbaycan səfirliyi açılıb. Səfirliyin açılışı günü Qraham geniş çıxış elədi, Azərbaycandan danışanda alqışlandı.

Əbu-Dabidə səfirliklərdə müxtəlif tədbirlərə, ziyafətlərə bizi dəvət edərdilər. Qraham Azərbaycanın haqsızlıqla üzləşməsini qeyd edər, onun haqq işini dəstəkləndiyini bildirərdi.

Hansı xarici ölkədə yaşasaq, yaxud səfər etsək, o ölkənin Azərbaycan və Türkiyə səfirliklərinə gedirik. Həyat yoldaşım müxtəlif tədbirlərdə mütləq 20 yanvar, Xocalı faciəsindən, 44 günlük ikinci Qarabağ müharibəsindən, şanlı Zəfərimizdən, Şuşanın alınmasından, Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin ölkəmizin suverenliyi və müstəqilliyi naminə atdığı cəsarətli addımlardan söhbət açır.

Olduğumuz ölkədə Azərbaycanla bağlı hər hansı bir tədbir keçirilərsə, orada Qrahamla birlikdə iştirak edirik. Xocalı qətliamını tanıdan şəkillər nümayiş etdiririk. Onun "Xocalı dastanı" şeiri çox ölkələrdə səslənib, ana dilimizə də çevrilib. Onun şeirlərindəki fəlsəfi məna, fikir aydınlığı oxucunu özünə cəlb edir. 240-dan çox şeiri Azərbaycan Türkcəsinə çevrilsə, xalqımız Azərbaycan sevgili bir əcnəbi şairin yaradıcılığı ilə yaxından tanış olardı.

***

44 gün davam edən Vətən müharibəsi zamanı ABŞ-da yaşayırdıq. Azərbaycana gəlməsək də, tez-tez maddi yardım göndərirdik. Azərbaycanin tarixi zəfəri ilə başa çatan ikinci Qarabağ müharibəsindən sonra Qarabağ və onun ətrafındakı torpaqlarımız 30 ildən çox nankor, bədxah, tamahkar, qonşusunun ərazisinə, mədəniyyətinə, adət-ənənələrinə, mətbəxinin qədim xörəklərinə nadancasına göz dikən düşmənlərimizin caynağından azad olundu. Bu tarixi qələbə üçün biz də öz töhfəmizi verdik. Qrahamla mənim maddi və mənəvi köməyimizi dövlətimiz, Müdafiə Nazirliyi, 301 saylı hərbi hissənin rəhbərliyi yüksək dəyərləndirdi, mənə təşəkkürnamə verdilər.



TƏŞƏKKÜRNAMƏ

Hörmətli İsmayılova Səringül Ömər qızına

Cənab Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 27 sentyabr 2020-ci il tarixdə Azərbaycanın ərazi bütövlüyünün bərpası və torpaqlarımızın işğaldan azad olunması üçün başlayan "VƏTƏN MÜHARİBƏSİ" zamanı ordumuza və xüsusən də, hərbi hissəmizin hərbi qulluqçularına əsl Azərbaycan qadını adını uca tutaraq göstərdiyiniz maddi yardıma və mənəvi dəstəyə görə Sizə dərin minnətdarlığımızı bildirik. Hər zaman olduğu kimi yenədə Sizin kimi vətənpərvər, xalqını və dövlətini sevən vətəndaşlar bu qürurlu günlərdə ordumuzun yanında oldunuz və xalqla ordunun birliyini cəmiyyətimizə nümayiş etdirdiniz. Sizin göstərdiyiniz fəaliyyətlər cəmiyyətimiz üçün əsl vətənsevərlik nümunəsidir. Sizə göstərdiyiniz xidmətlərə həmçinin, bizə verdiyiniz dəstəyə görə rəhbərlik etdiyim hərbi hissənin şəxsi heyəti adından dərin təşəkkürümüzü bildirir və işlərinizdə nailiyyətlər arzulayırıq.

301 nömrəli hərbi hissənin komandiri

mayor Əflatun Məmmədov

20 mart 2021-ci il

QÜRBƏTDƏN QÜRBƏTƏ

Qürbətdəyəm, kimsəm yox,
Sənsən hayanım, Vətən!

Ömrümü yollarda, təyyarələrdə, xarici ölkələrdə səfərlərdə keçirmişəm. Müxtəlif mədəniyyətli, xislətli insanlarla tanış olmuşam. Bəzi ölkələrdə uzun müddət yaşamışam. O ölkələrdə yaşayan müxtəlif irqli, xarakterli, dünyabaxışlı xalqların, etnik qrupların, hətta qəbilə üzvlərinin mədəni irsinin, mənəvi dünyasının yaxşı, dəyərli, ibrət və örnək kimi qəbul edilməli məziyyətlərini görüb-götürmüşəm, millətimizə yad olanını, müsbət bilmədiklərimi qəbul etməmişəm. O yerlərin cazibədarlığı, gözəlliyi, könül oxşayan təbiəti, ekzotikası, insana dəyər verən insanları, səliqə-sahmanı məni valeh etsə də, bir an belə doğma Vətənimi, millətimi, ulu Türkün etik-əxlaq dəyərlərini unutmamışam, mənəvi dəyərlərə sayğı ilə yanaşmışam, ünsiyyətdə olduğum müxtəlif xalqların nümayəndələrinə tanıtmışam. Dünyanın harasında olsam da, başımda kəlağayı mənimlə birgə olub. Bir neçə dildə ünsiyyət yarada bilsəm də, ana dilimi dünyanın ən mükəmməl dili hesab etmişəm.

Qürbətdə yaşamaq uzaqdan göründüyü kimi deyil, çoxları uzaq və yad ölkədə yaşamağı xoşbəxtlik sayır. Ancaq bilmirlər ki, qürbətdə yaşamağın sevinci həsrətdən, yalqızlıqdan çox-çox azdı. Qürbətin xiffəti hər an sazın qı-

rılmış teli kimidir, sızıldayır və sızıldadır qərib qəlb kimi. Onda anlayırsan ki, Vətən hər şeydən əzəldi, torpağı cənnət bağıdı.

Az qala bir ömür qürbətdə yaşamaq qismətim olub. Dünyanın 76 ölkəsinə səfər etmişəm, bəzilərində uzun müddət yaşamışam. Acı dərdlər görmüşəm, doğmaların həsrətini çəkmişəm, rəhmətə gedənlərin son nəfəsində yanında olmamışam. Yəqin ki, onlar həmin vaxt nigaran baxışlarıyla məni axtarıblar, son sözlərini, vəsiyyətlərini, övladlarının üstündə gözüm olmasını tapşırmaq istəyiblər. Təəssüf ki, onların əli mənə, mənim əlim onlara çatmayıb. Bacım rəhmətə gedəndə Qazaxıstanda, qardaşım dünyasını dəyişəndə Amerikada, atam vəfat edən vaxt Avstraliyadaydım, heç birinin son nəfəsində üzünü görə bilmədim. Üç əzizimin üçünün də dəfnində iştirak etməmişəm, qürbətdə gözü yaşlı, sinəsi dağlı qaldım. Bəli, qürbətin belə dağları var. Telefondan vaxtsız zəng gələndə insan haldan-hala düşür, ürək az qalır sinədən qaçsın. Fikirləşirsən, görəsən yenə nə olub, hansı doğmamı bir daha görməyəcəyəm. Belə məqamlarda insan ölür, dirilir, o dünyanı görüb qayıdır. Bəli, qürbət el möhnət, dəhşət verər, fələk bir dərd verəndə qürbət birinin üstünə beşini də əlavə edər.

Qürbət el can alandı,
Canım orda talandı.
Kim desə ki, qürbətdə
"Mən xoşbəxtəm", yalandı.

Xarici ölkələrdə həsrət, möhnət, xiffətlə yanaşı o qədər maraqlı, gülməli, ibrətamiz hadisələr görmüşəm ki, sayı-hesabı yoxdur. Çox gəzən çox görər, həm də çox bilər. Toyumuzdan sonra Omana gedəndə Bakıdan birbaşa aviareys olmadığından Dubaya uçardıq, oradan da adlayırdıq Omana. Oman Sultanlığı ilə Birləşmiş Ərəb Əmirliklərini balaca quru sərhəd məntəqəsi ayırır. Birinci dəfə gedəndə pasportumu verdim yoxlamağa, o yana, bu yana çevirdilər, kompüterdə Azərbaycan sözü çıxmadı, xeyli əlləşdilər, baş açа bilmədilər ki, niyə çıxmır. Pasportuma baxıb heç kimin baş açmadığından şəstlə Azərbaycan söylədim, onlar da gah Qazaxıstan, gah da Özbəkistan dedilər. Çox məyus oldum ki, orada Vətənimi tanımırlar. Biletimdə yerim 31-ci idi. Həyat yoldaşım onlardan xahiş elədi ki, komrüteri bəri çevirin, Qraham 31 rəqəmini onlara göstərdi. O gündən həmin sərhəd məntəqəsində mənim adım "Madam Thirti van" ("Madam 31") kimi qaldı. Sərhəd məntəqəsində iki cavan oğlan növbə ilə işləyirdi, hər dəfə biz sərhəddi keçəndə gah biri, gah da digəri növbədə olurdu. Artıq bizi uzaqdan tanıyırdılar, avtomobilimizin yük yerini yoxlamırdılar. Məni görən kimi "Madam Thirti van" deyib gülümsünürdülər. Bundan sonra bizim gəlib-getməyimizdə heç bir problem olmadı.

Başqa ölkələrdən Omana içki gətirməyə icazə verilmirdi, orada işləyən xristianların maaşından içsə də, içməsə də hər ay 1000 dollar tutulurdu, özləri onlara içki verirdilər. Müsəlmanlara isə içki verilmirdi, daha doğrusu qadağan idi.

Bir səfərimiz zamanı qardaşimla birlikdə ərəb ölkələrini - Yəmən, Misir, Qətər, Bəhreyn, Səudiyyə Ərəbistanı, BƏƏ-ni gəzdik, sən demə, bu qardaşımla Qrahamın istəyi imiş.

Avropaya birinci səfərim İsveçrənin Sürix şəhərinə olub, sonra başqa Avropa dövlətlərinə səfər etmişik.

Hər dəfə Omandan Bakıya gələndə Dubaydakı böyük bir marketdən alış-veriş edirdik. Oradakı mallar əldə satıldığından həm keyfiyyətli, həm də ucuz olurdu. Marketdə işləyən hindlilər mənə baxıb haradan olduğumla maraqlandılar, Rusiyadanmı, soruşdular, dedim hə. Həyat yoldaşımı da soruşanda, bəli, o da rusdu, dedim. Həmin vaxt Qraham telefonla danışdığından bizim söhbətimizi eşitmirdi. Dedilər ki, sən ingilis dilində yaxşı danışırsan, yoldaşın isə yox. Mən də zarafatla dedim ki, bəlkə yoldaşıma ingilis dilini öyrədəsiniz, bahadı, vaxtımız yoxdu deyib imtina etdilər. Sonra mən həqiqəti onlara açanda ki, sizin də, mənim də ingilis dilində danışığımız sıfır səviyyəsindədi, o, əslən Britaniyalıdı, hər birimizə ingilis dilindən dərs keçər. Onda hindlilər də, bizim söhbətimizi dinləyən ətrafımızdakılar da ürəkdən gülüşdülər...

Graham şirkətdən nümayəndə heyəti ilə hansısa ölkəyə ezamiyyətə gedəndə bütün səlahiyyətlər ona verilərdi. o, hansı ölkəyə ezamiyyətə gedərdisə, mütləq məni də özüylə aparardı. Nümayəndə heyətinin yemək, nəqliyyat, oteldə qalmaq xərclərini ödəyər, qayıdanda ödəniş çeklərini şirkətə təhvil verib haqq-hesab edərdilər. Şirkətdən çəkilən xərcdən xeyli artıq pul yoldaşıma qaytarılardı.

***

Fransanı onunla qarış-qarış gəzmişik desəm, daha doğru olar. Bir dəfə Fransaya gedəndə böyük və dəbdəbəli oteldə qalırdıq. Çox səliqəli, gözəl və turistləri özünə cəlb edən şəhər idi. Şirkətdən ezamiyyətə gələn altı nəfər - yoldaşım, mən və dörd xanım oteldə yeməyə gedəndə restoranın girəcəyində bir oğlan bizi qarşıladı, soruşdu ki, haradan gəlmisiniz. Mən də yenə zarafatımdan qalmadım, dedim ki, Miqlisdən (ekvatorial zonaya yaxın ərazidə ərəblərin yaşadığı məşhur məkanlardan biri) gəlmişik, bu adam məşhur şeyxdi, biz beş nəfər də onun arvadları. Hamı inandı, mən də həvəslənib, ürəklənib əlavə etdim ki, mən arvadların ən nüfuzlusuyam - bir nömrəyəm. Anna adında rus qızını göstərdim, dedim ki, bu ikincidi. Daha sonra Hindistandan, Yeni Zelandiyadan, ABŞ-dan olan xanımları yalandan sıraladım. İki-üç dəqiqə keçməmiş otelə yayıldı ki, şeyx gəlib, beş arvadıyla. Hamı bizə maraqla baxırdı. Gördüm ki, hamının gözü bizdədi, dedim ki, şeyx nədi, bu bir zararafatdı, bu şəxs Britaniyalıdı.

Lion şəhərində beş ulduz oteldə qalırdıq. Şirkətin göndərdiyi nümayəndələr konfransa gedəndə mən şəhəri gəzməyə çıxdım. Qraham dedi ki, saat 5-də otelə qayıdacağıq. Mən də o vaxt qayıdacağıma söz verdim. Şəhərin təbiəti məni valeh etmişdi, başı qarlı dağları lap mənim doğulduğum Gürcüstanın dağlarına bənzəyirdi. Xeyli gəzəndən sonra axşama yaxın yolu itirdim, gəldiyim səmti təyin etmək mümkün olmadı. Fransız dilini də bilmirdim. Burda qayda beləydi ki, taksi sürücüsünə fransız dilində müraci-

ət etməli, haraya getməyimi xəritə ilə fransız dilində başa salmalıydım. Onlar çox vaxt ingilis dilində müraciətə laqeyd olurlar, ana dillərini çox sevirlər.

Bir oğlanla qız yanımdakı aptekin qabağında motosikleti saxlayıb, başındakı qoruyucu dəbilqələri çıxarıb aptekə girmək istəyəndə qabaqlarını kəsib söz soruşmaqdan başqa çarəm qalmamışdı. Üzümə təəccüblə baxdılılar, sanki məni vəziyyətdən çıxarmaq üçün onları Allah göydən yerə - Lion şəhərinə göndərmişdi. Artıq saat altı idi, yəqin ki, əlimyandıda məni axtarırdılar Qrahamgil. Qızla oğlanın qarşısında dayanıb yolu itirdiyimi, oteldə məni axtardıqlarını bildirdim, kömək etmələrini xahiş etdim. Qız tez başındakı qoruyucu dəbilqəni çıxarıb başıma bağladı, oğlan isə dilləndi ki, getdik. Yaxınlaşanda oteli tanıdım. Gördüm ki, bizimkilər otelin foyesindəki şüşələrin arxasından gələn hər nəqliyyat vasitəsinə dördgözlü baxırlar. Motosikletdə məni görəndə hamı "Sara gəldi!" deyib (bütün səfərlərdə hamı mənə "Sara" deyə müraciət edirdi) sevindilər, telefonla mənim şəklimi çəkməyə başladılar. Mən də sevincimdən xeyirxah oğlanın üzündən öpüb təşəkkürümü bildirdim.

Liondakı supermarketlərdə ərzaq məhsullarının çeşidləri həddən artıq çox olur. Məsələn, konfetlərin, pendir növlərinin çeşidlərini saymaqla qurtarmaq çətindi. Supermarketlərin dizaynı zövq oxşayır, çox gözəgəlimlidi. Qiymətlər baha olsa da, mallar çox keyfiyyətlidi. Çoxlu pendir aldıq. Orada ən bahalı pendirlər çox pis iylənənlər hesab olunur, hətta iyindən yaxın durmaq olmur. Pendiri

alıb otelə girəndə bizi bayıra çıxartdılar ki, burda yemək olmaz, oteli pendir iyi basır, qonaqlar narahat olar. Otelin həyətində gözəl bir bağça vardı, orada əyləşib pendirlə çörək yedik. Ən yaddaqalan isə bu oldu ki, bağçadakı gözəl ətirli gülün birini oğurladım. Bu mənim ilk və son oğurluğm kimi yadda qaldı...

***

Oman körfəzində yerləşən Oman Sultanlığının paytaxtı Maskat şəhərində yaşayırdıq. Orada körfəz çəkilib yerində xırxıra (mişarın dişləri kimi) dağlar qalmışdı. O dağlarda nə ot bitir, nə də su axır. Dağlarımız yadıma düşdü. Dədə Ələsgər demişkən, qüdrətdən səngərli, qalalı, yamacı lalalı, zənburu çiçəyindən bal əmən dağlarımız. Uzun müddət idi Vətənə dönmürdüm, insanlarından, havasından, suyundan, gülündən, çiçəyindən, zirvədəki qarından ötrü darıxmışdım. Qübarlandım, könlümə bir qatar söz gəldi, dedim bir soruşum bizim dağların halını:

Söylə mənə, ay bacıoğlu,
Necədi halı dağların?
Gül-çiçəkdən don geyibmi,
Yamacı, yalı dağların?

Onu da heç vaxt unutmaram ki, səyyah kimi bu dünyanı dolansam da, Azərbaycana, Borçalıya, kəndimizə tay tapmadım...

***

Xarici ölkələrdə insanlar istiqanlıdı, xoşrəftardı, diqqətlidi, nəinki insanlara, həm də heyvanlara, bitkilərə qarşı xeyirxah və qayğıkeşdilər. Bir gün otelin pəncərəsindən gördüm ki, bir oğlanın əlindəki it qaçıb koma kimi bir yerə girdi. Oğlan itin dalınca qaçıb ipini ələ keçirdi, ipdən tutub iti azacıq geri dartanda it zəif səslə zingildədi. Heç iki dəqiqə keçməmiş polis və təcili yardım maşınları orada peyda oldu. İti xüsusi xərəkdə, oğlanı da polis maşınında apardılar. Əcnəbi ölkələrdəki canlıya və hətta cansız əşyalara xüsusi diqqət və qayğı insanı heyran edir.

Sovet rejimində orta məktəbdə oxuduğumuz vaxt tarix kitablarından öyrənirdik ki, kapitalizm heç nəyə dəyər vermir, insanları istismar edir, yaxşı nə varsa məhv edir. Ancaq gördüm ki, heç də belə deyil, orada mədəniyyətə, tarixə, mənəvi dəyərlərə diqqət bizdəkindən çoxdur. Hansı ölkədə oluramsa, oranın muzeylərini, dini məbədlərini, rəsm qalareyalarını, hətta qəbristanlıqlarını mütləq ziyarət edirəm. Allaha dua edirəm ki, insanlığı qorusun. Milliyətindən, dinindən, mədəniyyətindən asılı olmayaraq mən bəşər övladına heç vaxt fərq qoymamışam, harada insanların ibadət yeri var ora daxil oluram. Allahın varlığı və insanlıq mənim üçün çox önəmlidi. İnsanlıqdan ali mənəvi dəyər tanımıram...

***

Qrahamla evlənəndən sonra doğum günümü qeyd etmədiyimiz yadıma gəlmir. Mütləq harasa getmişik, unudulmaz gün keçirmişik, heç vaxt həmin gün həyat yoldaşım mənə biganəlik etməyib, əslində başqa günlərdə də diqqətindən uzaq olmamışam. Növbəti doğum günüm yaxınlaşırdı, 45 yaşım tamam olurdu. Fevralın 12-siydi, Qrahamdan səs-səmir çıxmırdı. Yaman pis olmuşdum, elə hey düşünürdüm ki, necə yəni, onda mənə qarşı laqeydlik, etinasızlıq başlayıb? İçimdə lap pis olmuşdum, ancaq büruzə vermirdim, ümidlə nəsə gözləyirdim. Elə o anlarımda mənə yaxınlaşıb bildirdi ki, qısa müddətə harasa gedəcəyik, özünə 2-3 günlük paltar götür. Avtomobilə minib yola düşdük, heç nə demədən susurdu, gördüm avtomobili aeroporta tərəf yönəltdi. Qeydiyyatdan keçəndə bildim ki, Fransaya gedirik. Eyfel qülləsində altı nəfər fransalı dostuyla 45 illiyimi keçirməyə.

Həmin gün Fransada maşın bayramıydı. Bayramda iştirak edənlər o zamanın xüsusi dəbiylə geyinirdilər. Karvana qoşulduq, karvandakı bir xanım şlyapasını mənim başıma qoydu. Doğum günümdə bayramda iştirakımız yaddaqalan oldu...

Omanda yaşadığımız vaxtlarda gün-güzəran, umumiyyətlə hər öz qaydasında olub. Orada insana qayğı, dəyər həmişə yüksək səviyyədəydi. Bizə - qadınlara avtobus təyin etmişdilər. Hər həftənin bir günü gəzintidə olurduq. Bir gün də hər qadın növbə ilə öz evində milli xörəyini bişirir, bizi qonaq edirdi, yeyib-içib şənlənirdik, videoya çə-

kib paylaşırdıq. Aramızda hər millətdən nümayəndə vardı. Ad günlərini birlikdə qeyd edirdik, insanlar mənalı və aktiv həyat keçirirdi.

50 illik yubileyim günü də Fransadaydıq, Paris şəhərində. Qrahamla birgə yenə Eyfel qülləsinə qalxdıq. Qüllənin ən hündür yerində bir neçə qonağımızla birlikdə doğum günümü qeyd etdik. Nədənsə xaricdə keçirdiyimiz doğum günlərim xoş və yaxud xoş olmayan müxtəlif hadisələrlə yaddaşımda qalıb. Səhərisi gün dostlarımız bizə böyük qonaqlıq verəcəyini biləndə saçım formada olmadığından "refli" elətdirmək üçün gözəllik salonuna getdim. Usta saçımın rəngini saraltmaq üçün rəng qoydu. Damağındakı siqareti tüstülədə-tüsdülədə yanındakı bir oğlanla alovlu, səs-küylü mübahisə edirdi. Deyəsən oğlanla hansısa məsələdə razılığa gələ bilmirdilər. Qızın başı qarışmışdı və mən unudulmuşdum. Bir neçə dəfə onu xəbərdarlıq etdim ki, başım yanır. Başım elə qaşınırdı ki, dözə bilmirdim. Ancaq o, öz dünyasındaydı, hələ vaxta var deyib oğlanla haylı-küylü söhbətindən ayrılmaq istəmirdi. Artıq mən dözə bilməyib, "saçım yandı, saçım yandı!" qışqıranda qız tez gəldi. Başımı yuyanda tüklər komnan yerə töküldü. Başımın ortası, yanları yanıb, ancaq arxada bir az tük qalmışdı, biabırçı hala düşmüşdüm. Belə vəziyyətdə adam içinə çıxmaq mümkün deyildi. Qrahama zəng etdim, dedim başıma belə hal-qəziyyə gəlib, tez özünü çatdırdı. Dövlət bizə 7-8 mim frank civarında təzminat ödədi. Səhərisi gün saçımı tamam qırxdırdım, tamamilə daz. Axşam da qonaqlığa getdim. Hamı təəccübəndi, mən də və-

ziyyətdən çıxmaq üçün nəsə deməliydim. Dedim, özümə söz vermişdim, 50 illiyimi belə keçirmək seçimimi çoxdan fikirləşmişdim ki, heç vaxt unudulmasın. Hamı mənim belə qeyri-adi seçimimi alqışladı. O vaxt çəkilən şəkillərə indi də gülə-gülə baxıram. Mən o seçimimi indi dönə-dönə alqışlayıram. Çünki ömrümün bir anı kimi həmiºə təbəssümlə xatırlanacaq...

***

Qrahamın iş yoldaşı ilə birgə Yeni Zelandiyada idik. Hər gün səhər mən idman edər, müəyyən məsafəyə qaçar, sonra da Qrahamgilin işinin qəhvə içmək üçün ayrılmış qısa fasilə vaxtında onların iş yerinə gəlib onlarla birlikdə qəhvə içərdim. Sonra da evə gələr, bir azdan onlar gəlib məni nahara aparardılar. Bu artıq adət halını almışdı, hər gün davam edirdi. Bir gün Qrahamın iş yoldaşı sevinərək mənə bildirdi ki, Sara, həftənin 5-ci günü həyat yoldaşım səni qonaq çağıracaq. Evdə heç nə yemə, bizdə nahar edərsiniz, həyat yoldaşım çox dadlı yeməklər bişirir. Razılaşdım. Qadın 5-ci gün səhər-səhər mənə zəng etdi ki, bağışlayın, bəs itimiz xəstələnib, onu heyvanların xəstəxanasına aparıram. Dedim ki, heç bir problem yoxdur, narahat olma. Gələn həftə necə oldusa mənim işim oldu, mən gedə bilmədim.

Axır ki, 3-cü həftə bizim görüşümüz alındı. Biz 24-cü mərtəbədə yaşayırdıq. Qadın mənə zəng vurdu ki, düş aşağı, düşdüm. Səhər saat doqquz idi. Onlara getdim, qadın mənimlə bir az söhbət etdi, sonra çoxlu kitablar və jur-

nallar qabağıma qoydu, ordan-burdan danışdıq. Adətən mən səhər heç nə yemirəm. Aclıq mənə güc gəlirdi. Saat 12 oldu, 1 oldu, yeməkdən xəbər yoxdu ki, yoxdu, aclıq məni birtəhər edib, ancaq nəsə deməyə də utanıram. 2-yə işləmiş, evin xanımı soruşdu ki, Sara, qəhvə içirsən? Razılığımı bildirəndə soruşdu ki, südlü gətirim, yoxsa südsüz. Sən nə təhər içirsəsə, elə gətir, dedim. 200 qramlıq böyük bir fincanın dibində qəhvə gətirdi, 2-3 qurtuma içib qurtardım. Mətbəxə keçdi və geri qayıdıb dedi ki, çox dadlı yemək bişirirəm, bir az da gözlə. Saat 3-ə qalmış gəldi ki, yemək hazırdı, keçək mətbəxə. Öz aramızdı, çox gözəl ətri gəlirdi yeməyin. Aclığımı daha da çox hiss etdim. Əyləşdik, hərəmizin qabağına bir yekə boşqab qoydu, bir az gözlədim, nəhayət göyərti salatı gətirdi, o da lap az, hərəyə bir çəngəl götürsəydik qurtarardı. Qaz sobasının ağzını açıb içindəki qabı o tərəf, bu tərəfə çevirir, təriflәyir ki, necə də dadlıdır. Onu da gətirdi, köbələk idi, düzdü, qəşəng ətri vardı, dəyirmi, əl içi boyda olar, ya olmazdı. Ortadan böldü, yarısını mənə verdi, yarısını da özünün boşqabına qoydu. Düşündüm ki, mütləq ikinci xörək də olacaq. Ancaq heç nə gəlmədi. Yedik, ancaq doymadım. Dedim ki, mənim işim çıxdı, təcili evə qayıtmalıyam. Saat 5-də məni evə gətirdi. İçəri girən kimi Qraham zəng elədi ki, Sara, gəlibsənmi, açıldım bomba kimi: "sən məni hara göndərmisən?". Mənə necə qonaqlıq verdiyini, başıma nə oyun açdığını, ac qaldığımı söylədim, heç nə demədi. Evdə doyunca çörəyimi yedim.

Səhərisi gün Qrahamın iş yoldaşı ilə qarşılaşdım. Soruşdu ki, necə keçdi qonaqlığınız? Yoldaşım sənin qonaqlıqdan razı və sevinclə qayıtdığını, çox məmnun olduğunu bildirdi. Cavab verdim ki, çox-çox sağ olun, əla keçdi, bir dənə dadlı köbələk bişirmişdi, dadından doymaq olmurdu, yarısını o, yarısını da mən yedim, ikimiz də doyduq. Kişinin rəngi saraldı, xəcalət çəkdiyini, utandığını üz-gözündən hiss elədim. Ürəyimdə özümü qınadım, gərək deməyəydim...

***

O səmimi, mehriban, insanların bir-birinə dəyər verdiyi günləri xatırlayanda 2008-ci ildə Omanın paytaxtı və ən böyük şəhəri Maskat şəhərinə güclü leysan yağması yadıma düşür. Yağış hər yanı yuyub aparırdı. Bizim evimiz təpədəydi, üç mərtəbəli evdə yaşayırdıq. Pəncərədən yağışı seyr eləyəndə gördüm ki, evimizdən bir az aralı təpədə iki cavan gəlin avtomobilini saxladı. Artıq avtomobili sürmək mümkün deyildi. Yağış suyu artıq avtomobilin salonuna dolmaq üzrəydi. Evdən çıxıb onlara tərəf qaçdım, evə dəvət elədim. Təəccübləndilər, evə gəlməyə çəkinirdilər. Tez dilləndim ki, narahat olmayın, əlhəmdülillah, mən də müsəlmanam. Ürəkləndilər, razılaşdılar, əslində başqa çıxış yolu da qalmamışdı. Yağış getdikcə güclənirdi, sanki göyün yerə acığı tutmuşdu, bütün hirsini yerə tökürdü.

Sel evimizin əvvəl birinci, sonra da ikinci mərtəbəsinə qalxdı. Bizim üçüncü mərtəbəyə qalxmaqdan başqa çarəmiz qalmadı. Artıq yaxınlıqdakı avtomobillərdən əsər-əla-

mət qalmamışdı. Axşam düşəndə pəncərədən gördüm ki, tikintidə işləyən fəhlələr köməksiz vəziyyətdə binanın damına qalxıblar. Onu da bildirim ki, Omanda belə işlərdə heç vaxt ərəblər işləməzlər. Kənardan, əsasən də Hindistandan və Pakistandan gələnlər işləyirlər. Binanın yuxarı qatına çıxan tikinti işçiləri alışqanları yandırıb xilas olmaq üçün kömək istəyirdilər. Bizim də fənərləri yandırıb onlara ürək-dirək verməkdən başqa çarəmiz qalmamışdı. Onlar səhərə kimi binanın damında qaldılar. Gözümüzün qabağında suyun üstündə evlər, avtomobillər, selin ağzına keçən nə varsa saman çöpü kimi üzürdü.

Evdə su, elektrik yoxuydu, telefon işləmirdi, internet də kəsildiyindən kiminləsə əlaqə saxlamaq mümkün deyildi. Birinci mərtəbəyə düşmək imkanımız olmadığından susuz qalmışdıq.

Səhər açılanda yağış kəsdi, su yavaş-yavaş çəkilməyə başladı. Günortadan sonra bizimlə əlaqə yaratdılar. İki gəlinin həyat yoldaşları soraqlaşdılar, qızlar bizim evdə ağlaşırdılar, həyat yoldaşları da haradasa. Sən demə gəlinin birinin altı günlük çağası varmış. Sel çəkilən kimi gəlinlərin həyat yoldaşları dağ yoluyla üç avtomobillə gəlib çıxdılar. O qədər dil-ağız, təşəkkür etdilər, məni qucaqlayıb öpdülər, sevinc yaşlarını gizlədə bilmədilər, gəlinləri sel sularından xilas etməyimizi qəhrəmanlıq səviyyəsinə qaldırdılar. Xonçalarda mənə müxtəlif gümüş hədiyyələr, növbənöv xurmalar gətirmişdilər.

Beləliklə, biz onlarla ömürlük dost olduq...

Bizi evdən çıxardılar, dörd günlük sığınacaq verdilər.

O unudulmaz yağışlı günün fəsadları, itkiləri çox oldu. Gecə növbəsində işləyən mağazalardakı, istehsal müəssisələrindəki çeşid-çeşid mallar hamısı sınmış, islanmış, yararsız vəziyyətə düşmüşdü. Cəzaçəkmə yerlərinə su dolduğundan oradakı məhkumlar həlak olmuşdu. Sıra-sıra düzülmüş qızıl, əntiq əşyalar mağazalarının içi bomboş idi. Bahalı avtomobilləri sel suları yuyub aparmış, ora-bura ilişib qalmışdı. Avtomobildə ana ilə birlikdə bir ailənin yeddi uşağını sel suları məhv eləmişdi.

Sel çəkiləndə o yerlərə baxmaq üçün qayıtdıq. Hindistandan gələnlər küçələrə düşüb palçığın, lilin içindən qırılmamış bahalı parfümlər, eynəklər axtarıb tapır, təmizləyib baha qiymətə satırdılar.

Sel suları xarabazarlığa çevirmiş əraziləri Qrahamla gəzərkən düz boğazımacan selin yaratdığı quyuya düşdüm. Bir də həyat yoldaşım geriyə çevrilib mənə nə isə demək istəyəndə görür ki, mən onun yanında yoxam. Təşviş içində məni axtarır. Görür ki, palçığın, lilin içindən qənimət axtaran hindlilər əlimdən yapışıb məni sulu, palçıqlı quyudan çıxarırlar. 3-4 gün əvvəl həyat yoldaşım mənə bahalı telefon almışdı. Təzə telefonum da beləcə xarab oldu.

Bir neçə gün sonra dövlət bizə yeni ev verdi, selin yaratdığı ziyanı ödədi. Ümumiyyətlə, şəhərin zərərçəkmiş əhalisinə belə fövqaladə vəziyyətlərdə dövlət maddi dəstək göstərir, hətta avtomobilini təmənnasız verir.

***

Bizim Omanda yaşadığımız dövrdə Oman sultanı Kabus bin Səid ölkə içini ziyarət edəndə də avtomobillə gəzməzdi, bir neçə helikopterlə harasa gedib gələrdi. Onun helikopterləri evimizin üstündən keçəndə əl eləyərdim. O da yaylıq yelləyib yerdəkiləri salamlayardı. Həyat yoldaşım da zarafatla gülə-gülə deyərdi ki, Sultan Kabus heç səni saya salmır.

Oman əhalinin rifahına görə çox yüksək səviyyəli ölkədir. İnsanlar qayğısız və sağlam yaşayırlar, doğruluq, düzgünlük burda əsas məsələdir, işləyən əhali ən yüksək maaş, təqaüd alır, ev, avtomobillə təmin edilir, ölkədə oğurluq, quldurluq, məmur özbaşınalığı yox dərəcəsindədir.

Oranın dənizini çox sevirdim, tez-tez dənizə gedirdik, suyu tər-təmiz, dumdurudur.

Omanda 12 il yaşadıq...

***

Maskatdan Sohar şəhərinə köçdük. Qraham Sohar Aliminium Şirkətindən iş təklifi almışdı. Bu şirkət Omanın qeyr-neft sektorunun əsasını təşkil edir. Sohar Maskat şəhərindən şimalda yerləşir, ölkənin qədim paytaxtlarından biridir. Sindibadın doğulduğu yer hesab olunan bu şəhər nəhəng sənaye limanıdır. Burada da mehribanlıq idi, günlərimiz xoş keçirdi, hər yan gözəlliklərlə göz oxşayırdı, təzə dostlar, tanışlar tapmışdıq, köhnə dostlarımızla əlaqəni kəsməmişdik. Tez-tez onların yaşadıqları yerlərə səyahət edirdik.

Qraham Sohar Aliminium Şirkətində işlədiyi vaxtlar işlə əlaqədar tez-tez Fransaya gedərik. Növbəti səfərimiz maraqlı və yaddaqalan gün kimi yaddaşımdan silinmir. Səfərimiz çox maraqlı tədbir günüylə üst-üstə düşmüşdü. 2007-ci il dekabrın 29-da Lion şəhərində Milad bayramı, Fransanın milli bayramı Kristmas və Qolf Klubu günü münasibəti ilə təmtəraqlı Yeni il şənliyi keçirilirdi. Biz də o tədbirin iştirakçısı olduq. Sohar Aliminium Şirkətindən Liona dörd nəfər gəlmişdik - biz ikimiz və mister Cazzla onun xanımı Brenda. Four Seasons Qolf kurortunda böyük ziyafət təşkil edilmişdi. Dünyanın, demək olar ki, hər ölkəsindən 300-dən çox nümayəndə ziyafətdə iştirak edirdi, hamı da həyat yoldaşıyla. Iştirakçilarin hamısı qolf oynayan idi, məndən başqa. Mən də hərdən oynayırdım, yaxşı bacarmırdım, həvəskar idim. Ziyafəti bir neçə aparıcı idarə edirdi, geniş açılışdan, təbriklərdən sonra hamı ayağa qalxdı, sürəkli alqışlar salonu bürüdü. Aparıcılar bildirdilər ki, əyləşəndə hər kəs masasının altına baxsın ki, bu gecənin ən şanslı iştirakçısı kimdir. Mən masanın altına baxanda gözümə inanmadım. Düz ayağımın altında bir aləlvan kağız torbada böyük bir şüşə "Şanel" parfümü və Parisdəki "İntercontintenial" otelində iki gecə qalmaq üçün kupon vardı. Çox sevindim, həm gecənin şanslısydım, həm də "Şanel" ətirlərini çox xoşlayırdım.

Bayram şənliyində iştirak biletinin qiyməti 500 dollar idi. Gecədə beş mərhələli lotereya da oynanılırdı. Beş mərhələnin qalibi 11000 ABŞ dolları dəyərində Titleist Titanium baş atıcısının mükafatını qazanacaqdı.

Zəngin konsert proqramında müğənnilər, rəqs ustaları şənliyə təravət qatırdı, müxtəlif malların satış yarmarkası keçirilirdi, rəsm əsərləri satışa çıxarılmışdı. Hami deyib, gülür, rəqs edir, şənlənirdi.

Bayram şənliyinin axırına yaxın bir oğlan səhnəyə qalxdı, o tərəf bu tərəfə meydanı dolana-dolana əlindəki 11000 dollar dəyərindəki qolf çubuğunu tamaşaçılara göstərirdi. Salon səssizliyə qərq olmuşdu, elə bil ki, iştirakçılar nəfəs almırdı, necə deyərlər, milçək uçsaydı, qanadlarının səsi eşidilərdi. Hamı bu qiymətli qolf çubuğunu qazanmaq istəyirdi. Nəhayət sükutu səhnədəki oğlan pozdu, onun müxtəlif suallarına hamı həvəslə cavab verirdi. Soruşurdu ki, əlindəki qolf çubuğu hansı firmanındır, hamı xorla cavabını deyirdi. Hamı bu hədiyyəni qazanmaq istədiyini bildirirdi. Salonda canlanma yaranmışdı. Bu minvalla oğlan tamaşaçıları təxminən 15 dəqiqə intizarda saxladı, sonra lotoreya oyunu başladı. Birinci aparıcı ilk rəqəmi söyləyəndə sevincək ayağa qalxdım, mənim nömrəm idi. İkinci aparıcı gəlib ikinci rəqəmi çıxardı, o da mənim nömrəmi səsləndirdi. Əlində qolf çubuğu gəzdirən oğlan növbəti aparıcını çağırdı, o da mənim nömrəmi çıxardı. Dördüncü rəqəm deyilməmiş yerimdən qalxıb qışqırdım ki, bu da mənim nömrəm olacaq. Oğlan duruxdu, söhbətinə ara verib məni həyəcanlandırdı, rəqəmə baxıb təsdiqlədi ki, bəli, düz deyirsiniz, bu sizin nömrənizdir. Dörd nömrə üst-üstə düşmüşdü, salon heyrət içindəydi. Qalırdı axırıncı - beşinci rəqəm, salonda həyəcan pik həddə çatmışdı. Yenə əlində qolf ağacı gəzdirən oğlan səhnədə var-gəl edirdi. Yenə

yerimdən qalxıb qışqırdım ki, beşinci də mənim nömrəm çıxacaq. Oğlan əlini salıb bir rəqəm çıxardı və o an qışqırdı ki, bəli, bu sizsiniz. Salonun uğultusu qulaqları batırırdı. Emosiyalar, alqışlar, səs-küy bir-birinə qarışmışdı, heyrətlə mənə baxan da vardı, sevinən də, qısqanan da, hətta əsəbləşən də. Aparicilar məni qolf oynamayan ən şanslı xanım kimi təqdim etdilər.

Bayram şənliyində çoxlu jurnalistlər iştirak edirdi. Səhərisi gün bütün qəzetlərdə ən şanslı xanım kimi mənim barəmdə yazılar çap edildi, şəklimi verdilər.

Otelə qayıdanda zarafatımdan qalmadım. Qrahama gülə-gülə dedim ki, bu qolf çubuğunu sənə yarı qiymətə satıram. Gülümsündü, bildi ki, onsuz da qolf çubuğunu ona hədiyyə verəcəyəm. Bununla belə mənə qiymətli hədiyyə aldı.

Lion səfərimiz indi də ömrümüzün xoş anları kimi hər ikimizin yaddaşında yaşayır.

***

Həyat yoldaşım bir müddət Sohar Aliminium Şirkətində fəaliyyət göstərəndən sonra Birləşmiş Ərəb Əmirliklərinin siyasi, iqtisadi, sənaye, mədəni mərkəzi və paytaxtı Əbu-Dabiyə işə dəvət olundu. Orada işləyə-işləyə Malayziyadan da iş təklifi aldı. 2000-ci ildə Malayziyaya gəzməyə gedəndə orada ev almışdıq. Malayziya cənnətməkan bir ölkədi. Haraya baxırsan gül-çiçəkdi, yaşıllıqdı. Oranı görəndə mənə elə gəldi ki, cənnətin qapıları oraya açılır. İnsanlar çox səmimidirlər. Malayziyaya yaxın ölkələri -

Tailandı, Sinqapuru, İndoneziyanı da gəzmişik. Tailanda gedəndə bələdçi qız soruşdu ki, siz haradansınız? Nə qədər elədim haradan olduğumu başa sala bilmədim, başa düşmədi. Dedi Rusiyadan? Dedim hə. Gülə-gülə söz atdı ki, ruslar çık-çık edə-edə yaman içirlər, bəs sən niyə içmirsən? Mən içən deyiləm deyəndə təəccübləndi.

Qürbətdə keçən hər günüm unudulmaz bir xatirədir. Elə yerlərdə olmuşam ki, yuxuda da görə bilməzdim. Belə ekzotik səfərlərdən biri də dostlarımla birlikdə Malayziyanın cəngəlliklərinə olub. Bu ölkə müxtəlif mədəniyyətlərin, heyrətamiz mənzərələrin, qədimliyin və müasirliyin dinc birləşməsinin heyrət doğuran qarışığıdır. Dünyada məşhur ən hündür Əkiz Qüllələri, səs-küylü bazarları, böyük şəhərləri ilə yanaşı, vəhşi təbiətli cəngəllikləri ilə tanınan diyardı. Köhnə dünya ilə yeni dünyanın sintezinin ən yaxşı nümunəsidir. Cəngəllik sıx və keçilməz tropik və subtropik meşələrə verilən addır. Hələ də Yer kürəsinin heyvan və bitki örtüyünün öyrənilməyən sahələridir. Cəngəlliklərdə yaşayanların həyatı, ritualları mənim üçün çox maraqlıydı. Cəngəlliklərin qəribə qanunları olsa da, hiss edirsən ki, qayğısızdılar, heç bir dərd-sərləri yoxdu, çox xoşbəxtdilər. Düşünürsən ki, dünyada onlardan bəxtəvəri tapılmaz. Onların bircə qayğısı var: həyatda necə ayaq üstə dayanmaq, sağ qalmaq, qayğısız yaşamaq. Bütün qayğılardan uzaqdılar. Bizdəki kimi geyim-keçim dərdi yox, kommunal ödənişlər yox, yemək-içmək problemi yox. Hər gün kişilər cəngəlliklərin dərinliklərindən ov ovlayıb gətirirlər, qadınlar bişirib-düşürür, şad-xürrəm yaşayırlar. Nə

siyasətdən xəbərləri var, nə də sosial vəziyyətdən. İnanıram ki, ayın tarixini, hansı ildə yaşadıqlarını bilmirlər.

Özünəməxsus, təmtəraqlı bayramlarını görənlər heyrətlənirlər, adət-ənənələrini ciddi qoruyurlar. Bayramlarından biri haqqında söhbət açmaq istəyirəm. Kolluqların, lianaların keçilməz etdiyi cəngəlliklərdə elə quşlar var ki, onları ovlamaq qeyri-mümkündür, ancaq mahir ovçular bunu bacarır. Eşitdiyimə görə, belə quşların erkəyinin əti daha dadlı olur və həmin quşlar cazibədardır. Ovçular erkək quşu o vaxt ovlayırlar ki, o, dişi quşa yaxınlaşır. Həmin anda erkək özünü itirir, o vaxt ovçular ağzından üfürdüyü zəhərli oxla erkək quşu vururlar. Adətən bütün quşların, heyvanların erkəyi gözəl olduğu üçün ovçular həmin quşların və heyvanların ancaq erkəklərini ovlayırlar. Düzünə qalsa, bəşər övladlarının zərif cinsli nümayəndələri daha gözəl olurlar, çox vaxt da gözəlliyinin qurbanı olurlar. Tarix boyu sevgi dastanlarının mövzusu bunun üzərində qurulub. Ancaq cəngəlliklərdəki quşların və vəhşi heyvanların erkəkləri gözəlliyinə, ətinin dadına görə sevgisinin qurbanına çevrilirlər. Deməli, doğrudan da sevgi, eşq sirli-sehirli, təzadlı bir duyğudur. Əsl sevgi həmişə öz qurbanını axtarır.

Hələ bu harasıdır, gözəl erkək quşu ovlayan ovçular ovdan qayıdandan sonra vaxtaşırı təşkil olunan festivala qatılırlar. Onlar festivalda iştirak etməyə üstündə ovladıqları gözəl erkək quşların lələkləri ilə gəlirlər. Hansı ovçunun üstündəki lələk daha cazibədar, daha gözəldirsə festival gecəsinin şahı sayılırlar. Qalib neçə nəfər gözəl qız is-

təsə seçə bilir, bir gecəlik onlara sahib olmaq səlahiyyəti qazanır. Bu, onların uzun illər davam edən ritualıdır, qanun kimi toxunulmazdı. Buna heç kim etiraz edə bilməz.

Daha bir maraqlı və ekzotik Allaha inam. Cəngəlliklərdə yaşayanlar insan əti yeyirlər. Onların dini inamına görə, insan əti yeyənlərə şeytan yaxın gələ bilməz. Oranın sakinləri ölən əzizlərini qurda-quşa yem edirlər. Taxtadan onların cismini hazırlayırlar. Guya bu cisim-bütlər bunlarla birlikdə əbədi yaşayacaq. Bütləri həftədə bir dəfə çimizdirib sıraya düzürlər. Bu ölülərə ehtiram sayılır.

İndoneziyada bir qəbilə toy, şad günləri ərəfəsində 3 ildən, 5 ildən bir bütün dünyasını dəyişənlərini qəbirdən çıxarıb sıraya düzürlər. Qurudulmuş halda olan meyitləri geyindirirlər, gözlərinə, dodaqlarına kosmetikaya bənzər maddələr çəkirlər. Evlənənlər gəlib onların qarşısında baş əyir, əllərini öpüb qohumlarının gözlərinin qarşısında evlənirlər. Bu qəbilə də adətlərinə çox bağlıdır.

***

2013-cü ildə Qrahamın işi ilə əlaqədar Avstraliyanın Brisben şəhərinə köçdük. Aborigenlərin daha çox məskunlaşdığı Brisben əhalinin sayına görə Avstraliyanın üçüncü şəhəridi. Həyat yoldaşım əvvəl, mən sonradan getmişdim. Mən oraya çatanda güclü yağış yağırdı, yeri-yurdu sel, su basmışdı. Biz oteldəydik. Brizben çayının sahilinə getməyə qadağa qoymuşdular. Qraham qolf oyununu çox sevəndi. O, öz yoldaşları ilə oynayardı, mən də yanımdakı başqaları ilə. Qrahamın dostları gəlməyəndə mənimlə oy-

nayırdı. Qolf meydançasının yaxınlığında bir gölməçə vardı, topa zərbə vuranda gedib gölməçəyə düşdü. Ayağım islanmasın, suya düşməyim deyə əlimdəki qolf ağacının ucu ilə topu gölməçədən götürmək istəyəndə gördüm ki, orada timsah üzür. Qorxub qışqırdım ki, tez gəlin, gölməçədə timsah var, səsimdən timsah gölməçədə gizləndi, görünmədi. Mən də bilirdim ki, belə balaca su hövzəsində timsah yaşaya bilməz, ona görə də orada timsah gördüyümü heç kimə inandıra bilmədim. Dedilər ki, qorxma, gözünə belə görünüb, burada timsah nə gəzir? Sonrakı gün televizor həmin gölməçədə timsah olduğunu çəkib izləyicilərinə göstərdi. Sən demə, əvvəlki günün yağmurunun yaratdığı sel timsahı gölməçəyə gətirib. Timsahı ehtiyatla tutub apardılar...

Avstraliyada bir ömürlük yadda qalası hadisədən də söhbət açmaq istəyirəm. Bu hadisə bir müddət məni gündəmdə saxlayıb, qitə-dövlətin məşhur adamına çevirib. Bu ölkəyə birillik gəlmişdik. Həyat yoldaşıma dedim ki, elə yerdə ev götürək ki, dünyanın harasında olsaq da, həmişə o yeri xatırlayaq. Bizə verilən ev çayın mənzərəli sahilindəydi, körpüyə lap yaxın idi. Sahil bağ-bağatlıydı, çayın sularından su içən ağaclar, otlar, çiçəklər, adətən az yağış yağan ərazini cənnətə döndərmişdi, havası saf ərazi idi. Üçüncü mərtəbədəki evimiz, demək olar ki, beş ulduz otellərdən fərqlənmirdi, lüks komfortu, par-par parıldayan mebelləri, dağların bəyaz qarı kimi ağappaq yataq dəstləri insanın yorğunluğunu bir anda yadından çıxarır-

dı. Evdə hər şey o qədər təmiz idi ki, əl dəyməyə, üstündə gəzməyə adamın heyfi gəlirdi.

Bir məsələni də vurğulayım ki, həmin binada yaşayanlar arasında evi təmiz saxlamağa görə yarış keçirilərdi, bu yarışda birinci yerə çıxmışdım. Bunu elə təmtaraqlı təqdim etdilər, hətta mükafat da verdilər. Fərəhimdən sevinirdim, belə diqqət insanda daha böyük həvəs, güc verir, sanki hansısa mötəbər yarışın qalibisən.

Graham hər gün səhər saat 6-da işə gedirdi, mən də həmin vaxt onu yola salırdım, elə bil ki, uşağı bağçaya, yaxud məktəbə göndərirdim.

Brizben çayının sahili boyu zəngin təbiətli Botanika bağıydı. Grahamı işə yola salandan sonra evdən çıxıb çayın axarı boyunca piyada gedib-gəlirdim. Gündə 25-27 kilometr yol qət edirdim. Saat 11 olanda həyat yoldaşımın iş yerinə yaxınlaşanda ona zəng edirdim, Qraham aşağı düşür, kafedə ikimiz hərəyə bir stəkan kofe içirdik, o işə, mən də evə qayıdırdım. Evin qarşısındakı idman zalında trenajorda və başqa idman avadanlıqlarında məşq edirdim. Sonra Botanika bağından keçib yoldaşımın iş yerinə tərəf asta-asta addımlayar, zəng edib Qrahama bildirərdim ki, gəlib çatıram. O, aşağı düşər, nahara gedərdik. Çoxunuz düşünərsiniz ki, belə yeknəsək həyat darıxdırıcı deyilmi? Xeyr, bu insanda yaşamaq eşqini artırır, təbiətin qoynunda rahat nəfəs alırsan, sağlamlığını qoruyursan, aktiv həyat keçirirsən. Həm də bizim - Qrahamla mənim aramızdakı qarşılıqlı anlaşma, bir-birimizə diqqətimiz,

qayğımız, ətrafdakı insanların təbəssümlü simaları yaşamaq eşqini heç vaxt azalmağa imkan vermir.

Günlərin birində birgə nahardan sonra həyat yoldaşım işə, mən də Brizbenin ən böyük Maya Sentr adlanan ("Brizben Biznes Mərkəzi") ticarət mərkəzinə özümə parfüm almağa yollandım. Avstraliyda ancaq uzaq məsafələrə avtomobillə gedirlər. Yarım saatlıq, bir saatlıq yolu əksər insanlar piyada qət edirlər. Çünki avtomobilin parklanma xərci 25 dollardan başlayır, vaxtdan asılı olaraq 50 dollara qədər çatır.

Bakı ilə telefonla danışa-danışa, heç nəyə, ətrafa diqqət etməyərək ticarət mərkəzinə daxil oldum. Birdən gördüm ki, qarşımda hündürboylu bir oğlan mənimlə ucadan və həm də sürətlə danışır. Elə sürətlə qışqırır ki, heç nə anlamıram. Mən telefonu söndürüb onunla söhbətə başladım: "bir az asta danışın, sözlərinizi təkrarlayın, heç nə başa düşmürəm". Baxdım ki, oğlan mənim dediyimə fikir vermədi, əlini cibinə salıb naqan çıxartdı, əynindəki köynəyi soyunub yerə atdı. Şikayətlənməyə başladı ki, bu gün mənim ən ağır günlərimdən biridir, məni heç kəs başa dümür, mən bədbəxtəm, arvadım məni atıb gedib, yaşamaq istəmirəm, xoşbəxt adamlara nifrət edirəm, daha nələr, nələr söylədi. Ətrafa baxdım, ticarət mərkəzində mənimlə o oğlandan başqa kimsə olmadığını onda gördüm, sən demə qorxub hamı bayıra qaçıbmış. Hal-qəziyyəni anlamadığımdan yerimdə donub qalsam da, qorxu hissi keçirməyə macal tapmadım.

Həyat yoldaşım işə çatandan heç yarım saat keçməmiş birdən diqqət edirlər ki, televiziyalarda bütün verilişlər bağlanıb, ancaq ticarət mərkəzini göstərirlər. Bizim bir Yeni Zelandiyalı dostumuz həyəcan və təşvişlə Grahama tərəf qaçır, qorxu içində qışqırır: "Qraham, Qraham, televizora bax, Sara terrorla üz-üzə qalıb!". Birdən həyat yoldaşımın zəng gəldi, boğuq səslə "tez bayıra çıx!" qışqırığı həm yalvarışa bənzəyirdi, həm də əmrə, yəni tez özünü xilas et. Telefonu söndürüb yenidən terrorçunu ilə asta-asta dilə tutmağa, vaxt qazanaraq xilas yolu axtarmağa başladım. Dedim ki, özünü ələ al, mən sənə kömək etməyə çalışaram, mən ingiliscə mükəmməl danışa bilmirəm, asta-asta danış, məni anlat və sair. Onunla danışa-danışa, başını söhbətə qata-qata dal-dalı qapıya tərəf çəkilməyə başladım. Qapıya yaxınlaşar-yaxınlaşmaz bir göz qırpımında 6-7 polis əlimdən, qolumdan, hətta ayağımdan yapışıb məni bayıra dartdılar. Bayıra çıxanda heyrət məni bürüdü, 100-lərlə jurnalistin əhatəsinə düşdüm. Hərə bir tərəfdən soruşur ki, nə gördün, onunla nə söhbət elədin? Səni nə yaxşı öldürmədi sualını verəndə qısa cavab verdim ki, bilmirəm. Mən də gördüklərimi, terrorçu ilə nə barədə danışdığımı birər-birər söylədim.

4-5 təcili yardım maşını məni gözləyirmiş. Həkimlər qarşıma qaçıb soruşdular ki, bəs qorxmadınmı, özünü necə hiss edirsən? Onlar məni təcili yardım maşınına əyləşdirib xəstəxanaya aparmaq istəyəndə dedim buraxın məni, qorxmamışam, heç nə olmayıb. Hər ehtimala qarşı mənə iynə vurdular.

Qraham təngnəfəs gəlib çıxdı, məni öpüb qucaqladı, gözləri sevinc yaşlarıyla doldu. Onu belə görəndə mən də kövrəldim. Bəlkə də başıma gələnləri həmin an anladım.

Iki saat yarım keçəndən sonra danışıqlar nəticəsiz qaldığından terrorçu oğlanı rezin güllə ilə zərərsizləşdirdilər. Düz bir həftə həmin kriminal olayı və məni televizorda göstərdilər, Avstraliyanın ən məşhur adamı oldum həmin bir həftə. Çəkdiyim şəkilləri Bakiya göndərdim, qohum-əqrəba, dost-tanış mənə gözaydınlığı verdi, məni qəhrəman hesab elədilər...

***

Elə alınırdı ki, işi ilə əlaqədar Qrahamı ayda 3-4 ölkəyə göndərirdilər. Mən də onunla birlikdə gedirdim. Hindistanda Qrahamın dostları, iş yoldaşları çoxdur. Çünki Sohar Aliminium Şirkətində işləyəndə şirkətin ərazisində "kompleks" adlanan bir yaşayış massivndə yaşayırdıq. "Kompleks"in ərazisi bağlı bir yer idi, bircə giriş qapısı vardı. Orada hündürmərtəbəli evlər də, villa tipli yaşayış evləri də bir-birinə yaxın tikilmişdi. Bu evlərdə yalnız şirkətdə işləyənlər yaşayırdı. Burda Hindistandan xeyli insan işləyirdi. Hər gün bir-birimizi görür, söhbət edir, müxtəlif günlərdə birgə çay, qəhvə süfrəsi arxasında əyləşirdik. Hindlilərlə dostlaşmışdıq.

Şirkət Qrahamı Hindistana göndərəndə sevindim. Çünki o dövləti görmək, adət-ənənələri ilə yaxından tanış olmaq çoxdankı arzum idi. Bilirdim ki, orda qeyri-adi həyat

tərzi, adət ənənələr var, qəribə insanlar yaşayır. Onları görmək, ünsiyyətdə olmaq həddindən artıq maraqlıydı.

Orada vaxtımız çox əyləncəli keçirdi. Yığışırdıq, şəkil çəkdirməyə gedirdik, muncuqlardan gözəl işləmələr, açarlar üçün breloklar, boyunbağılar, qolbağılar, sırğalar, düzəldirdik, alıcısı olanda cüzi qiymətə satırdıq. Əsas məsələ çoxlu pul qazanmaq deyildi, həyatı rəngbərəng etmək, vaxtı səmərəli keçirmək idi. Qürbətdə insanın halı birdənbirə dəyişir, Vətən, qohum-əqrəba xiffəti, nisgili bəzən adamı elə özünə çəkir ki, nəsə bir məşğuliyyət axtarırsan ki, başın qarışsın, qürbət hisslərini unudasan. Xaricdə yaşamaq mənə öyrətdi ki, insan ömrünün hər anının dəyərini bilməli, boş-boşuna keçirməməlidir.

Soharda hindlilərin çox işlədiyini yuxarıda qeyd etmişdim. Biz Hindistana gələndə köhnə dostlarımızı tapdıq, yeni dostlar da qazandıq.

Müəyyən vaxt keçəndən sonra qərara aldım ki, mütləq Varanasi şəhərinə getməliyəm. Varanasi Hindistanın qədim şəhərlərindən biri, buddistlərin və caynistlərin müqəddəs dini mərkəzi, ziyarət yeridir. Bəlli deyil təməli nə vaxt qoyulub, yolları daşla döşənib, hesablamalara görə yaşı 5000 ildən çoxdur. Burada dəfn adətləri və meyitlərin yuyulması Qanq çayının sahilində təşkil edilir. Varanasinin girintili-çıxıntılı, əyri-üyrü, dolanbac və dar balaca küçələrində 2000-ə qədər məbəd var. Ən məşhuru Kaşi-Vişvanaxtdır. Bu məbəd hindlilərin Allahı Şivanın şərəfinə tikilib, Qızıl Məbəd adlanır. Varanasidə yaşayanlar varana-

silər adlanır. Şiva dininə görə insan təzadlardan yaranıb, yəni həyat və ölümdən, ümid və iztirabdan.

Varanasinin heyrət doğuran çox fərqli həyat ritmi var, Qanqın sularında meyitlər üzür, sahilində, meyitdən bir metr aralıda bir kişi paltar yuyur, yaxud bulanıq suda dişlərini təmizləyir. Hamı bu çayda xoşbəxtcəsinə çimir.

Hindlilər deyirlər ki, Qanq bizim anamızdır, siz turistlər bunu anlamazsınız. Siz gülürsünüz, təəccübənirsiniz ki, biz müqəddəs Qanqın suyunu içirik. Çox maraqlıdır ki, onlar içində yüzlərlə meyit qalıqları üzən çayın suyunu içirlər, ancaq xəstələnmirlər.

Qanqin sahillərində addımbaşı meyit görürsən. Onlarla meyit tonqalda yandırılmaq üçün növbə gözləyir. Bəzən odun qurtarır, onda əllərində bambuk ağacının qalın çubuqlarını tutanlar tonqalları qarışdırırlar, ölünün tam yanması üçün əllərindəki çubuqlarla meyiti döyəcləyirlər ki, tam yansın. Təxminən hər gün orada 200-400 arası insan cəsədi yandırılır. Buraya təkcə Hindistan ərazisindən yox, immiqrantların, xaricdən gələn Şiva dininə sitayiş edənlərin meyitləri yandırılır.

Şiva natamam adamların Allahıdır. Məsələn, yarıdan aşağı kişidi, yarıdan yuxarı qadın, yaxud əksinə. Bəziləri üç ayaqlıdı, ya qolarının sayı artıqdı. Varanasinin əhalisinə varanasilər, yaxud aqvarilər deyirlər. Şiva dininə ibadət edən aqvarilərin bir qrupunu "baba" da adlandırırlar. Babaların əynində nəsə yüngülvari paltar olur, saçları uzundu. Onlara yaxınlaşmaq, görüşmək, mümkün deyil, öpmək olmaz. Oraya qardaşımın həyat yoldaşıyla getmiş-

dim. O, alimdir, Hindistandan tədqiqat aparır, AMEA-da işləyir, aqvarilərin həyat tərzini, məşğuliyyətini, dini mərasimlərini, adətlərini öyrənmək istəyirdi.

Varanasini "ölüm paytaxtı" adlandırırlar. Hər gün Hindistanın müxtəlif yerlərindən minlərlə xəstə, qoca, gücdən düşmüş insanlar bura gəlir ki, Qanq çayı sahilində vəfat etsinlər. Təkcə Hindistan ərazisindən yox, immiqrantlar, xaricdən gələnlər - Britaniyadan, ABŞ-dan, İtaliyadan, Fransadan bu dinə sitayiş edənlər də buraya gəlirlər. Gələnlər Hindistana gizli dağ yoluyla Nepaldan keçirlər. Özləriylə narkotik maddələr gətirirlər. Guya ziyarətə gəlirlər, əslində gəldikləri ölkələrdən qaçanlardı.

Ölümlə barışanlar dünyanın hər naz-nemətindən, ləzzətindən, həzzindən imtina edirlər. Onlar ona görə bura yığışırlar ki, meyitlərini, yaxud da tonqalda yandırılmış cəsədlərinin külünü Qanq çayına atsınlar. Əgər belə olarsa, onların inancına görə, cənnətə gedəcəklər. Ayağı tutan da, tutmayan da ölümünü gözləyən, haldan düşmüş aqvarilərə içmək üçün Qanq çayından su gətirirlər. Aqvarilər tamamilə lüt olurlar, bədənlərinin hər yerinə kül sürtürlər, çimmirlər. Aqvarilərin pərəstişkarları, onlara can-başla qulluq etmək istəyənlər çoxdur. Tez-tez suya cumub suyun üzərinə çıxan meyit qalıqlarını gətirib aqvarilərə verirlər. Bəzən meyit qalıqlarını əldə etmək üçün qızğın mübarizə aparırlar. Dəhşətli mənzərəni görənlərin təəccübdən gözləri qaralır, bu mənzərə dəhşət filmlərinin kadrlarına bənzəyir. Sudan çıxarılan cəsədin qalıqlarını itlər bir yana dartır, adamlar o biri yana. Tükürpədici məzərəni

görməyənlər yazdıqlarıma bəlkə də inanmazlar, ancaq bu həqiqətdir. Aqvarilər sudan çıxarılmış meyit qalıqlarının əlinin, üzünün, çənəsinin və başqa müxtəlif orqanlarının ətini yeyirlər, əti yeyilmiş sümükləri yaxalarından asırlar, meyitlərin beyin qapağında su içirlər.

Onların bir xüsusiyyətini qabartmadan keçə bilmədim, bunu yazmasam vicdanım qarşısında xəcalət çəkərəm. Təsbeh alanda yadımdan çıxıb çantam orada qalmışdı. Çantamda 2000 dollardan çox pul və telfonum vardı. Üstündən 3-4 saat keçəndən sonra geri qayıtdıq, qaytardılar, heç nəyə toxunmamışdılar. Belə insanlığı və gözütoxluğu onları mənim gözümdə ucaltdı.

Varanasidə, Qanq çayı sahilində varlılar da, kasıblar da bədəninə insan külü çəkir. Ancaq burada da təbəqələşmə var. Sahildə insanları yandıranda kasıblar odun çatışmadığından bəzən ölülərini tam yandıra bilmirlər. Çünki odun bahadır. Bir ölünün yandırılması 3-4 min rupiyə (60-80 dollar) başa gəlir. Bir cəsədi yandırmaq üçün 300-400 kiloqram odun lazımdır. Hər meyit təqribən dörd saat ərzində yandırılır. Ona görə də ölüsünü tam yandırmağa maddi vəsaiti çatmayanlar yarımçıq yanmış meyitin külündən bir az götürüb yanmayan hissələri çaya atırlar.

Varlılar isə ata-anasının, yaxın qohumlarının cənazəsini axıradək yandırırlar. Çünki onların odun çatışmazlığı problemi yoxdur. Varlı təbəqənin adamının cəsədini yandıranda ətrafı çox üfunətli iy bürümür. Onlar ud ağacının odunundan yanmada istifadə edirlər. Ud ağacı yananda ətrafa xoş ətir yayır. Ud ağacının oduncağının bir kiloqra-

mı 160 dollara yaxındır. Kasıbların meyiti yananda isə insan dəhşətə gəlir, yananda ölünün ətinin iyi, dözülməz üfunət o dərəcədə xoşagəlməzdir ki, bilmirsən necə nəfəs alasan.

Milyonçular ölülərini tamamilə yandırıb külün az miqdarını suya atıb qalanını özləri ilə aparırlar. Onlar doğmalarının meyitlərinin külünü həmişə özləri ilə gəzdirirlər, dəyirmanlarda dəyirmançıya, qəhvəaltılarda, restoranlarda işləyənlərə pul verirlər ki, müxtəlif ərzaq məhsullarına qatıb müştərilərə versinlər. Guya milyonçunun dünyasını dəyişmiş ata-anası, yaxın qohum-əqrəbası onların külündən dadan milyonlarla insanın bədənində əbədi yaşayır, ölmür.

Buraya ziyarətə gələnlərin heç vaxt xətrinə dəymirlər, düşünürlər ki, bizim dinimizə inanıb gəlirlər. Əziləyirlər.

***

Hindistanda küçədə yatan inəyə toxunmaq qadağandır, inək əti yeyəni öldürürlər. Burada əksər yerlər antisanitariyadı, tualetlər yoxdu. İstər kişi, istər qadın oturduğu, dincəldiyi, yemək yediyi yerdən bir az aralanıb, arxasını çevirib utanmadan təbii ehtiyaclarını yerinə yetirirlər. Tac Mahala gedəndə addım atmaq mümkün deyil. Dilənçilər o qədər çoxdu ki... Hava həddindən artıq çirklidir, ağzımıza ağızlıq taxırdıq, bircə günün içində qapqara olur. Elə bil göydən yerə toz yağır.

İnsanlar bir-birinə, qonaqlara xoş üz göstərirlər, mehribandılar. Küçələrdə tez-tez toya rast gəlirdik, biz də kar-

vana qoşulurduq, sevinirdilər, həvəslə şəkil çəkdirirdik. Hindistandakı dostlarımız biz yaşayan ölkələrə qonaq gələndə onları oteldə gecələməyə qoymurduq, bizimlə qalırdılar. Biz də Hindistana gedəndə oteldə qalmağımıza imkan vermirlər. Gözoxşayan xalça palazları var, yeməkləri dadlıdır.

***

Bizim Şotlandiyanın Pert şəhərində evimiz var. Birinci dəfə gedəndə birbaşa evimizə getmədik, oteldə yer aldıq. Oradan Aberdin şəhərinə gedəcəkdik, oradakı dostlarımızla görüşməliydik. Aberdini gəzib-dolanandan sonra Edinburqa gedəcəkdik. Səhər-səhər bir qəhvəaltına rast gəldik, türklərin qəhvəaltısıydı, həzin türk mahnısının sədaları altında qollarımı açıb rəqs edə-edə içəri girdik. Qəhvəaltı etdik, pul almadılar, yeməyi hədiyyə etdilər.

Aberdindən İnvernnes şəhərinə doğru yol başladıq. Xeyli getdikdən sonra Blekford şəhərindən keçəndə böyük qəbiristanlıq gördüm, Qrahama dedim ki, avtomobili yolun kənarına çək, bu qəbiristana baxaq, həm də 5-10 dəqiqə dincələk. Hansi şəhərə getsək, mütləq qəbiristanlığa baş çəkmək məndə artıq adət halını alıb. Çünki Avropanın qəbiristanlıqları başqa aləmdi, insanı düşündürür, mənən zəngin edir, həyatın, ölümün mənasını anladır. Bəli, mən xarici ölkələrdə gördüyüm, ziyarət etdiyim qəbirstanlıqlarda həm də dincəlirəm. Belə yerlər adamı saflaşdırır, dincəldir, yorğunluğunu alır.

Dünyanın 76 ölkəsində olmuşam, çox qədim, hətta 300-400 il əvvəlki qəbirləri görmüşəm, ancaq heç bir ölkədə qəbirlərin baş daşına dünyasını dəyişənin şəkli həkk olunduğunu görməmişəm.

Yolüstü dayanıb ziyarət etdiyimiz bu qəbiristanlığın bir neçə özəl cəhətlərini qeyd etsəm, yəqin ki, oxucularımın marağına səbəb olacaq. Burada qəbir yerləri ev yeri kimi alınır. Yeri alanın doğmaları dəfn edilir. Bəzi qəbiristanlıqlarda yer haqqı birdəfəlik ödənilir, bu onların əbədi mülküdür, bəzilərində müqavilə şərtlərindən asılı olaraq hər il, yaxud beş ildən bir. Dəfn olunmuş insanların qəbirlərinin üstünə 4-5 hazır tabut qoyulur. Dünyasını dəyişən olanda tabut məzarın üstündən götürülüb torpağın üstünə qoyulur, dəfn edilir və torpağa basdırılır. Hər məzarın üstünə əlavə balaca dördkünc daş var, onun üstündə mərhumun adı, soyadı, doğum və ölüm tarixi, nədən, hansı xəstəlikdən öldüyü yazılır. Yer haqqı çox bahadır. Ona görə də çoxları ölənlərini yandırırlar. Qəbiristanlıqda səliqə-sahmana, eyni formada olan qəbirlərin düzülüşünə baxanda heyran olursan, sanki yaşıllıqları, gülü, çiçəyi göz oxşayan abad parkdasan, ya da muzeydə.

O vaxt ingilis dilində yazıları yaxşı oxuyub anlaya bilmirdim. Qraham bir qəbrin qarşısında dayanıb yazılan yazını oxuyub gülümsünəndə nəyə güldüyünü soruşdum. Qəbrin üstündəki yazını mənə tərcümə etdi: "Nəyə baxırsan, əvvəl-axır sən də bura gələcəksən". Təəccübləndim. Həyat yoldaşım bir neçə qəbrin üstündəki yazını da oxudu: "Həyat pulla alınsaydı, mən ölməzdim. Mən milyoner

filankəsəm", "Heç kefimdən qalmadım bu dünyada, çalışın kefinizdən qalmayın, gedirəm o dünyada da kefimi davam etdirməyə", "Qazandığını ye, yeməkdən, gəzməkdən savayı hər şey yalandı", "Pulunu qadına xərclə", "Pulunu heyvanlara xərclə" və s. Demək olar ki, hər qəbrin üstündəki müxtəlif mövzuda müdrik sözlər, məsləhətlər düşündürücüdür. O vaxtdan 30 il keçib, çox yazılar yadımdan silinib, xatırlaya bilmirəm, o qədər yaxşı cümlələr vardı ki. Fikir verirsinizmi, bizim ağlaya-ağlaya, ah-uf edə-edə, qaşqabağımızı buludlandırıb girdiyimiz qəbistanlıqlardan fərqli olaraq əcnəbilərin əbədi mənzillərindəki dodaqqaçıran cümlələr yaşam stimuludur, həyat eşqidi, yaşamağa, humanist, qayğıkeş olmağa çağırışdı.

5-10 dəqiqə dincəlməyə dayanmağımız yadımızdan çıxdı, bir saatdan çox qəbiristanlığı gəzdik. Çıxhaçıxda burnum bir xoş ətirlə doldu. Qraham dedi ki, viskinin ətridi. Mən o vaxta qədər konyakı tanıyırdım, ancaq viskinin nə olduğunu, dad-tamını bilmirdim. Qraham irəlini göstərdi: "gedək sənə göstərim". Orada işləyənlərə bildirdi ki, həyat yoldaşım Azərbaycandan gəlib, viski görməyib, hazırlanma prosesini, dadını bilmir. Bizi içəri apardılar, hər yer tərtəmiz idi. Viskinin nədən və necə hazırlandığını təmkinlə, tələsmədən başa saldılar. Ətrafda yarımçıq butılkalar çox idi. Gələnləri ayrı-ayrı dada malik viskilərə qonaq edirdilər. Hər butılkada müxtəlif növ, müxtəlif dadlı viski vardı, hər birindən dadmağa icazə verilirdi. Bildirdilər ki, buradakı viskilərin istehsal tarixi 50 idən çoxdu, hətta 100 ildən çox istehsal olunan növlər də var. Dequsta-

tor kimi, hərəsindən bir az içdim, gördüm artıq mənə təsir edir, başım fırlanır, daha içmədim. Bizə viski də hədiyyə etdilər. Həyat yoldaşım da içirdi, orada sürücünün spirtli içki qəbul edib avtomobili idarə etməsi problem deyil. Belə işlərə görə heç vaxt maşını əyləyib yoxlamırlar.

Yola düşəndən bir xeyli keçmiş qarşımıza nəhəng çay idimi, göl idimi, nədirsə, bir su hövzəsi çıxdı. Bir nəfər şotlandların milli geyimində qoltuğunda qoyunun şişirdilmiş dərisinə oxşar bir alətdə (bizim qədim musiqi alətimiz tulumba oxşar) musiqi ifa edirdi. Getdim onunla salamlaşdım, şəkil çəkdirdim. Dedi ki, yoldaşım rəhmətə gedib, tək qalmışam, mənə də bir gözəl xanım tap. Zarafatla onu söz verdim ki, bir gözəl bacım var gətirərəm sənin çün. Sevinə-sevinə soruşdu ki, hardan tapacaqsan məni? Dedim ayda bir dəfə buralara gələrsən, görüşərik, bacımı verərəm sənə. Gülümsündü, yəqin ki, inanmadı, zarafatımı başa düşdü...

***

Aberdinə qayıtdıq, bara getdik. Hamı oraya toplaşıb televizorda güləş yarışını izləyirdi. Dünya çempionatı, Olimpiya oyunları vaxtı bara 10-dan çox böyük ekranlı televizor qoyurdular ki, yarışlara tamaşa eləməyə gəlsinlər, daha doğrusu, müştəriləri çoxalsın. Biz orada olanda, yadımdan çıxıb, bilimrəm dünya çempionatıydı, ya Olimpiya oyunlarıydı, yunan-roma güləşi yarışları başladı. Az keçmiş, tatami üzərinə üç dəfə dünya çempionu, olimpiya qızıl medalçısı, Qızıl Qran-Pri qazanmış Fərid Mansurov

çıxdı. Fəridlə bir kənddə doğulmuşuq, o, məndən kiçikdi, yaş fərqimiz olsa da, bir yerdə böyümüşük, həm də yaxın qohumumdu.

Çox həyəcanlıydım, ürəyim yerində dayanmırdı, gah qışqıra-qışqıra, gah da göz yaşlarımı tökə-tökə Fəridə azarkeşlik edirdim. Arada Qraham gedib barda olanlara məni göstərib bildirdi ki, tatamidə mübarizə aparan güləşçi həyat yoldaşımın yaxın qohumudur. Yarış həddindən artıq gərgin keçirdi, bəzən özümü saxlaya bilməyib qışqırırdım, Fərid çətin vəziyyətə düşəndə ağlayırdım. Nəhayət Fərid qalib gəldi, hamı ayağa qalxıb məni sürəkli alqışlarla təbrik etdi, barmenlər bizə hədiyyə içki, yemək gətirdilər, özləri də Fəridin qələbəsi şərəfinə içdilər. Mənə içki alan kim, öpüb qucaqlayan kim, barda əməlli-başlı şadyanalıq yaranmışdı. Həmyerlim, qohumum uzaq Şotlandiyada mənə sevinc, qürur yaşatdı, ürəyim dağa döndü.

***

Şotlandlar ingilislər kimi soyuqqanlı, biganə, diqqətsiz deyil, çox insansevər, qonaqpərvər, qayğıkeş və mehribandılar, sözündə dürüstdürlər. Hər millətə qarşı qədirbiləndilər. Şotlandların sevimli şəxsiyyətlərindən biri Elgin adlı Türk əsilli sərkərdədir. Elqin şəhərinin adı həmin Türkəsilli sərkərdənin adındandır. Şəhərdə onun heykəli də ucaldılıb. Şotlandiyanın çox şəhərlərində olmuşam, buranın qədim sivilizasiyadan xəbər verən, sakit və valehedici şəhərləri ilə yanaşı, əhalisi, mədəniyyəti, tarixi məni özünə cəlb edib.

Həyat yoldaşım Azərbaycanı ikinci Vətəni hesab edir, mən də Şotlandiyanı ikinci Vətənim sayıram. Şotlandiyada yaddaqalan xoş, gözəl günlər keçirmişik...

***

Malayziyada, İndoneziyada, Yeni Zelandiyada, Sinqapurda çox maraqlı, ekzotik günlər yaşamışıq. Sinqapurda Qraham mənə içi brilyant qaşlı qolbağı, qızıl "Reliks" markalı saat almaq istəyəndə 300 dollar çatışmadı, daha doğrusu, bank kartının biri işləmədi. Çox xoşuma gəlmişdi, hay-küy saldım, göz yaşı tökdüm, xeyri olmadı. Sonra başqa yerdən aldı, amma əvvəlki daha gözəl idi.

Malayziyadan Bakıya qonaqlarımızın - malayların gəlişi də toy-bayrama çevrilmişdi.

İtaliyanın qədim mədəniyyət mərkəzləri ilə tanışlığım zamanı heyranlığımı gizlədə bilmədim. İtaliyanın şəhərlərinin arxitekturası və memarlığı mükəmməl şəhərsalma mədəniyyətinin bariz nümunəsidir.

Yeni Zelandiyada çoxlu rəfiqələrim, ailəvi qohumlarım var. Bu ölkə unikallığı ilə seçilir. Buranın əhalisi hər yeni gün Günəşin doğmasını hər kəsdən qabaq görür, Günəşi ilk qarşıyan insanlardır. Yeni Zelandiyanın paytaxtı Vellinqton dünyanın ən cənub paytaxtıdır.

Hollandiyada olanda Rotterdamdan Amsterdama uzun yolçuluq zamanı avtomobildən gördüklərim başqa bir gözəlliklər idi. Orada qəbiristanlıqların birini ziyarət edərkən Qrahamla eyni adlı, soyadlı, hətta atasının adı eyni olan qəbrə rast gəldim. 200 il əvvəl dəfn edilmişdi. Tez

uzaqdan həyat yoldaşımı səslədim ki, tez bura gəl, babanın qəbrini tapmışam. Qraham qeyri-adi hisslər keçirdi...

***

Xarici ölkələrdə olan vaxtlarımızda övladlarım, nəvələrimlə bağlı maraqlı, gülməli, yaddaqalan müxtəlif əhvalatlar yadıma düşəndə istər-istəməz üzümə təbəssüm qonur, bəzən də şaqqanaq çəkib gülürəm. Bu, bir ana, nənə qürurundan yaranan sevincdir, fəxrdir. Bir neçə əhvalat danışsam, sizin də əhval-ruhiyyəniz yüksələcək, üzünüzə təbəssüm qonacaq.

Səfər təəssüratlarımın müxtəlif məqamlarında qeyd etmişəm ki, Qrahamla hansı ölkəyə getsək, çox vaxt övladlarım, nəvələrim, gəlinimiz də bizimlə birgə olub. İlk oğul nəvəm İsmayıl biz Maskatda yaşayanda ora bir il yeddi aylığında anasıyla gəldi. Yaşının az olmasına baxmayaraq, çox səlis danışırdı, az qala böyüklər qədər informasiyası vardı. Yoldaşımla qərara gəldik ki, İsmayılı baxçaya yox, bizdəkinə bənzər məktəbəqədər təlim keçən tədris müəssisəsinə qoyaq. Orada da cürbəcür xalqların uşaqları vardı, hindlilər xüsusilə çoxluq təşkil edirdi. Nəvəm bir müddət həmin məktəbə getdi, bir də hiss elədik ki, bəzən bizim anlamadığımız qəribə dildə danışır. Qonşudakı bizə gəlib-gedən, yaxın münasibətdə olduğumuz qadın ona qulaq asanda təəccüblə bildirdi ki, bu uşaq hind dilində danışır.

Biz harda yaşamışıqsa, binanın küçə qapısı bağlı olardı, qapının ağzında mülki mühafizəçi dayanardı. Həmin

vaxtlarda mühafizəçi Məhəmməd adında bir ərəb İsmayılla dostlaşmışdı, İsmayıl da onu çox sevirdi, baba deyə-deyə həmişə onun yanında olurdu, o da İsmayılı belinə alıb gəzdirərdi. Aylar keçdikcə İsmayıl Məhəmmədlə ərəb dilində danışmağa başladı.

Həyətdə uşaqların hamısı velosiped sürərdi, Nəvəm isə balaca idi, sürə bilmirdi. Axır ki, İsmayıla da velosiped aldıq, həyətdə arxadan itələyə-itələyə onu öyrətməyə çalışırdım. Əl çəkmirdi, elə hey deyirdi velosisipedi itələ. Ancaq başım fırlanır, yorulurdum, özümü yaxşı hiss etmirdim. Velosipedin qabağına ip bağladım, o biri ucunu da boğazıma. Başladım onu belə gəzdirməyə.

İsmayıl doğma ana dilimizi demək olar ki, unutmuşdu, bir kəlmə belə danışmırdı, ingilis, ərəb, mandarin (çin), dillərində indi də az-çox danışır, yadından çıxmayıb, malay dilini də unutmayıb, az da olsa bilir, hafizəsi hələ uşaq ikən çox güclüydü.

Bir gün bizi təmtaraqlı toya dəvət etdilər, İsmayılı da özümüzlə apardıq. Toy gözəl bir kənddəydi. Oğlumun dostunun qardaşı evlənirdi. Toyda gəlinə yaxınlaşıb ingilis dilində dedi ki, özünü niyə bu hala salmısan, gözünə niyə bu qədər çox, neçə cür rəng çəkmisən? Bunu görənlərdən başa düşən də oldu, düşməyən də. Sonra da həmin cümləni ərəb dilində təkrarladı. Çox utandıq. Onu danladıq, dodaqaltı danışa-danışa bizdən aralandı.

Bir dəfə bizə toyunda iştirak etdiyimiz Soltan qonaq gəlmişdi. Gəlin donuz ətini yuxa-yuxa kəsib beker qızardıb üstünə də yumurta vurmuşdu. Qraham dindar adam-

dı, səhər yeməyi zamanı bilmədən həmin yeməkdən bir tikə yeyib. Gəlinim Afaq (ingilis dili müəllimidir) tez üstümə qaçdı ki, ay bibi, bəs Qraham heç nə demədən, bilməyərək donuz ətindən yedi. Sakit-sakit pıçıldadım ki, ay bala, səsini çıxarma, heç kəsə də heç nə demə, bilsə xəstələnər, ölər, rüsvay olarıq. Xeyli müddət bunu açıb-ağartmadıq.

Doğrudan da İsmayıl həddən artıq qeyri-adi uşaq idi. Oman Sultanlığından Malayziyaya köçdük. Nəvəmi Britaniya məktəbinə qoyduq. Məktəbdə qaçış yarışları keçirilirdi. Yarışda iştirak edən İsmayıl da qaçır, sonra dayanır, yenə qaçır, dayanır. Qışqırdım ki, İsmayıl, qaç, qaç! İsmayıl yarışda qalib oldu, ancaq dayanmaq bilmirdi, zorla tutub saxladıq.

Malayziyada bizim evimiz binanın 14-cü mərtəbəsindəydi. Pəncərədən baxanda qəbiristanlıq görünürdü. Yayda və payızda tez-tez oranın otunu biçirdilər. Heç vaxt heyvanlara da vermirdilər ki, ölmüş insanların ətindən, sümüyündən qidalanıb boy atan otlar heyvanları xəstələndirər. Həmişə bir yerə yığıb yandırardılar.

Qraham zarafatla mənə deyərdi ki, sən öləndə pəncərədən qəbiristanlığa tullayıb orada basdıracağıq. İsmayıl da təəccüblə ona baxardı. Dedim ki, ay İsmayıl, mən öləndə neyləyəcəksən? Tez dilləndi ki, nənə, gedərəm, çiçəkləri dərib qəbrinin üstünə qoyub ağlayaram. Sonra gedib uşaqlarla oynayaram. Yenidən gedib çiçəklər dərərəm, aparıb qəbrinin üstünə qoyub ağlayaram, sonra yenə gedib uşaqlarla oynayaram. Gördüm çox maraqlı söhbət alı-

nır, davam etdim ki, ay İsmayıl, bəs baba ölsə neyləyərsən? Nə desə yaxşıdır? "Çoxlu-çoxlu ağlayaram, yeməyimi yeyib sonra yenə ağlayaram, heç yerə getmərəm, uşaqlarla oynamaram". Dedim, Ay İsmayıl, niyə mənə belə az, babaya isə gecə-gündüz ağlayarsan? Mənə, - ağlına gələni danışma, pulu qazanan babadı, sən pul qazanmırsan, - deyəndə onun uşaq düşüncəsinə mat-məəttəl qaldıq.

Bir gün də babasının şəklini çəkdi, təmtəraqla təqdim etdi ki, baba, bu sənin şəklindi. Tez dilləndim ki, ay İsmayıl, küsdüm səndən, bəs mənim şəklimi niyə çəkmirsən? Üzümə diqqətlə nəzər yetirib cavab verdi ki, sənin şəklini çəkə bilmərəm, sən qarasan, mənimsə qara rəngim azdı. Hamımız güldük.

2002-ci ildə Qraham Əbu-Dabi şəhərindədə işləyirdi. Qızım, həyat yoldaşı və böyük nəvəm Fidan Əbu-Dabiyə gəldilər. Fidan 3-cü yaşındaydı. Çox ağlağan uşaq idi, nə istəsəydi, ağlaya-ağlaya istəyərdi, mütləq onun istəyini etməliydik. Həyat yoldaşım qucağına götürdü ki, sakitləşdirmək üçün üzündən öpsün. Qrahamın üzünə baxıb heç nə demədi, gözlənilmədən üzünü cırdı, o da əlinə xəfifcə vurdu. Daha çox ağlamağa başladı, könlünü aldıq, bir azdan sakitləşdi.

Axşamüstü bir tanışımız həyat yoldaşı və uşaq arabasında körpə uşağı ilə bizə qonaq gəldi. Fidanın çoxlu kuklaları vardı, özüyə də gətirmişdi, mən də almışdım. Qonağın uşağının uşaq arabasını görüb ayaqlarını yerə dirədi ki, mənim kuklalarıma da uşaq arabası almalısınız. Gecə saat 12-di, dilə tutmağa çalışdım ki, nənə qurban, sabah

alacam, indi mağazalar işləmir. Dediyindən döndərmək mümkün deyildi, yatmaq bilmir, elə hey qışqıra-qışqıra ağlayırdı ki, indi almalısınız. Qonaqlar gedəndən sonra evdən çıxdıq ki, gedək Fidanın kuklalarına araba alaq. Şəhəri ələk-vələk elədik, böyük ticarət mərkəzləri bağlı idi, kiçik mağazalarda da uşaq arabaları satılmırdı. Axır ki, səhər saat 7-də onun kuklalarına araba aldıq, gətirdik evə, kuklalarını arabada "yatızdırıb" rahatlandı və özü də yuxuya getdi, axşama kimi yatdı.

Gələndə anası onun yorğanını gətirməmişdi. Fidanın da yatanda qəribə xasiyyəti vardı. Yatanda mütləq yorğanın bir ucunu burub burnuna bir ucunu da qulağına qoyardı. Bizdəki yorğanların uclarını burub qulağına və burnuna qoya bilmədiyindən heç cür yuxuya gedə bilmirdi. Gedib neçə cür yataq dəsti alsaq da, onu razı sala bilmirdik. Nəhayət nazik bir yorğan alandan sonra rahat yatdı.

Çox həssas uşağıydı. Bəlkə də yüzə qədər oyuncağı vardı, ancaq onlardan birini kimsə götürsəydi, mütləq bilirdi ki, oyuncaqların içində hansı yoxdur. Oyuncaqlarını heç kimə verməzdi.

Fidan universiteti, magistraturanı bitirib, beş dildə sərbəst danışır, indi də bankda işləyir.

Qızımın iki qızı və bir oğlu var - böyüyü Fidan, sonra oğlu, daha sonra sonbeşiyi Türkan. Məzuniyyətə çıxıb Bakıya gəlmişdik. Türkan iki yaşındaydı. Möhkəm öskürürdü, xəstəlikdən o qədər arıqlamışdı ki, çəkisi üç kiloqram qalar, qalmazdı. Az qalırdı nəfəsi kəsilsin, gecələr yata bilmirdi. Həkim müalicəsi də artıq kömək eləmirdi. Gürcüs-

tana - Borçalıya gedirdik. Qızıma dedim ki, ay bala, ver bunu özümüzlə dağa aparım, sağaldıb gətirərəm. Elə oldu ki, uşaqların hamısını götürüb getdik. Dəmirli kəndində bir qoca qarı vardı, türkəçarə müalicə edirdi. Apardıq qoca qarının yanına. Qarı dedi ki, başqa çarə yoxdu, eşşək südü olmasa bu uşaq öləcək. Qızımın qaynatası rəhmətlik Allahverdi kişinin 30 kilomer aralı bir kənddə yaxın dostu vardı. Səhər açılar-açılmaz onlara gedir, hal-qəziyyəni danışır. Dostu bildirir ki, eşşək təzə doğub ancaq qoduğu südü əmib. Allahverdi tapşırır ki, eşşəyi qoduğundan aralı saxla, sabah səhər gəlib özüm sağacağam. Səhərisi gedib eşşəyi sağıb iri bir termasda süd gətirdi. İndi fikirləşirəm ki, bəs südü uşağa necə içirdək? Dilimi işə saldım: "boy, bilirsinizmi nə olub? Allahverdi baba səhər-səhər bulağın başında bir ceyran görüb, ceyranı yaralayıb tutub, südünü sağıb sizə gətirib. Əvvəlcə hamısı ağlaşdı ki, bəs baba niyə ceyranı yaralayıb. Tez dilləndim ki, qorxmayın, ceyranı elə-belə yıxıb südünü sağıb, ölməyib, sağ-salamatdır. Qardaşımın, bacımın nəvələri də bizdəydilər. Bunu eşidən kimi süd içmək üstündə 8 nəfər balaca arasında dava başladı. Mən də şərt kəsdim ki, bu süddən birinci Türkan içəcək. Türkana iki stəkan içirtdim, o birilərinə də az-az verdim. Bir azdan Türkan içdiyini qaytardı, tezliklə sağaldı, xeyli kənddə bizimlə qaldı. Sonra Bakıya gəldik, anası qızının sağalmasına çox sevindi...

***

Xarici ölkələrdə yaşamağa başlayandan hər gün gördüklərim, eşitdiklərim müxtəlif hadisələr, gəzməli yerlər, müxtəlif xarakterli insanlar, adət-ənələlər barədə hər gün gündəlik yazırdım. Oman Sultanlığından Avstraliyaya gedəndə yükümüzü bizdən sonra göndərəcəkdilər. Bizim təyyarə havaya qalxandan sonra hava limanının yük saxlama yeri yanıb, bizim də yüklərimiz - paltarlarımız, qızıllarım, göz bəbəyim kimi qoruduğum gündəliyim orada yanıb itə-bata çıxdı. Dəymiş zərəri ödəyən də tapılmadı. Gündəliyimdə qiymətli səfər təəssüratlarım, ölkələr, şəhərlər, mədəniyyət və ticarət mərkəzləri barədə çoxlu informasiyalar vardı. Artıq üstündən 25-30 il keçib, yaddaşım vəfasızlıq etdiyindən çox qiymətli qeydlərimi unutmuşam.

VƏTƏN ÜÇÜN ÖLÜMÜN GÖZÜNƏ DİK BAXARAM...

Vurma namərd başına,
Heyifdi Vətən daşı.

Bir qoca dərviştək gündüz, gecə Yer kürəsinin yarısını ölkə-ölkə, diyar-diyar, şəhər-şəhər gəzsəm də, anladım ki, bir atalar sözümüzdə deyildiyi kimi, Vətənin bir qış günü qürbətin yüz baharından yaxşıdır.

Yaşa dolar,
Gözləri yaşa dolar.
Inanmayın bir qərib,
Sevinər, ya şad olar.

Vətəndədi,
Bilirəm Vətən nədi.
Özüm qürbət diyarda,
Xəyalım Vətəndədi.

Ömür yolumun hər döngəsini, cığırını, enişini, yoxuşunu, dərəsini, təpəsini dönə-dönə göz önündən keçirəndə düşünmüşəm ki, bu yolu hədər getməmişəm, yaradanın mənə bəxş etdiyi ömrü mənalı keçirmişəm. Yaşamaq, yaratmaq, əl tutmaq ömür amalım olub. Ailə, ocaq, köz aşiqi olmuşam. Övladlarımı milli ruhda yüksək mənəvi dəyərlərin daşıyıcıları kimi böyütməyə çalışmışam. Həmişə dü-

şünmüşəm ki, şad günlərimdə də, kədərli anlarımda da ümid, güman yerim Vətənim və vətənsevər insanlardır. Onlarsız yaşamağı ağlıma gətirməmişəm. Vətən, torpaq, millət sevgisi, torpağı lal, insanları insanlığın xası, hətta daşı düşmənə göz dağı Azərbaycanım, gözüm, nəfəsim, ümid yolum, havası həkim, suları dərman Borçalım, ulu Türk-Turan ellərinin əzəmətli dağları, gül-çiçəkli dərələri, saz-söz yığnaqları, saz havaları, azman aşıqlar, dastanlar, şərəfli tariximiz, milli kökümüz, kimliyimiz və ruhumuz, milli mənəvi dəyərlərimiz məni Səringül Sadə edib, iç dünyamı, sözə vurğunluğumu, təbimi cilalayıb.

Məni anlayanlar üçün canımdan keçməyə hazır olmuşam, ağsaqqalın, ağbirçəyin, aqil insanların məsləhətlərini, öyüd-nəsihətlərini ömür yolumun işığı kimi dəyərləndirmişəm. Harda oluramsa olum, müxtəlif əhval-ruhiyyəmə - sevincimə, qəmimə məlhəm ana dilimizin vurğunu olmuşam. Onun şəhdi-şəkərindən doymamışam...

Hər zaman pərvərdigardan bircə təvəqqem olub - daşa döndər məni, tamaha qul olunca...

Harada, hansı əhvalda olsam, Vətən deyib, Vətən andım...

Çatılsa Vətən qaşı,
Tökərəm qanlı yaşı.
Ölüb-itən biz olaq,
Sağ olsun Vətən başı!

EŞQ - HƏYATIN ÖZÜDÜ

Yer-göyə yetər eşqim,
Səp yerə, bitər eşqim.

Mənim ruhuma təravət, qida verən əzizlərim, sizə nələr arzulayıram?

1. Hər bir Vətən övladının Vətən eşqi, sevgisi, yaşamaq, yaratmaq, qurmaq enerjisi bir ömür boyu tükənməsin. Dahilərin dünyanın əşrəfi sandığı insan ilahi eşqdən yaranıb. İnsanı şüurlu varlığa çevirən, nəcibləşdirən, kamilləşdirən də eşqdir, sevgidir. "Bir parça sümükdür sevgisiz insan", - deyirdi Səməd Vurğun.

2. Vətənimizin göylərini qara buludlar almasın, Vətən torpaqlarına mənfur düşmənin quduz caynağı toxunmasın. Vətənimizin maddi və mənəvi sərvətlərinə yad nəfəsin dəyməsinə imkan verməyək. Unutmayaq ki, Vətən Anadır, Ana da Vətən. Vətən gülzara dönər, toxunmasa yad əli! Bilək ki, Türkün şanlı dövləti bu gün, sabah Turandı.

3. Ailə ocağımızın közü, istisi səngiməsin, sevənlər birbirindən ayrılmasın.

4. Vətənimizi, dünyamızı saf duyğularımız, əməllərimizlə gözəlləşdirək, tanıdaq. Eşqdən doğulan, Haqqın, Ana Vətənin yolunda can verməyə hazır olan, nahaqqa göz açmağa imkan verməyən oğullar yetişdirək. Bütöv Vətən arzumuz çin olsun. Analar, atalar, övladlarımızı "oğul, ərənlərdən ol, Haqqı görənlərdən ol, torpaq kimi

bir dənə, min dən verənlərdən ol" öyüd-nəsihəti ilə böyüdək, dünyamızın, insanlığın, gələcəyimizin xilaskarları çağdaş dövrdə yetişdirdiyimiz mənəvi zəngin nəsillər olacaq.

5. Rastlaşdığımız qəmdən, itkilərdən heç vaxt üzülməyək, ruhdan düşməyək, mübariz olaq. Mübariz, cəsarətli, qorxmaz olmaq qələbənin rəhnidir.

6. Heç vaxt ahıllaşmaqdan, qocalmaqdan qorxmamışam. Çünki dünyanı görə-görə, yaxşını pisdən seçə-seçə, xeyirxahlıq, mərhəmət göstərə-göstərə yaşayıb ömrün bir mərhələsinə çatan insan anlayır ki, pirani yaşa çatmaq, Blez Paskal demişkən, yaşamağın yeganə üsuludur. Bir də, heç vaxt ölümdən qorxmamışam. Niyə? Bir müdrikin bu deyiminin sərrastlığına inanmışam: "Ölümdən qorxma, yalnız ölüyə ölüm yoxdur"...

Bir daha təkrar edirəm, eşqiniz tükənməsin!

Eşq yaşamdı, bir dünyadı,
Eşqsiz həyat boşdu, bilin.
Bir ürəkdə o yoxdursa,
Həmən ürək daşdı, bilin.

Eşq səhraya döndərər,
Bir uçuq qara damı...
Eşq insanlıq barıdı,
Aydan, gündən arıdı.
Eşqdir qəlbə iz salan,
Eşqsiz dünya boş, yalan.

Sadə eşqin nökəri,
Sönməsin eşq ülkəri!

Özümü anlayandan, müstəqil insan kimi həyata ilk addımlarımı atandan eşq nədir sualına cavab axtarmışam. Eşqi olmayan ürəyin hər fəsli qışdı. Belə qənaətə gəlmişəm ki:

Mən eşqdən yaranmışam, yoğrulub eşqlə canım,
Göy buludlar üzündə görünür söz məkanım.

Eşq bağının gülüyəm, süsəni, sünbülüyəm,
Diilm eşqin dilidi, oxuyan bülbülüyəm.

Eşq inamdı, ilhamdı, o, həkimdi, loğmandı,
Zərif büllur şüşədi, toxunmayın amandı.

Eşq haqqın qapısıdı, həm dirilik suyudu,
Eşqsiz bu dünyamız da qaranlıq bir quyudu.

Sadənin gözlərində eşqsiz heçdi bu həyat,
Saf eşqdən, sevgidən qüvvət alır kainat!

Eşq dünyanın dayağı, səadətin çırağı,
Eşq cənnətin elçisi, eşq düzlüyün sorağı.

NƏSİB ABİD LİRİK DÜNYAMI NECƏ GÖRÜR?

Poeziyanın dərin qatlarından yeni fikir, söz incisi axtaran və tapanda onu özünün ədəbi düşüncələrinə çevirib səxavətlə paylaşan filoloq Nəsib Abid tez-tez şeirimin, bayatılarımın iç dünyasına çox mükəmməl səyahət edir, oradan tapdıqları, üzə çıxartdıqları ilə məni mənə və oxuculara tanıdır, qarşımda yeni yaradıcılıq üfüqləri açır, ən ümdəsi özümə güvən yaradır. Bu, sözümə dəyərdi. Mən çoxları kimi tərifi xoşlayanlardan deyiləm. Bəlkə də Nəsib müəllim mənim yaradıclığıma olduğundan çox dəyər verir. Nə demək olar, Nəsib müəllimin məni belə təqdim etməsi məsuliyyətimi artırır ki, bunu anlayıb könül duyğularıma daha ciddi yanaşım. Yaradıcılığıma diqqət, oxucuların rəyi, mənim üçün çox maraqlıdır. Əslində, oxucusuz söz adamı sudan çıxarılmış, nəfəs ala bilməyən balıq kimidir. Oxucu sözü hər bir söz adamının oksigen mənbəyidir, yaratmaq eşqidi. Eşq də həyatın mənasıdır.

Nəsib Abidin poetik dünyama səyahətindən yaranan ədəbi düşüncələri, təxəyyül süzgəcindən süzülən fikirlər gələcək yaradıcılığım üçün yeni enerji mənbəyidir, uğura yoldur. Birinci yazının sonunda həssas oxucularımın, sözümün yolunu gözləyənlərin, uğuruma sevinənlərin yığcam şərhlərini də bu səbəbdən kitaba daxil etdim.

NƏSİB ABİD

Sözü deyə bilmək, hünərdir.
Sözü deyə bilmək, cəsarətdir.
Sözü deyə bilmək, mərdanəlikdir.

Hünər insanın ən ali xarakterinin əməli fəaliyyətini göstərir.

Cəsarət, insan ruhunun həyati istəyini doğrulayır.

Mərdanəlik, insanın fədakarlığından doğan arzuların həyat gücündən yaranır.

Səringül Sadənin "Söz deyərəm" əsərində, insanın həyat düşüncəsininin monoloji tərcihi öz əksini tapıb...

Söz deyərəm:
- Sözlərimi alana.
Söz deyərəm:
- Qulağında qalana!
Söz deyərəm:
- Utanaram, düz olmaz.
Söz deyərəm:
- Sözüm üstə söz olmaz!..
Söz deyərəm:
- Şeytan məni qandırar.
Söz deyərəm:
- Öz canımı yandırar!..

Söz - yaradanın insana bəxş etdiyi lütfdür.
Söz - haqdan insana verilən üstün bəşəri üstünlükdür.

Söz - insan ruhunun həyati kimliyidir.

Lütfün həyati kəşfindən, insan ruhunun həyata şüurlu münasibəti doğur.

Bəşəri üstünlük kimi sözün zəka işığında ülviyyəti insanı bəşəri varlıq kimi fərqləndirir.

Həyati düşüncənin hikməti sözün gücü ilə özünü təsdiqləyir.

Səringül Sadənin lirikasının həyati psixolojisi öz həyat ruhu ilə könüllərə ruh verir.

Söz deyərəm:
- Sağalmayan iz qalar.
Söz deyərəm:
- Qayıtmağa üz qalar!
Söz deyərəm:
- Haqqa dönüb, şər boğar.
Söz deyərəm:
- Camalına nur doğar!..
Söz deyərəm:
- Yeddi qatından keçər.
Söz deyərəm:
- Candan qüssə-qəm köçər!..

Söz - fikrin həyat açarıdır.

Söz - qəlbin ruhi dərinliyindəki sevginin gücüdür.

Söz - insan zəkasının işığıdır.

Həyat açarı kimi, sozlə insan öz düşüncəsininin ardınca gedir.

İnsanın həyati mövqeyinin sublimasiyasını soz hərəkətə gətirir.

Biliyin həyata şüurlu tətbiqi sözün inanılası hikməti ilə bəlli olur.

Səringül Sadənin lirikasında həyatın analizi düşüncənin monoqrafik məntiqi ruhu ilə açılır.

Söz deyərəm:
- Cin toxunar, hal vurar.
Söz deyərəm:
- Dil-dil ötən lal olar!..
Söz deyərım:
- Yara üstə duz olar.
Söz deyərəm:
- Xəstəyə qar, buz olar!..
Söz deyərəm:
- Nadan kəsə gülüncdü.
Söz deyərəm :
- Yalın ələ qılıncdı!

Söz - insan könlünün meyvəsidir.

Söz - insan ruhunun həyat ağacıdır.

Söz - insan zəkasının bəhrəsidir.

Könül meyvəsi kimi, gözəl sözün ətri-rayihəsi var.

Həyat ağacı kimi, hər bir sozün işlənmə məqamı - yeri var.

Zəkanın bəhrəsi kimi sözlə insan öz insanlığını göstərir.

Söz deyərəm:
- Könül alar, ev qurar.
Söz deyərəm:
- Sadə gedər, söz durar!

.

Lirik şeirlərin həyat motivi insan hisslərinin həyat ruhunu ifadə etməkdir.

Həyat üzünü açığa çıxardan da sözün lakonikliyi və düşüncə gözəlliyinin ifadəsidir.

Düşüncənin sözlə yaradılan həyat tablosu insan obrazının kimliyini müəyyənləşdirir.

Səringül Sadənin lirikasında həyatın sillabik məntiqininin həyat sorğusu var.

Şairənin lirikasının həyatla həyati-ruhi dialoqu öz həyati duyumu ilə oxucunu öyrənməyə yönəldir.

7 noyabr 2024-cü il

BİR ŞEİR HAQQINDA YAZIYA OXUCU RƏYLƏRİ

Mirnəzər Mirkazımlı:

- Əlbəttə, müqəddəs söz, boyu üstündə.

Vidadi Orucov:

- "Kim desə ki, söz qocalır, söz ölür, yalan sözdü, yalan sözdü, yalan söz..." (Zəlimxan Yaqub). Sözə zərgər dəqiqliyi ilə dəyər verməyi bacaran Nəsib Abidə salamlar olsun! Dəyər verənin öz dəyəri böyük olanda, əsəri də, dəyəri də böyük olur. M.Füzuli demişkən, "kim nə miqdar olsa, əhlin eylər ol miqdarı söz".

Lətafət Cabbarlı:

- Nəsib Abidin söz haqqında yazılmış bu gözəl, geniş və mənalı təqdimatını oxuyanda Füzulinin "Söz" rədifli qəzəlini xatırladım. Söz haqqında çox yazılıb Füzilidən üzü bəri. Uğurlularından bir də "Söz deyərəm" şeiridir.

Əflatun Hüseynoğlu:

- Səringül Sadə öz dəst-xətti ilə bu günkü poeziya aləmində seçilən incə şairlərdəndi. Nəsib müəllim bu incəliyi çox gözəl işıqlandırıb.

Vaqif Osmanlı:

- İnsanın ən böyük kəşfi sözdür. Söz həm yaradandı, həm də dağıdan. Söz dost da qazandırır, düşmən də. Söz insanın həm sığallayan, həm də vuran əlidir. Söz sahibinin başını uca da edər, aşağı da. Sözlə insanı yaşatmaq da olar, başını kəsmək də. Səringül Sadənin söz mülkü yaşadandı, lazım gələndə başkəsəndi. Onun sözündə orta

hədd, orta məxrəc yoxdur. Mənim düşüncəmə görə, Nəsib Abid bunu demək istəyir və doğru deyir.

Ağasəf İmran:

- Nəsib Abidin bu təqdimatı (şeir haqqında düşüncələri) və şeirin özü söz haqqında dastana bərabərdir. İnsanın sözü - onun özüdür! "Kimin kim olmağı onun sözündən bilinər" (atalar sözü).

Züleyxa Əziz:

- "Söz deyərəm, yeddi qatından keçər!" - deyən özbəöz bacımın cəsarət və hünər dolu xarakterinə əhsən deyirəm.

Məmməd Mərzili:

- Gözəl araşdırmadı, sözə dəyərdi. Söz yerində deyiləndə gözəldi. Səringül xanımın şeirləri ona görə oxucunu özünə cəlb edir ki, sözü yerində işlədir. Söz özündən əvvəl və sonra gələn sözlərlə həmahəng olub bir-birini tamamlayır.

Minarə İsgəndər:

- Nə gözəl bir xanımın şeirindən söz açdınız, Nəsib müəllim. Səringül xanımın bu şeirini və nə qədər gözəl, dəyərli bayatılarını öz dilindən eşitmək bu yaxında mənə qismət oldu. Çox sevdim bu xanımın yaradıcılığını, həm də özünü.

***

Sözün ruhu həyatın tarazlığını saxlayırsa, insanın həyata baxışını dəyişdirir.

Həyati düşüncənin hikməti sözün gücü ilə həyatı incəliyinə qədər izah edir...

Həyat sevgisi ilə yola çıxan insanın könül dünyasının aynasında həyat həqiqətlərinin uzlaşısı yaranır.

Səringül Sadənin lirikasının həyat üfüqləri daim insanın könül dünyasını sehirləyir.

Şairənin lirikasının həyat ruhunda insan ruhunun həyati qayğılarının çözümü var...

Vətənsiz yanar canı,
Qaralar, tez-tez qanı.
Çəkilməz adı-sanı,
Qürbətdə qalan kəsin!

Məqsədə çata bilməz,
Dərdini, ata bilməz.
"Yanğı"sı, yata bilməz,
Qürbətdə qalan kəsin!

Həyati düşüncənin psixoloji halı insan həyatını dəyişikliyə uğradır.

Həyati dəyişkənliyin ictimai xarakteri öz təbiiliyi ilə həyatın sirlərinə bələd edir insanı.

İnsan ruhunun dirilik anlayışı onun fitrətinə bağlıdır.

Səringül Sadənin lirikasının həyat məntiqi həyati düşüncənin hikmətini üzə çıxardır.

Çoxuna yemək oldum,
Bal dolu, pətək kimi..
Ələdim neçəsini,
Sonunda, ələk kimi..

Ağız açdı, əyri, düz,
Çoxları çevirdi üz.
İzlədim gecə-gündüz,
Ney kimi, tütək kimi.

Ana sevgisi kimi izah ediləcək bir sevgi həyatda həmişə güclü olur.

Ana sevgisi kimi gözəl ruhun həyat təravəti belə insanı kövrəldir.

Ana sevgisi kimi ülviliyi olan, könül bağını sehirləyən sevgi duyğusu yoxdur.

İzahı olmayan ruh sevgisi Ana sevgisidir.

Həyat təravəti olan kövrəldici sevgi ana sevgisidir.

Könül bağını sehirləyən sevgi, yenə də ana sevgisidir.

Səringül Sadənin lirikasında ana sevgisinin həyati ülviliyi öz təbiiliyi ilə seçilir.

Ey mənim ümidim, arzum, diləyim,
Ey mənim Göylərdən enən mələyim!
Ey mənim çəmənim, gülüm-çiçəyim,
Dövlətim, sərvətim, sultanım Ana!

Susuz səhra görsə, yağışa dönən,
Hər insan ömründə naxışa dönən,
Sevən könüllərdə baxışa dönən,
Gözümün işığı, qəlb-canım Ana!

Soz qəlbin ruhi açarıdır.

Ruhi düçüncənin həyat hikməti sözdədir.

Könül duyğularını dilə gətirən sözdür.

Fikrin həyati rəngarəngliyi sozlə meydana gəlir

Söz meydanı insan ruhunun qeyri-adiliyini aşkarlayır.

Qələm yatan sozün işlənmə məqamı, yeri insan hisslərinin dolğunluğunu əks etdirir.

Səringül Sadənin lirikasının həyatla bağlantısı həyatın enişli-yoxuşlu yollarının patoloji halı ilə qarşı-qarşıyadır daim.

Gəl, sənə bir söz deyim,
Qulağını bəri tut!
Üz-gözündə gül açsın,
Dərdi-qəmi sən unut!

Gəl, sənə bur söz deyim,
Yazda yağan yağıştək.
Bir sevgidən danışım,
Onu dinlə alqıştək!

Söz demək insandan hünər istəyir.

Söz demək insandan cəsarət istəyir.

Söz demək insandan cürət istəyir.

Hünərli söz deməklə insan insanın qəbahətlərini aşkara çıxarır.

Cəsarətli söz deməklə insan öz kimliyini müəyyənləşdirir.

Cürətli söz deyənin şəxsiyyəti təsdiq olunur.

Səringül Sadənin lirikasının həyati məntiqi həyatın dəyərini ortaya qoyur.

Söz deyərəm:
- Sözlərimi alana!
Söz deyərəm:
- Qulağında qalana!

Söz deyərəm:
- Utanaram, düz olmaz!
Söz deyərəm:
- Sözüm üstə söz olmaz!

Həyat insanının arzularına güzgü tutmaqla, insanın mənəvi duyğularının həyati canlılığını yaradır.

Həyati düşüncənin psixoloji halının təyini insanın könül dünyasının həyat bağlantısını realizə edir.

Insanın özünə inamı onun həyat kimliyinin sözünü deməyə imkan verir.

Səringül Sadənin lirikasında insanın özünüdərki realist həyat ruhunu ifadə edir.

Aşıq mənəm, ozan mənəm,
Dərdi-səri yazan mənəm.
Fələk çalan havalara,
Sındıran mən, süzən mənəm!

Xeyri, şəri, qanan mənəm,
Oda-közə yanan mənəm.
Dağda, daşda gül axtarma,
Bağçada gül, reyhan mənəm!

Dünya həyatı insan ruhunun yaşadığı reallıqdır.

Həyat reallığının dərki insanın qurub-yaratmağa sövq edir.

İnsan bəşəri bir varlıq kimi ağlı və kamalı ilə özünün iradi gücünü göstərir.

Ruhun həyat reallığından yaranan narahatçılıq insanı doğru yola yönəldir.

Qurub-yaratmağın həyat üstünlüyü insan ruhunun həyati qayğılarının həll edir.

Səringül Sadənin lirikasının həyati-fəlsəfi anlamı insan hisslərinin həyat ruhunun həyati istəyini doğrulayır.

İmanı var, inamı var,
Yaxşısı var, yamanı var,
Doğrusu var, yalanı var,
Bu dünyanın, bu dünyanın.

Rəncbəri var, ağası var,
Toy-nişanı, qəm-yası var.
Qalmaqallı qovğası var,
Bu dünyanın, bu dünyanın.

Hərəyə bir köynək biçir,
Nə fərq qoyur, nə də seçir.
Körpüsündən hamı keçir,
Bu dünyanın, bu dünyanın.

Poetik eyforiya həyati duyğuların acısının, şirininin həyat ruhunu yüksəldir.

Həyati hisslərin harmoniyası özünün söz ahəngi ilə ruhun cazibə qüvvəsini həyata bağlayır.

Həyat sevgisi ilə yazılan şerlərin ruhu daim insan düşüncəsinin aydınlığı ilə həyatı incəliyinə qədər izah edir.

Səringül Sadənin lirikasının həyatla həyati-ruhi dialoqu daim insanın mənəvi aləmini tənzimləyir.

Şairənin poeziyasının həyat dolğunluğu həyatın hikmətinə yol açır...

21 noyabr 2024-cü il

***

İthaf şeirləri sevgi duyğusu ilə yazılan əsərlərə deyilir.

Ithaf əsərlərində insanın könül sevgisinin aurasına baxış var.

Ithaf əsərlərinin ruhunda insan hisslərinin həyat dolğunluğu özünə yer tutur.

Qulu Ismayılovun (Xaləddinoğlu) lirikasının həyati psixolojisi öz təbiiliyi ilə seçilir. Şairin poeziyasının həyat ruhunda qəlbin ruhi dərinliyindəki sevginin gücü özünə yer tapır daim.

Gözəl məhəbbət şairəsi Səringül Sadəyə ithaf olunmuş mükəmməl duyğuların həyat vəhdətində sevginin könül körpüsü özünü təsdiqləyir.

Özün də sadəsən, adın da Sadə,
Adın insanlığa nazdı, Səringül!
Şəninə nə qədər, xoş sözlər desək, -
İnan ki, yenə də azdı, Səringül!

Hörmətli olmaq insanın mənəvi dünyasının ruhi-psixoloji halından yaranır.

İnsanın özünə qayıdışı insanlığın yaranışına qayıdışıdır.

Həyat ruhunu könüllərə daşıyan duyğuların seçimi insan hisslərinin həyat ruhunu yaradır.

İnsanın psixikası öz təbiiliyi ilə həyatın sirlərinə vaqif edir insanı.

Həyatın ritmi ilə həyatın rəngini dəyişən ruhi-psixoloji aləmin həyati dəyişkənliyi insanın mənəvi dünyasının zənginliyini ortaya qoyur.

Qulu Xaləddinoğlunun lirikasının sosioloji parametrləri insan ruhunun həyati qayğılarının çözümünü küncəlləyir.

Özün qazanmısan hörməti, düzdü,
Duyan ürəklərdə qoyduğun izdi.
Əzəldən sevgilin söhbətdi, sözdü,
Bir də, çox sevdiyin sazdı, Səringül!

Qəlbin həyat aynası insan könlüdür.

Könül evinin həyat açarı insanın fikir duyğusallığının həyat ruhudur.

Həyat ruhunun sağlamlığı insanın məhəbbətinin həyatiliyindən asılıdır.

Qulu Xaləddinoğlunun lirikasının həyat məntiqi insanın ruhi-psixoloji duyumu ilə meydana gələn duyğuların enerjisini özündə daşıyır.

Nahaqdan bir qəlbi qıran olsa da,
Dostlarla aranı vuran olsa da,

Kimlərin könlündə boran olsa da,
Hey sənin qəlbində yazdı, Səringül!

Könül bağçası ruhun həyat düyünlərini açmağa yönəldir insanı.

Ruhu ilə könüllərə mehman olan lirika daim həyatın dəyərini idrak etdirir insana.

İnsan hisslərinin doğmalığından yaranan əsərlərdə qəlbin ruhi görünümü var.

Qulu Xaləddinoğlunun lirikasının həyat tablosu insan obrazının kimliyini müəyyənləşdirir.

Şairin poeziyasının özünəməxsus ruhi-psixoloji motivi insanlığa olan hüsn-rəğbətin həyat sevgisini etiraf etdirir.

2 dekabr 2024-cü il

***

Ömür karvanı zamanın həyat karvanıdır.

Həyat karvanının sahibi isə əlahəzrət zamandır.

Zamanın nisbiliyi ilə əbədiliyi daim vəhdətdədir.

İnsanoğlunun həyat obrazı həm anatomik, həm mənəvi duyarlılığı olan, həm də əbədiyyətə gedən yolun işığında müəyyən mənada xatirəsi yad olunan mükəmməl bir varlıqdır.

İnsanoğlunun ruhunda həm əbədilik, həm fə fanilik obrazı var.

Əbədilik obrazı insanın yaradıcı əməyinin bəhrəsini ortaya qoymaqla öz həyat ruhunu yaradır.

Fanilik isə keçici həyat gündəmi ilə seçilir.

Səringül Sadənin lirikasının həyat səmimiliyini aydına çıxaran şairin şeirlərindəki ruhun həyat zamanlamasındadır.

Bir insanın həyat obrazını yaratmaq, bir insanın həyat obrazının inşasına bərabərdir.

Şairənin bu əsəri - Azərbaycan Milli Elmlər Akademiyasının baş elmi işçisi, Sumqayıt Dövlət Universitetinin professoru, həyatının son baharında - 27 iyun 2021-ci ildə, pandemiya dövrünün acılı günlərində həyata 63 yaşında vida edən Mustafayev Məhəmmədəli Bayram oğluna həsr olunmuş gözəl bir ithaf əsəridir.

Gənclikdən tutmuşdu elmin yolunu,
Nura qərq etmişdi o, sağ-solunu.
Təhsilə açmışdı, bilin, qolunu,
Əziz dayım oğlu Məhəmmədəli!

İnsanın ruhi-psixoloji duyumu onun həyat fitrətinə bağlıdır.

Həyat fitrətinə uyğun olaraq insanın öz kimliyini, şəxsiyyətini ortaya qoyur.

İnsanın psixikası olduqca dəyişkəndir.

Həyati qazanımların nəticəsi olaraq, insanın özünə olan həyati-ruhi münasibəti onun həyat düsturunu realizə edir.

Səringül Sadənin lirikasında insan hisslərinin həyat ruhunun sağlamlığı özünü bəlli edir.

Şair təbiətli bir insan idi,
Böyüklərə qarşı mehriban idi.
Sevirdi şəhidi, qazi igidi,
Əziz dayım oğlu Məhəmmədəli!

Həyatdakı roluna görə insan öz ruhunun dirilik aynasını inşa edir.

Həyatın qəlibi insanın ömrünün fəsillərini yaradır.

Ömrün fəsillərinin həyat cazibəsində həyatın hikməti var.

Ruhun diriliyi insan əməyinin ortaya qoyduğu əməllərlə üzə çıxır.

Ömrün fəsillərinin həyat işığı insanı düşünməyə və yaratmağa sövq edir.

Həyat həqiqətlərinin dünyabaxışının nəticəsini müəyyən edən həyat hikmətinin kəşfidir.

Səringül Sadənin lirikasının həyati dərinliyindəki hikmətinin sirri insanlığın həyat dərdlərinin metaforasını bəlli edir.

Nəsib Abid dostu çəkir acını,
Deyir: - tez itirdim başım tacını.
Ağlatdı elini, qardaş-bacını,
Əziz dayım oğlu Məhəmmədəli!

İnsanın arzu və istəklərinin vəhdətini doğrulayan onun əməlləridir.

İstər alim ol, istərsə şair, istər rəssam ol, istərsə memar, insanlığın dəyərini idrak etdirməyə yönəltməlisən insanlığı.

İnsanlığın ədalətli rəftarından yaranan səmimiyyət həmişə insanı bəşəri varlıq kimi fərqləndirir.

Həyati səmimiyyətin ortaya qatılması, insanın mənəvi aləminin gözəlliyini əks etdirir.

Səringül Sadənin lirikasında insan əxlaqının və ruhunun həyati qayğılarının çözümü var.

Səringül Sadəyəm, o, dil əzbəri,
İşində-gücündə çaldı zəfəri.
Yazdı neçə-neçə elmi əsəri,
Əziz dayım oğlu Məhəmmədəli!

Qədirbilənlik varsa, həyatın dəyəri var.

Həyat sevgisi ilə könüllərə mehman olmaq varsa, həyati düşünərlik var.

Qəlbin həyat atəşindən varsa, insanllğın həyat xəzinədir olan həyati-ruhi münasibətlərin dolğunluğu var.

Səringül Sadənin poeziyasının özünəməxsus ruhi-psixoloji motivləri insanlığa olan hüsn-rəğbətin qayəsini təyin edir.

Şairənin lirikasının həyat ruhunda insan hisslərinin həyat ülviliyinin canlılığı yaşayır.

P.S.

Məhəmmədəli Mustafayev filologiya elmləri doktoru kimi sağlığında böyük elmi işlərə imza atmışdır. Professor kimi elmin zirvəsində, adi bir insan kimi insanlığın zirvəsində dayanırdı. Mərhum alim dostumla ömrünüzün 4 ili bir yerdə keçmişdi. Sona qədər də dostluğumuz etibarlı şəkildə davam etdi. Ölümündən sonra işıq üzü görən, "Ədəbiyyat nəzəiyyəsi" adlı monumental əsəri Azərbaycan ədəbiyyatşünaslıq elminə bir töhfədir.

18 dekabr 2024-cü il

***

Ədəbi üslub hər bir şairin yaradıcılıq üslubu kimi onun könül duyğularının ahəngini fərqləndirir.

Ədəbi üslub şeirin həyat ruhunu könüllərə daşıyır.

Ədəbi üslub həyatın rəngini duyurur insanlara.

Səringül Sadənin lirikasının, ədəbi üslubunun həyat dəyəri məlum olan könül dünyasının aynasında öz əksini məharətlə tapır.

Baxış var ki, cəhənnəmi andırar,
Baxış var ki, ümid şamı yandırar.

Baxış var ki, mənasızdı - qurudu,
Baxış var ki, axar sutək durudu.

Əsl şeir ruhun həyat düyünlərini açmağa yönəldir insanı.
Əsl şeir qəlbin həyat durumunu yüksəklərə qaldırır.
Əsl şeir könül duyğularının həyat ahəngini üzə çıxardır.

Səringül Sadənin lirikasının həyati psixolojisi daim insanın daxili dünyasının iztirablarını kökündən dəyişdirir.

Baxış var ki, su yerinə qan tökər,
Baxış var ki, yağı-cəllad diz çökər,

Baxış var ki, qəfil ürək durdurar,
Baxış var ki, qəlbə körpü qurdurar!

İnsan hiss və duyğuları ilə özünün daxili hisslərini bəlli edir.

İnsanın psixikası öz həyat düşüncəsini bəzən emosional olaraq insana ötürə bilir.

Emosiyanın xarici olaraq bədən dili ilə ifadəliliyi həyati düşüncənin psixoloji halını yaradır.

Səringül Sadənin lirikasının həyati psixolojisi öz rəngarəng çalarları ilə könüllərə daşıyır həyat sirlərini.

Baxış var ki, üzümüzü güldürər,
Baxış var ki, ümid, inam öldürər.

Baxış var ki, həddən çoxdu cəfası,
Baxış var ki, min bir dərdin davası.

İnsan ruhunun dirilik anlayışında həyat həqiqətlərinin tablosu öz təbiiliyini insanın üzündə tapır.

İnsanın üzü onun qəlbinin həyat aynasıdır.

Bəzən insanların fərqliliyini yaradan onun həyata baxan üzüdür.

Səringül Sadənin lirikasında, insan hisslərinin doğmalığından yaranan duyğuların vəhdətini görürük.

Baxış var ki, sanki şeytan yoludu,
Baxış var ki, sevinc, kədər doludu.

Baxış var ki, acı yellər əsdirər,
Baxış var ki, dava-şava kəsdirər.

Baxışın həyati-psixoloji dəyişkənliyi insanı bir-birinə tanıdır.

Baxışın insanın düşüncəsini aydınlığa qovuşdurması insanın könül körpüsünün qurulmasına yol açır.

Baxışın insan vücuduna təması insanın ünsiyyətinin sağlam davranışını yaradır.

Səringül Sadənin lirikasında olan həyati-ruhi münasibətin qarşılığı insanın istəklərinin qayəsini çözməyə imkan verir.

Baxış var ki, hamı ondan dad edir,
Baxış var ki, könülləri şad edir.

Sadə qəlbi həqiqətin aynası,
Hər bir baxış baxanın iç dünyası.

Şeirin həyat ruhunda insan ruhunun diriliyi varsa, o şeirin həyat qayəsi də insan düçüncəsinə hakim kəsilir.

Həyatın hikmətini üzə çıxaran şeirlərin ruhi-fəlsəfi anlamı daim insanın psixikasının həyat ruhuna rəng qatır.

Həyat ruhunun sağlamlığı insanın mənəvi dünyasının ruhi həyat motivlərini üzə çıxarır.

Səringül Sadənin poeziyasının özünəməxsus ədəbi-üslubi xüsusiyyətləri, öz təbiiliyi ilə həyatın sirlərinə vaqif edir oxucunu.

Şairənin lirikasının həyatla dərin bağlantısı, həyatın enişli-yoxuşlu yollarının patoloji halı ilə müşahidə olunur.

22 dekabr 2024-cü il

***

Sözün həyat ruhu insanın həyat ruhundan yaranır.

Həyat ruhunun sağlamlığı insanın düşüncəsini aydınlığa çıxardır.

Aydın düşüncənin hikməti insanın mənəvi-əxlaqi dəyanətini özündə barındırır.

Gözəl Şairə Səringül Sadənin söz dünyası insanlığın dəyərini anlamaqdan ibarətdir.

Şairənin poeziyasının məntiqi həyati düşüncəsinin hikmətini idrak etmək, olduqca mükəmməl duyğuların həyat vəhdətinin saflığı ilə seçilir.

Söz - Allahın hikməti,
Dünyamızın sərvəti.
Söz sahilsiz dəryadı,
Tükənməzdir neməti.

Söz alıbdır bəzəyi
Göydə ulduzdan, Aydan.
Sözlə gözəlləşibdir,
Başdan-başa bu cahan.

Sözün həyat dəyəri, insan arzularının məramını, məqsədini ifadə edir.

İnsanın dünyaya baxışı, sözün inanılası hikməti ilə bəlli olur.

Sözə olan hüsn-rəğbətin qayəsi həmişə insanın mənəvi aləmini yerindən oynadır.

Səringül Sadənin söz dünyası öz həyati duyumu və düçüncə gözəlliyi ilə diqqəti cəlb edir.

Söz ağrıdar başını,
Pozulanda nizamı.
Cilalayıb hər sözü,
Ulu şair Nizami.

Söz ağrıdar başını,
Bağlanmasa inama.
Əzəldən düşmən olub,
Şər-böhtana, talana.

Sözün həyat yeri, fikir və düşüncənin inanılası həyat məntiqini yansıtmasındadır.

Hər Sözün həyat kəsəri fikrin həyat açarının varlığını təsdiq edir. Həyati hikmətin sirri sözün təsir qüvvəsinə malikdir.

Səringül Sadənin lirikasında sözün həyati gücü öz təbiiliyi ilə həyatın sirlərinə vaqif edir insanı.

Söz ağrıdar başını,
Yerli-yerində söylə.
Sözə yol verənlərə,
Çalış yaxşılıq eylə.

Söz ağrıdar başını,
Bil onun qüdrətini.
Aqillərdən dərs alıb,
Öyrən sən hikmətini.

Sözün düzü insanın əxlaqi-mənəvi bütövlüyünün həyat həqiqətlərini aydına çıxarır.

Həyat həqiqətlərinin uzlaşısı insanın mənəvi aləminin həyati sıxıntılarını aradan qaldırır.

Həyat sevgisi ilə kainatın gözəlliklərini duymaq mümkündür.

Səringül Sadənin lirikasında həyat ruhu ilə sağlam düşüncənin həyati sorğulanması öz həyat əksini tapır.

Doğru-düzgün, yaxşı söz,
Yamanlıqdan qaçandı.

Nahaqqa qənim olub,
Haqqa qapı açandı.

Sadə can qurban eylər,
Sözdən körpü salana.
Hamı "afərin!" - deyir,
Sözü yadda qalana.

Fikir zənginliyini yaradan insanın əxlaqi-mənəvi bütövlüyünün həyat ruhudur.

Həyati ruhun qaynağı insanın mənəvi dünyasının ruhi-psixoloji yetkinliyinə bağlıdır.

Ruhun emosional tərzi onun həyat fitrətinə uyğun əməllərinin vəhdətini doğrulayır.

Səringül Sadənin söz dünyasının həyat işığında düşüncənin kamilliyiini duyur oxucu.

Düşüncənin psixoloji halının dəyişimi insanın könül dünyasına açılan düşüncənin hikməti ilə həyatın sirlərinə bələd edir insanı.

Şairənin lirikasının həyatla dərin təması insanlığın həyat dərdlərinin dinamikasını sürətlə dəyişdirir...

8 yanvar 2025-ci il

***

Bəzən həyatın dəyərini bildirdi, bəzən həyatın hikmətinin ecazkarlığını papaq.

Bəzən ruhun qüdrətini bildirdi, bəzən həyati fəzilətin yükünü, aydınlatdı papaq.

Bəzən namusun paklığını, bəzən də vicdanın qələbəsini bildirdi papaq.

Milli ruhun özəlliyi bir sıra həyati etiketlənmə ilə bəlli olub zaman-zaman.

Həyati-ruhi enerjinin dinamikası, bəşəri varlığın həyat davranışının nəticəsi ilə ölçülüb həmişə.

İnsanın həyat fərdiləşməsi onun əxlaqi-mənəvi dünyasının zənginliyini ehtiva edir.

Səringül Sadənin lirikasının həyati psixolojisi öz rəngarəng çalarları ilə könüllərə daşıyır həyat sirlərini.

Bələd olan yoxdu onun yaşına,
Əzəldən igidlər qoyub başına.
Olubdur həmişə bir dost, aşina,
Xalqımız sevibdir belə papağı.

Milli ruhun həyat etiketi bəzən davranışla, bəzən geyimlə özünü bəlli edib həyati olaraq.

Milli geyimin ən mühüm etiketlıridən biri məhz baş geyimləri olub.

Kişilərin baş geyimi məhz "Buxara" deyilən, aşılanmış "Qaragül" adlı xüsusi bəslənən quzu dərisindən hazırlanıb.

Hər dövrün mülki baş geyimi onun məişət münasibətlərini ifadə edirdi.

Papağın mülki və hərbi geyim kimi insanlığın həyat tarixçəsində yer tutması, onun geyim əşyaları içərisində xüsusi yeri olduğunu təsdiq edir.

Səringül Sadənin lirikası insanın ruhi-iradi gücünü göstərir.

Papaq müqəddəsdi Azərbaycanda,
Hey başda olubdu, cəngi-meydanda.
Mərdlər qoruyubdu ağır zamanda,
Onlar verməyiblər ələ papağı.

Milli düşüncənin bütövlüyü milli ruhun həyat arayışını yaradır.

Həyatın zaman tablosu onun həyati qayğılarının "şablon"unu yaradır.

Tarixin ekzotik missiyasının davamlılığı insan hisslərinin həyat ülviliyilyini qoruyub saxlayır.

Zamanın həyat karvanında davam edən yeniləşməsi milli ruhun həyat kredosunu müəyyən edir

Yazılı və şifahi, mədəni və elitar mədəniyyətin ayrı-ayrı ünsürləri xalqın milli ruhunun daşıyıcısıdır həmişə.

Səringül Sadənin lirikasında həyatın dərinliyindəki analizi və düşüncənin həyati sorğulanması insanın həyata baxışını dəyişdirir.

O, şanlı papaqdan çəkmir gözünü,
Azad ölkəmizə tutub üzünü.

Səringül Sadə də deyir sözünü,
Ar-namus biliblər elə papağı.

Düşüncənin həyati psixolojisi insanın könül dünyasının həyat işığında özünü təsdiqləyir.

Həyati ülviliyin gözəlliyi insan ruhunun qeyri-adi həyat dərdlərinin ocağını yandırır.

Qəlbin saflığının üzə çıxması insan hisslərinin həyat yoluna işıq salır.

Səringül Sadənin söz dünyası həyati düşündürücülüyü ilə daim həyatın sillabik məntiqini anlamağa imkan verir .

Şairənin milli-mədəni, fəal həyat mövqeyi, onun poeziyasının həyat gücünü artırır...

11 yanvar 2025-ci il

***

Ruhani düşüncənin psixoloji halı insanın mənəvi-əxlaqi dəyanətini ifadə edir.

Həyati düşüncənin psixoloji halından yaranan narahatçılıq insanın bəşəri varlıq kimi fərqləndirici mövcudluğunu təsdiq edir.

Milli ruhun özəlliyi, həyat insanının arzularının kəşfi, onun ləyaqətli yaşamının sürdürülməsidir.

Səringül Sadənin lirikasında həyatın dərinliyindəki hikmətin ecazkarlığı insani münasibətlərin həyati dəyərini açıqlayır.

Əl açaq Tanrının dərgahına biz,
Müqəddəs Pirlərə salavat edək!
Bədəndən çıxmamış ruhumuz, gəlin,
Məkkə, Mədinəni, ziyarət edək!

Yaradanı dərk etmək, ona məhəbbət hissi ilə bağlanmaq insanın mənəvi yüksəlişini göstərir.

Yaradanın, yaratdıqlarını Yaradana görə sevmək insanın öz Yaradanına olan sevgisinin hədəfini aşkarlayır.

İnsanın özünə qayıdışı onun Yaradana dönüşünü təmin edir.

Səringül Sadənin Söz dünyası öz həyat ruhu ilə insanın fikir mübadiləsini idraki olaraq həyatın ruhi dərinliyindəki hikmətə dönüşdürür.

Hər zaman Allahın tutaq yolunu,
Döyüb-incitməyək Allah qulunu.
Yerə yıxılanın tutaq qolunu,
Cavanlara bunu nəsihət edək!

İnsanlığa dəyər vermək insanlığın fəzilətini ortaya qoyur.

İnsanlığın həyat dərdlərinin metaforası həmişə həyatın cilvəsini yaradır.

Vətəni sevmək imandandır.

Milli ruhun özəlliyi həyat insanının arzularının zirvəsidir.

Ata-anaya sevgi insan ruhunun həyati qayğılarının diriliyini yaradır.

Səringül Sadənin lirikasında milli ruhun mənəvi dünyasının ruhi-psixoloji aləmi insanın könül dünyasının tənzimləməyə xidmət edir.

Vətəni düşünək, sevək milləti,
Ata -anamıza verək diqqəti...
Səringül Sadənin budur söhbəti,
İslam qanununa riayət edək!

Ruh anlayışı insanın mənəvi aləminin həyati hikmətini anlamaqdan ibarətdir.

Həyati münasibətlərin dolğunluğu bəşəri varlıq kimi insanın mənəvi dünyasının zənginliyini ağlın gözü ilə ehtiva etdirir.

Qəlbin ruhi görünümü insan ruhunun həyati qayğılarını üzə çıxardır.

Səringül Sadənin lirikası həyati lirika kimi ictimai düşüncənin fikir mübadiləsinin həyata şüurlu münasibətini əks etdirir.

Şairənin lirikasının həyati psixolojisi insanın yaşama olan həyati-ruhi inamını ifadə edir.

İKİ VƏTƏNİN İNSANI

Qraham Riçard Smith - türk köklərinə sahib olan bir şotland. Gəncliyindən qeyri-adi həyat yolu seçib, 17 yaşında hərbi təyyarə sürməklə hərb dünyasına qədəm qoyub. Beş ali təhsil müəssisəsini bitirən Smit, sonrakı karyerasında da fərqlənib. Ömrünün 25 ilini "Şell" şirkətinə həsr edərək, kiçik vəzifədən başlayıb və peşəkar pillələri bir-bir qalxaraq zirvəyə çatıb. Bu təcrübəsi ona həm neft sənayesində, həm də akademiyada nüfuz qazandırıb.

Smit üçün Azərbaycan sadəcə bir məkan deyil. Artıq 30 ildir ki, bu torpağa ayaq basır və hər səfərində ölkəni daha da yaxından kəşf edir. Onun Azərbaycanla bağları isə yalnız səfərlərlə məhdudlaşmır - o, artıq 30 ildir ki, Azərbaycan şairəsi Səringül Sadə ilə evlidir. Vətəni qədər sevdiyi bu ölkəni doğma Vətəni kimi qəbul edir, Azərbaycan xalqının sevincini, kədərini öz ürəyindən keçirir, onların dərdini öz dərdi kimi yaşayır.

Qraham Smit həm də ruhunun dərinliklərində şairdir. Beynəlxalq dövri mətbuatda, antologiyalarda şeirləri dərc olunub, öz şeir kitabını da oxucularına təqdim edib. Bir çox televiziya proqramlarında çıxış edən Smit, həm şeirlərindən, həm də iki xalq arasında qurduğu mənəvi körpüdən danışıb. O, sözün əsl mənasında iki Vətənin insanıdır; birində dünyaya gəlib, digərində isə həyatını yenidən yaşamağa başlamışdır.

Onun poetik dünyası ilə tanış olanda, Azərbaycana, xalqımıza vurğunluğunu, Qarabağdakı ərazi bütövlüyümüz uğrunda mübarizəmizi, haqq işimizi beynəlxalq arenada dəstəklədiyini biləndə şeirlərini ingiliscədən ana dilimizə çevirməyi qərara aldım.

Zeynəb CƏMALƏDDİN

QRAHAM RİÇARD SMİTH

CƏNAB PREZİDENT

(Sestina formasında)

Qədim kökündən doğur, Bakı gəncləşir hər an,
Rəhbərdi burda İlham, həm Ali Baş Komandan.
Azərbaycana nurdu zəkası parlaq, necə,
Sınaq-zəfər arası yoldadı gündüz-gecə.
Əzmi, iradəsiylə mayakdır bu ellərə,
Əməlləri mirasdır gələcək nəsillərə.

Əməlləri mirasdır gələcək nəsillərə,
Müdrik, mətin xisləti dastan olub dillərə.
Dönüş nöqtələrində uzaqgörən hər qərar,
Ölkəni inkişafa, tərəqqiyə aparar.
Hər addımla dəyişir Azərbaycanın donun,
İnam və sevgi ilə yanındadır xalq onun.

İnam və sevgi ilə yanındadır xalq onun,
Təşəkkür, alqış səsi bəsləyir şohrət-şanın.
Tükənməz əzmi ilə ucaldır rifahını,
Yüksələn bu millətin qoruyur sabahını.
Bakıda hər bir kəsin duasında, dilində,
İlhamla addımlayan Azərbaycan elində.

İlhamla addımlayan Azərbaycan elində,
Qətiyyətli rəhbərə var inamı elin də.
O xalqı birləşdirib bir dəmir yumruq kimi,
Sınaqlardan zəfərə andın, sözün hakimi.
Bakının qucağında, idrakın vüsətiylə,
Azərbaycan yüksəlir, güclü siyasətiylə.

Azərbaycan yüksəlir, güclü siyasətiylə
Prezident İlhamın aydın bəsirətiylə.
Sevgi ilə anılır adı uca qayatək,
Bakının üfüqündən dağda göy səmayadək.
Ümid və səbat ilə xalq güvənir sabaha,
İlham ilə irəli, ümid, inam, rifaha.
Azərbaycan onunla haqqa güvənmış daha.
Bakının ürəyində, o rəhbərdi, müzəffər!

14.01.2025

XOCALI DASTANI

Qüssə, kədər ağlayan zülmətin kölgəsində,
Gizlədərək tarixi, susan nağıllar yalan.
Xəyallar qanadlanan bir Odlar olkəsində,
Xatırələr çapıqdır, arzu-ümidlər talan.
Həkk olub hər damlada, nalə, fəqan səsində,
Xocalı - ağrı demək, dəhşət, ölüm, qan demək!
Ötüb keçən fevralın hər soyuq nəfəsində,
O yollara yazılmış qorxulu dastan demək!
Kim durdura bildi ki, axıb gedən qanları,
Dağların qucağında nə fəryadlar ucaldı.
Zərif ləçəklər kimi bu günahsız canları,
Sovurdu sərt küləklər, məşum dənizlər aldı.
Of, erməni kölgəsi sivri, dəmir daraqdı,
Hansı qəlbə toxundu, qırıldı həyat simi.
Parçalandı küləkdə, sanki kağız varaqdı,
Ailələr yox oldu, sönən ümidlər kimi.
...Titrəyirdi hələ də kölgələr arasında,
Həyata bağlı işıq... haqq yetirdi dadına.
Ehtiramla anaraq şəhidlər sırasında,
Yandırın haqqın odun, o ruhların adına.
Xatirələr saralar on illərin tozunda,
Susmaz Xocalı dərdi, tarixin səsi kimi.
Bir naxıştək zamanın qobelen xalısında,
Şahiddir qəddarlığın bədnam ləkəsi kimi.
Xatırlayaq iltifat, hörmətlə, ehtiramla,
Xocalı qurbanları son məkanda uyusun.
Bütün ümidsizliyə qarşı duraq inamla,
Bu, bizim insanlığa möhkəm andımız olsun.

19.10.2024

XOCALIDA GECƏYDİ,
BAŞQA GECƏLƏR KİMİ...

Xocalıda gecəydi, külək pıçıltısında
bülbül layla çalırdı,
Yox, o gecə havada sanki kabusa bənzər
kölgə nəfəs alırdı...
Qan çanağı gözünü hiddətlə bərəldərək,
saçırdı düşmən zəhər.
Torpağına sığınıb, bulağından su içən,
evində başa keçən,
Siyrılmışdı qınından, dost qılıqlı o düşmən,
bir qılıncdı can biçən...

Xəyanətin kölgəsi sıxlaşıb qaralanda,
səssiz boylanırdı Ay,
Birdən-birə sükutu parçaladı mərmilər,
bu nə dəhşət, hay-haray,
Güllələr dolu kimi səpıldi yuxusuna
günahsız insanların,
Bir ölüm qasırğası fəlakətə çevirdi
gizlədilmiş kinləri,
Çaşqın, əliyalındı, xəyanət gözləmirdi
Xocalı sakinləri.

Bir bıçaq kimi dəldi o gecənin bağrını
uşaqların harayı,
Bircə anda yıxıldı inam, ümid özüllü
insanların sarayı.

Analar titrəyərək, körpələr qucağında,
üz tutdular meşəyə,
Göstərirdi düşmənə büdrəyən qocaları
alovların dilləri,
Soyuq qış gecəsində 613 ürək
susdu, qaldı külləri...

Ah, qanı anaların qarışdı torpaqlara,
torpağın yandı bağrı,
Körpələrin gülüşü dondu dodaqlarında,
iz qoydu dəhşət, ağrı.
Bu nə qırğın, ay Allah, Türk deyərək qırdılar
körpə, ahıl demədən...
Yaşadığı torpağın izini daşıyırdı
hər bir üz, hər bir bədən...
Kor qaldı səkkiz ocaq, 130 körpə yetim...
o vəhşətli gecədə...
Ruhlar dərbədər kimi itmış doğmalarını
axtarırdı necə də...

Niyyəti, qəsdi vardı, bu riyakar millətin,
Vətəndən pay alanda,
Nifrətə yüklü olan erməni qızlar gəlib,
türkə gəlin olanda,
Qanla suvarmaq üçün bu torpagı, bu yurdu,
düşmən necə qudurdu...
Dibsiz qaranlıqlara sürükləndi əsirlər,
yoxa çıxdı nəsillər,
məchulluq aqibəti...

İmdad haraylarına susdu, susdu bu dünya,
bəlkə yoxdu cürəti?

Oh, bu aləm, bu dünya, donmuşdu dağlar kimi,
qulağı kar, gözü kor...
Jurnalist yuzdən də çox, əldə qələm, kamera,
fəqət... toxunmuşdu tor...
Dəyişmədi taleyi Xocalı qırğınının,
ha təsvir edilsə də...
Verilmədi qiyməti, Haqq deyənin dilində
yoxdu "SOYQIRIM" haqqı,
Öz yerini almadı ədaləti dünyanın,
ucaltdılar nahaqqı.

…Bir vaxtlar həyat dolu, çıçəklənən Xocalı,
yıxıldın, dağıdıldın,
Hayqırmadı haqqını, məhkəmə, təşkilatlar.
Sanki yox imiş adın.
Bu cinayət ən ağır, ən dəhşətli cinayət,
söyləmişdi BMT.
Amma yoxdu faydası,
bir oyundu qaydası,
ürək daş, ürək dəmir,
Keçdi 32 il, nə səda var, nə səmir,
dünya haqqı söyləmir.
Dünya susur… Yox səda...
Dünya susur, yox nida!..

23.10.2024

YALNIZ QIRX DÖRD GÜN...

Yalnız qırx dörd gün ötər, yer oynayar yerindən,
Ədalətin otuz il susdurulduğu yerdə.
O millət ki, qolları bağlıydı kədərindən,
Birləşdi tək əl kimi haqq durulduğu yerdə.

Düz yeddi gün boyunca müharibə yelləri,
Car etdi Füzulinin, Cəbrayılın harayın.
Uzandı düşmən üstə haqqın qadir əlləri,
Vətən qürurla andı o sentyabr ayın.
Yürüş etdi əsgərim, tozla şeh arasından,
Hər addım, hər qarışa axdı qan yarasından.
Zəfərə cığır açdı hər qəlbdə ümid payı.
Azərbaycan dikəldi çəkib zəfər harayı.

Daha iki həftə də.. Ucalır səsi qurdun,
Həm Qubadlı, Zəngilan qapısı qədim yurdun.
Sərhədlər möhürlənir, yarıldıqca cəbhələr,
Qarabağın ürəyi... həsrətdə... çəkir nələr…
Hücum hücum dalınca… Qalxdı üçrəngli bayraq,
Burda səma altında yer, yerində qalacaq…

İyirmi iki - otuz bir. Hər gün dəydi min aya,
Qaranlıq gecələrdə yol başlandı Şuşaya.
Keçib sıx meşələri, aşıb qaya-daşları,
Amansız döyüş oldu, dron silahdaşları.
Hər igid ər fatehim sərt qayaya dırmandı,
Dillərdə dastan oldu, müqəddəs zəfər andı.

Otuz ikinci gündür. Göylər ayna tək təmiz,
"Şuşa, sən bizimləsən, ötüb keçdi dərdimiz".
Küçələr xatırlayır, bu addımlar bir nida!
"Biz sənə döndük Şuşa" hər yandan gəlir səda.
Qürurun əllərində yüksəldi səhər-səhər,
Şəhid igidlərinin simvolu - qalib şəhər!

Qırx bir - qırx dörd arası, artıq bəlliydi sonu,
Bürümüşdü dörd yanı gecənin qara tonu.
İmzalandı sənədlər, müharibə dayandı.
Qələbə əhvallı xalq yeni günə oyandı.
Qızıl xətlə yazıldı tarıxə şanlı zəfər,
Rəşadətli ordumuz, igid, cəsur, müzəffər!

Qırx dörd gün rəşadəti hüzur verdi ellərə,
Perik düşən yuxular qayıtdı mənzillərə.
Əsir torpaq büründü azadlıq havasına,
Füzulinin tozundan, Şuşanın səmasına.
Sınmayıb, mətin olan bu torpağa, yurda bax,
Bir ürək, bir can olan Azərbaycan - Qarabağ!

30.10.2024

QƏLƏBƏ GÜNÜ BAKIDA

Bakının ürəyində, əski xatiratları
döyünür hər küçədə,
Daş-divardan yüksələn, bu səslər dalğa-dalğa
çaya bənzər necə də.
Sanki alovtək yanır, alov qüllələrində,
tarixin od gözləri,
Hər gözü od püskürən "bitdi, bitəcək"
deyən zəfərin nəfəsidir,
İrəliyə hər addım, keçmişindən güc alan
qələbənin səsidir!

İsinmədi düşmənə nə Hadrut, nə Füzuli,
nə də qədim Cəbrayıl,
Öz bağrında çəksə də döyüşün agır yükün,
olmadı zülmə qayıl.
Küləklərlə səsləşib, müqəddəs himni söylər
indi pıçıltısında.
Millətin öz əliylə, bir olmanın gücüylə
birləşdi torpaqları,
Polad kimi bərkidi bu xalqın mətanəti,
dağlarda qartal kimi,
O yerdə ki Şuşanın sivri qayalarıydı
arzuların hakimi.

Dağ aşırımlarından, sıx meşələrdən keçən
bu yurdun övladları,
Tək deyildilər əsla. Əcdadların kölgəsi
sahibdi bu yollara.

Burdaydı, sanki burda. Mübariz atalarla
sədaqətli analar.
Həmrəylik nidaları bu gün azad nəfəstək
səmada dalğalanar,
Qayalar üzərində yellənən bayraq təki,
sabahın andı kimi.
Birləşdirir hər nida bü günkü qələbəylə
dünənki hər itkini.

Bu gün tək zəfər deyil bu bayramın səbəbi...
Sakit səma, əmin yer...
Hər qarışda yenidən kök salacaq ümidlər,
dən bitəcək yerbəyer.
Qürub şəfəqlərinin atəşfəşanlığında
birləşib dayanmışıq.
Əyilməz polad olduq, biz bu odda-ocaqda
hər nə qədər yanmışıq.
Hər qarış torpaq ki, var, qanımızla suvardıq,
qoy bilsin yer kürəsi,
Hər tərəfə car olsun küllərindən doğulan
ölməz xalqın nəğməsi.

Aydın səma altında... Dağlardan dənizədək...
biz ucalar, qalxarıq,
Bu torpaqda döyünər qəlbi Azərbaycanın...
Vətən varsa, biz varıq!
Vətən varsa, biz varıq!..

05.11.2024

ƏSRİN DÖRDDƏ BİRİNİN QEYDLƏRİ

İki min iyirmi dörd - dadım, duzum, əlvida!
Çevrilən son vərəqdə, son nağılım - son nida!
Zaman ruzigarları əsdikcə incə-incə,
Yeni-yeni ümidlər bəslənir qədərincə.

Oyandırır bir əsri, bir rüb ondan qoparaq,
Bulanıq arzuların nəğməsi bir az uzaq.
Nə umuruq zamandan, o bizə vəd edir nə?
Aydın, təmiz yol açа o, həm sənə, həm mənə.

Öyrəndik yaşayaraq duanı, iztirabı,
Yaraya məlhəm olan ümid, sevgi, savabı.
Hər sınaqda bərkiyib, dayanmağı ayaqda,
Haqqa güvənmək oldu arzulara mayak da.

İyirmi beşinci il - üfüqündə zamanın,
Baxışlar seyr etmədə sanki sonsuz səmanı.
Geniş kətan üstündə gələcəyin rəsmi var,
Ümid budaqlarında solan, açan arzular...

Kök salacaqmı sevgi, yox olacaqmı nifrət,
İdrakdan doğacaqmı azadlıq və səadət?
Sağalarmı çapıqlar əridəndə buzları?
Qucaqlamaq olarmı göydəki ulduzları?

Kaş əsrin qədərində sətir-sətir yazıla,
Qızıl ürəklərdəki büllür ümid-arzular.
Cürət, xeyir hökm edə, qalmaya pislik, nə şər,
İl-ildən gözəl ola yer üzü, dünya, bəşər.

Bax, bizi əsrar ilə, Sara, sarmışdır zaman,
Keçmiş pıçıldayırsa, gələcək baxır bu an.
Ürəklə addımlayıb, keçək sirli kölgəni,
Möcüzəyə bələsin o həm səni, həm məni.

08.01.2024

HƏR İKİMİZ XOŞBƏXTİK...

Artıq uzun illərdi Qrahamla bir ömür yolunu qoşa addımlayırıq. Yenə də müxtəlif ölkələrə uşaqlarla, nəvələrlə birgə gedib-gəlirik. Uşaqlar böyüyüb, artıq hərəsi bir eveşik sahibidir. Nəvələrin uğurlarına sevinirik, onların xoş müjdələri həyatımıza yeni-yeni xoşbəxtlik rəngləri qatmaqdadır. Qrahamla həmişə mehriban olmuşuq, heç vaxt bir-birimin xətrinə dəyməmişik. Bütün bunlar bizdə yeni yaşamaq həvəsi yaradır.

Ədəbiyyatımızdakı dastanları oxumuşam, çoxunu əzbər də bilirəm. Xüsusilə məhəbbət dastanlarını azman aşıqların dilindən eşitmişəm. O dastanlarda sevənlərə buta verilir. Sevənlər butasının dalınca dağlar, dərələr aşır, oddan, alovdan, çətin sınaqlardan keçir və qovuşurlar. Allahımız çox əziyyət vermədən, oddan, alovdan, qorxunc məxluqlara rast gəlmədən bizi qovuşdurdu. Buna görə taleyimizdən çox razıyıq. Biz öz dastanımızı özümüz yazdıq, bir-birimizə güvənərək, qarşılıqlı sevgi ilə. Bizə yuxuda yox, real həyatda buta verildi. Böyük yaradan məni həyat yoldaşımla mükafatlandırdı. Mən bundan böyük xoşbəxtlik tanımıram. Bir-birimizi tamamlayırıq, bir-birimizlə bütövük.

Həyatda bütün arzularıma, diləklərimə, hətta xəyallarıma çatmaqda həyat yoldaşımın misilsiz rolu, yardımı, təmənnasız xidməti var. Həyatın həm maddi, həm də mənəvi nemətinə nakam, tamarzı qalmamışam. Düzdür, Allah

mənə dərd də, qəm də verib, ancaq xoş, firavan günləri kədərdən, dərddən yüz dəfələrlə artıq verib.

Həyat yolumuzu kimə danışmışamsa, gözlərində təəccüblə bərabər, bizə həsəd də görmüşəm, deyiblər ki, doğrudan da sizin həyatınız, əfsanəvi sevginiz müasir dövrün hamıya nümunə götəriləsi gerçək dastanIdır. Məni xoşbəxt sayanlar çoxdur. Doğrudan da belədir. Qraham da xoşbəxtdir.

Allah nə qədər ömür versə, inanırıq ki, bir-birimizə sadiqik, bir ömür boyu da sadiq olacağıq. Yenə təkrar edirəm, çox-çox xoşbəxtik hər ikimiz.

Mədəniyyətimizdə, adət-ənələrimizdə, bir çox etiket qaydalarında fərqlər olsa da, bir-birimizi ilk baxışdan çox gözəl anlamışıq, mən ona, o, mənə tez alışmışıq.

Qraham Azərbaycanı belə demək mümkünsə, öz Vətəni qədər, bəlkə də ondan da çox sevir, insanlarının mənəvi dünyasına heyrandı. Onun poetik duyğuları buna əsl sübutdur.

Nə yaxşı ki, tale bizi görüşdürdü və birləşdirdi...

İÇİNDƏKİLƏR

Vətən sevdalısının qürbət duyğuları 3
Mən kiməm 9
Ata, ana - Rəbbimin kölgəsi 11
Qardaş, bacı - başımın tacı 14
Bir dünya tapmışdım yar baxışında 19
Mənim dünyam 30
Adından düşən ağlar 35
Poeziya həssas qəlbin işığıdır 37
Məni necə tanıyırlar 42
Səringül Vətən dəlisidir 43
İnsanların və poeziyanin sadə Səringülü 45
O, mənə taleyimin bəxşişidir.....46
Səringül Sadənin söz dünyası 48
İki qəlbin vəhdəti 49
Dili şeir dualı etibarlı dost 53
Sadənin ruhu tərpədən bayatıları 53
O, sözün rəsmini çəkir 54
Sarı aşıq ruhlu bayatılar 55
Baş tacımız – kəlağayı və papaq 57
Taleyin gözlənilməz xoş sürprizi 61
Qürbətdən qürbətə 77
Vətən üçün ölümün gözünə dik baxaram 122
Eşq həyatın özüdü 124
Nəsib Abid lirik dünyamı necə görür 127
İki Vətənin insanı 157

Qraham Riçard Smithin şeirləri

Cənab prezident 159
Xocali dastanı 161
Xocalıda gecəydi, başqa gecələr kimi 162
Yalnız qırx dörd gün 165
Qələbə günü Bakıda 167
Əsrin dörddə birinin qeydləri 169
Hər ikimiz xoşbəxtik 171

"Elm və təhsil" nəşriyyatının direktoru:
İNAL MƏMMƏDLİ

Dizayner**:** **Zahid Məmmədov**
Texniki redaktor: **Elnarə Malikqızı**

Çapa imzalanmış 14.03.2025
Şərti çap vərəqi 11. Sifariş № 42
Kağız formatı 60x84 1/16. Tiraj 100

Kitab “Elm və təhsil” nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4